

Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...

Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

30 may 2025-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə həsr olunmuş ədəbi-bədii təqdimat** →Səh.4

**Böyük Britaniyanın Tibbi Tədqiqatlar Şurasının Hesablama Struktur Biologiyası qrupunun rəhbəri Qərib Mürşüdov BDU-da mühazirə deyib** →Səh.4

**Milli Məclisin üzvü Nigar Məmmədova BDU-da "Gənclər Heydər Əliyev ideyalarının daşıyıcısıdır" mövzusunda mühazirə deyib** →Səh.4

**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş esse müsabiqəsinin nəticələri açıqlanıb** →Səh.5

**BDU-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş Respublika elmi konfransı** →Səh.6

**BDU-da Materialşünaslıq elmi-tədqiqat laboratoriyasının açılışı olub** →Səh.15



**BDU və Özbəkistanın Əbu Əli İbn Sina adına Buxara Dövlət Tibb İnstitutu arasında anlaşma memorandumu imzalanıb** →Səh.2



**Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətinin nümayəndə heyəti ilə görüş** →Səh.2



**BDU-da “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş Beynəlxalq konfrans** →Səh.5



**BDU-da “Ənənəvi dəyərlərin və ailə institutunun qorunması təhsil prosesində vacib amil kimi” mövzusunda konfrans** →Səh.7



**BDU-da “Milli mətbuat tarixi” auditoriyası açılıb** →Səh.11



## Ulu Öndər Heydər Əliyevin ideyaları bu gün də yaşayır

***Mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, görkəmli siyasi xadim Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü tamam olur.*** Qədirbilən xalqımız hər il olduğu kimi bu il də Ulu Öndərin doğum gününü böyük coşqu və sevinclə qarşılayır. Hər bir Azərbaycan vətəndaşı yaxşı bilir ki, ötən əsrin yetmişinci illərindən başlayaraq xalqımızın və dövlətimizin əldə etdiyi uğurların böyük əksəriyyəti Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Ümummilli Lider Heydər Əliyev görkəmli siyasi və dövlət xadimi kimi ölkəmizi və xalqımızı tarixin ağır və sərt sınaqlarından çıxarıb. Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması məhz onun misilsiz xidmətləri sayəsində mümkün olub.

Ötən əsrin 60-cı illərinin sonundan başlayaraq Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizin taleyində yeni mərhələnin başlanğıcını qoyub, Azərbaycanın müstəqilliyə doğru gedən yolunun möhkəm təməllərini formalaşdırıb. Totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün həyatın bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməyə başlayıb. Ulu Öndərin inanılmaz səyləri nəticəsində qısa müddət ərzində Azərbaycan keçmiş SSRİ-nin geridə qalmış respublikasından sənayenin inkişaf etdiyi bir respublikaya çevrilib. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verib. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirilib. Yeni və mütərəqqi sənaye sahələri yaradılıb. Elm, təhsil, mədəniyyət sahələrində misli görünməmiş uğurlara imza atılıb. SSRİ-nin bütün ideoloji maşınının milli-mənəvi dəyərlərin unudulmasına xidmət etdiyi bir məqamda Ulu Öndərin böyük cəsarəti və əzmkarlığı sayəsində gələcək milli ordu quruculuğunun əsasını təşkil edən Cəmşid Naxçıvanski adına Hərbi məktəb yaradılıb. 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyasında ilk dəfə olaraq Azərbaycan dili dövlət dili kimi öz hüquqi qüvvəsini tapıb.

Ulu Öndərin bu illərdəki fəaliyyətinə ən böyük qiymət onun 100 illik yubileyi ilə əlaqədar Prezident İlham Əliyevin Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi barədə müvafiq Sərəncamında verilib. Həmin Sərəncamda qeyd edildiyi kimi, “Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir.

*(Ardı 3-cü səhifədə)*

## BDU kollektivi Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib

→Səh.4

# BDU və Özbəkistanın Əbu Əli İbn Sina adına Buxara Dövlət Tibb İnstitutu arasında anlaşma memorandumu imzalanıb

*Mayın 6-da BDU və Özbəkistanın Əbu Əli İbn Sina adına Buxara Dövlət Tibb İnstitutu arasında anlaşma memorandumu imzalanıb.*

Sənədi BDU-nun rektoru Elçin Babayev və Əbu Əli İbn Sina adına Buxara Dövlət Tibb İnstitutunun rektoru Şuxrat Teşayev imzalayıblar.

Rektor Elçin Babayev bildirib ki, 1919-cu ildə BDU fəaliyyətə başlayanda onun ilk fakültələri məhz Tarix-filologiya və Tibb fakültələri olub. Hazırda BDU-da biologiya, kimya, biokimya, biofizika, biotexnologiya, genetika və s. kimi tibbə yaxın sahələr üzrə mütəxəssislər hazırlanır, tədqiqatlar aparılır. Bundan əlavə, BDU-da ICESCO-nun ixtisaslaşmış Biotibbi materiallar kafedrası da fəaliyyət göstərir. Rektor Əbu Əli İbn Sina adına Buxara Dövlət Tibb İnstitutu ilə adıçəkilən sahələr üzrə ortaq elmi tədqiqatların aparılması, birgə elmi konfransların təşkil edilməsi üçün geniş imkanların olduğunu diqqətə çatdırıb.



Əbu Əli İbn Sina adına Buxara Dövlət Tibb İnstitutunun rektoru Şuxrat Teşayev 35 illik tarixə malik ali təhsil müəssisəsinin 10 min tələbəsi, 3 klinikasının olduğunu bildirib. O, imzalanan memorandumun hər iki ali təhsil ocağının inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Memorandumda birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

# Milli Məclisin üzvü Hikmət Babaoğlu Ulu Öndər Heydər Əliyevin siyasi irsi ilə bağlı mühazirə deyib

*Mayın 1-də BDU-nun Heydər Əliyev Muzeyində Milli Məclisin üzvü, siyasi elmlər üzrə fəlsəfə doktoru, professor Hikmət Babaoğlu "Heydər Əliyev siyasi irsinə yeni tarixi reallıqdan analitik baxış" mövzusunda tələbələrə mühazirə deyib.*

Universitetin Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Hikmət Babaoğlunun siyasi və elmi fəaliyyəti haqqında tələbələrə məlumat verib, BDU-da iki ildən artıq müddətdə davam edən "Heydər Əliyev mühazirələri" layihəsinin Ulu Öndərin zəngin irsinin tələbələrə aşılanması baxımından əhəmiyyətini vurğulayıb.



Məruzə ilə çıxış edən Milli Məclisin üzvü Hikmət Babaoğlu qeyd edib ki, xalqımızın böyük oğlu, Ümummilli Lider Heydər Əliyev müstəqil dövlətimizin qurucusu, Azərbaycanın müasir hüquqi-siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi, milli özünüdərk şüurunun formalaşdırıcısıdır.

Deputat nəzərə çatdırıb ki, Ulu Öndər Heydər Əliyev azərbaycançılıq ideologiyasının əsaslarını hələ Sovet dövründə, 1969-cu ildə Mərkəzi Komitəyə birinci katib seçildikdən dərhal sonra, Bakı Dövlət Universitetinin yaradılmasının 50 illik yubiley tədbirində Azərbaycan dilində söylədiyi nitqiylə qoymuşdu. Bu çıxışında Ulu Öndər Azərbaycan dilini dövlət dili statusunda yenidən təqdim edib: “Ümummilli Lider müstəqil Azərbaycan dövlətini Azərbaycan xalqının milli sərvəti hesab edirdi və bütün ömrünü bu dövlətin güclənməsi, qorunmasına həsr etmişdi. Müstəqillik tariximizin elə kritik səhifələri var ki, həmin mərhələlərdə Ulu Öndərin atdığı uzaqgörən strateji qərarlar olmasaydı, milli dövlətçiliyimiz böhrandan xilas edilə, inkişaf edərək hazırkı mərhələyə çata bilməzdi. Bu gün Ümummilli Lider Heydər Əliyevin yaratdığı milli dövlətçilik ənənələri, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən ölkəmiz müstəqil dövlətçilik tariximizin ən güclü Azərbaycanıdır”.

Daha sonra millət vəkili tələbələrin mövzu ilə bağlı suallarını cavablandırıb.

# BDU ilə Pakistanın İslamabad Fond Universiteti arasında anlaşma memorandumu imzalanıb

*Mayın 12-də BDU ilə Pakistan İslam Respublikasının İslamabad Fond Universiteti arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.*

Memorandumu BDU rektoru Elçin Babayev və İslamabad Fond Universitetinin Muhammad Kaleem Asif imzalayıb.

İmzalanma mərasimində çıxış edən rektor Elçin Babayev beynəlxalq əməkdaşlıqların gücləndirilməsinin BDU-nun inkişaf strategiyasının əsas istiqamətlərindən biri olduğunu qeyd edib. O, Pakistanın nüfuzlu ali təhsil müəssisələrindən biri olan İslamabad Fond Universiteti ilə imzalanan memorandumun universitetlər arasında elmi-tədqiqat əməkdaşlığının, akademik mübadilə proqramlarının genişləndirilməsi, birgə innovativ layihələrin həyata keçirilməsinə mühüm töhfə verəcəyini bildirib.

Memorandum iki universitet arasında geniş spektrli əməkdaşlığı nəzərdə tutur. Memorandumda birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

# BDU-da DOST Agentliyinin nümayəndə heyəti ilə görüş

*Mayın 7-də BDU-da Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin İdarə Heyəti sədrinin müavini Tural Mailovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.*

BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev DOST Agentliyi ilə 2022-ci ildə imzalanmış anlaşma memorandumunun icrası üzrə birgə Fəaliyyət Planının uğurla icra olunduğunu bildirib. O qeyd edib ki, əmək bazarının tələblərinə uyğun yüksəkixtisaslı kadrlar hazırlamaq BDU-nun əsas prioritetlərindəndir. BDU bu prosesi işəgötürənlərlə birgə həyata keçirir. Dövlət qurumları arasında ilk dəfə məhz DOST Agentliyi ilə bu prosesə start verilib: “BDU ilə DOST Agentliyi arasında əlaqələrin, qarşılıqlı əməkdaşlığın səviyyəsi bu gün bir çox universitetlərə nümunə göstərilə bilər. Bu əməkdaşlığı daha da inkişaf etdirmək, müxtəlif birgə layihələr həyata keçirmək niyyətindəyik. Hazırda BDU Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin digər tabeli qurumları, həmçinin müxtəlif dövlət orqanları ilə uğurlu əməkdaşlıq əlaqələri qurub, birgə Fəaliyyət Planları həyata keçirir”.

DOST Agentliyinin İdarə Heyəti sədrinin müavini Tural Mailov isə qeyd edib ki, sosial siyasət sahəsində ixtisaslı kadrlara tələbat günü-gündən artır. Bu baxımdan sosial istiqamətlər üzrə kadr hazırlığının həyata keçirən BDU ilə əməkdaşlığın rolu əvəzsizdir.

Görüşdə BDU və DOST Agentliyinin birgə Fəaliyyət Planına uyğun olaraq həyata keçirilən və planlaşdırılan işlərin müzakirəsi aparılıb.

# Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətinin nümayəndə heyəti ilə görüş



***Mayın 14-də BDU-da Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov da iştirak edib.*** Nümayəndə heyətində Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Şamil Ayrım, Türkiyə-Şimali Kipr Türk Cümhuriyyəti Parlamentlərarası Dostluq Qrupunun sədri Orhan Erdem, Şərqi Ağdəniz Universitetinin Fondunun İdarə Heyətinin sədri Erdal Özcenk, Şərqi Ağdəniz Universitetinin rektoru Hasan Kılıç və Şimali Kipr Türk Cümhuriyyəti Prezidentinin siyasi işlər üzrə müşaviri Anıl Kaya yer alıb.

BDU rektoru Elçin Babayev görüşün Azərbaycan ilə Türkiyə və ŞKTC arasında elm, təhsil və mədəniyyət sahələrində əlaqələrin daha da möhkəmləndirilməsinə böyük töhfə verəcəyini vurğulayıb. Rektor birgə elmi tədqiqatların aparılması, ortaq tədris proqramlarının, tələbə-müəllim mübadiləsinin həyata keçirilməsi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi üçün belə görüşlərin vacib olduğunu bildirib.

Qonaqlar Azərbaycan ilə Türkiyə və ŞKTC arasındakı dostluq əlaqələrinin yalnız siyasi sahədə deyil, həm də elm və təhsil sahələrində daha da möhkəmləndirilməsinin vacibliyini vurğulayıblar.

Görüşdə təhsil və elm sahəsindəki mövcud təcrübələr müzakirə edilib, gələcəkdə birgə təşkil olunacaq layihə və tədbirlər barədə fikir mübadiləsi aparılıb.

# Ulu Öndər Heydər Əliyevin ideyaları bu gün də yaşayır

*(əvvəli 1-si səhifədə)*

Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir”.



Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışdığı illərdə də Ulu Öndər respublikamızı unutmurdu, bu vəzifənin ona verdiyi imkanları doğma xalqının rifahı və tərəqqisinə yönəldirdi, ölkəmizin sosial-iqtisadi və mədəni inkişafı üçün əlindən gələni əsirgəmirdi. Naxçıvanda olduğu illərdə isə bu torpaqlarımızın işğalının qarşısının alınması və Naxçıvanın inkişafı istiqamətində misilsiz xidmətlər göstərdi. Ulu Öndərin Naxçıvan MR Ali Məclisinin Sədri kimi fəaliyyət göstərdiyi dövrdə 31 dekabrın “Dünya Azərbaycanlılarının Həmrəylik Günü” kimi təsis edilməsi haqqında qəbul edilən tarixi qərar xalqımızın birliyinin və həmrəyliyinin təmin edilməsi ilə yanaşı, həm də xalqın bir əqidə, bir məslək uğrunda birləşdirilməsinə xidmət edirdi.

1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev bütün imkanları səfərbər edərək ölkəni xaosdan, anarxiyadan, parçalanıb məhv olmaqdan qorudu. Müstəqil Azərbaycan Respublikasının gələcək inkişaf strategiyasını müəyyən etdi və onun həyata keçirilməsi üçün mühüm addımlar atdı. Yenidən əldə edilmiş müstəqilliyimizin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi istiqamətində misilsiz xidmətlər göstərdi. 1995-ci ildə qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ilə hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğuna doğru mühüm addımlar atıldı. Bütün bunların nəticəsində xalqın ictimai-siyasi, iqtisadi və mədəni dirçəliş baş verdi, xalqın və dövlətin sabahına inam bərpa edildi. Ölkənin davamlı inkişafı, Azərbaycanın modern və qüdrətli bir dövlətə çevrilərək dünya dövlətləri sırasında layiqli yer tutması üçün möhkəm və sarsılmaz təməllər yaradıldı.

Ümummilli Lider Heydər Əliyev müstəqillik illərində dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, xalqımızın milli-mənəvi dəyərlərini özündə yaşadan azərbaycançılıq ideologiyasının da təşəkkülü və inkişafına diqqət yetirirdi. Ölkəmizdə əsası Heydər Əliyev tərəfindən qoyulmuş azərbaycançılıq ideologiyasının formalaşması dövlətçiliyimiz və xalqımızın inkişafında mühüm rol oynamış, milli özünüdərkin və milli ruhun dirçəlməsinə səbəb olmuşdur. Ulu Öndər Dünya Azərbaycanlılarının I Qurultayındakı nitqində qeyd edirdi: “Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir”. Bu gün azərbaycançılıq milli və dövlət ideologiyası statusu əldə etməklə milli birliyin, ölkəmizdəki əmin-amanlıq və sabitliyin, xalq-iqtidar birliyinin təməlinə çevrilib.

Ulu Öndərin: “Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!” kəlamı onun vətəndaş mövqeyini, milli köklərinə bağlılığını və azərbaycançılıq ideologiyasına sadiqliyini sübut edən tarixi bir bəyanatdır.

Hakimiyyətdə olduğu illərdə Ümummilli Lider ölkəmizdə elm və təhsilin, o cümlədən ali təhsilin inkişafına və səriştəli kadr hazırlığına daim diqqət və qayğı göstərib. Təhsili millətin gələcəyi hesab edən dahi rəhbər yaxşı bilirdi ki, elmin inkişafı və yüksəksəviyyəli təhsil hər bir ölkənin uğurlu inkişafını şərtləndirən əsas amillərdən biridir. Xalqın rifahı, dövlətin formalaşması və davamlı inkişafı əhəmiyyətli dərəcədə elm və təhsil sistemində əldə edilən nailiyyətlərlə təyin olunur, təhsilin inkişafı nəticəsində formalaşan insan kapitalı ölkənin iqtisadi və sosial rifahının artırılmasında əhəmiyyətli rol oynayır. Təkcə onu demək kifayətdir ki, Ulu Öndər Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdı. Eləcə də Ulu Öndər azərbaycanlıların keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdı. Məhz Heydər Əliyevin təşəbbüsü və himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdı. Ulu Öndər Heydər Əliyev müstəqillik illərində də təhsilin inkişafını diqqətdən kənarda qoymamış, onun misilsiz xidmətləri sayəsində bu sahənin inkişafında yeni mərhələ başlamışdır.

Qürurverici haldır ki, xalqımızın birliyi, ordumuzun rəşadəti və Prezident İlham Əliyevin cəsarəti, qətiyyəti və iradəsi sayəsində dövlətimizin 44 günlük Vətən müharibəsində inamlı Qələbəsi və 2023-cü ilin sentyabr ayının 19-20-də 24 saatdan da az bir müddətdə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu, müqəddəs ata vəsiyyəti və xalqımızın ən ülvi arzusu şərəflə yerinə yetirildi. İşğaldan azad olunmuş ərazilər də daxil olmaqla üçrəngli Bayrağımızın Azərbaycanın hər bir nöqtəsində dalğalanması Ulu Öndərin ideyalarının təntənəsidir.

Şübhə etmirik ki, Vətən müharibəsində qısa bir müddət – cəmi 44 gün ərzində inanılmaz dərəcədə böyük Qələbənin qazanılması dünya dövlətləri tərəfindən hərb tarixində misli görünməmiş bir hadisə kimi qəbul edildiyi və öyrənildiyi kimi, işğaldan azad edilmiş ərazilərdə qısa bir müddət – cəmi bir neçə il ərzində inanılmaz dərəcədə sürətlə və planlı şəkildə aparılan bərpa və quruculuq işləri də dünya təcrübəsində misli görünməmiş bir hadisə kimi qiymətləndiriləcək. Bu illər ərzində əldə olunan nailiyyətlər bir daha təsdiq edir ki, Ulu Öndər Heydər Əliyevin ideyaları bu gün də yaşayır və öz bəhrəsini verir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: “Heydər Əliyevin siyasəti yaşayır, onun ideyaları, fəlsəfəsi, ideologiyası yaşayır, qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır və onun yolu ilə inkişaf edir”. Əminik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası Ulu Öndərin həmişəyaşar ideyalarına söykənərək gündən-günə inkişaf edən, böyük hərbi gücə və iqtisadi potensiala malik demokratik bir ölkə kimi öz müstəqilliyini və suverenliyini əbədi olaraq qoruyub saxlayacaq və dünya dövlətləri sırasında öncül yerlərdə qərarlaşacaq.

Ulu Öndərin 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi barədə müvafiq Sərəncamda qeyd edildiyi kimi: “Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir”. Bu şərəfli vəzifəni layiqincə yerinə yetirmək üçün hər birimizə uğurlar diləyirəm.

***Aydın Kazımzadə,***
*Bakı Dövlət Universitetinin rektorunun elm və təhsil üzrə müşaviri,*
*AMEA-nın müxbir üzvü,*
*professor*

# BDU əməkdaşları akademik Tofiq Hacıyevin xatirəsini anıblar

***Mayın 2-də Filologiya fakültəsinin Türkologiya kafedrasının əməkdaşları Əməkdar elm xadimi, “Şöhrət” ordenli, Türkiyənin Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumunun fəxri üzvü, uzun illər kafedraya rəhbərlik etmiş akademik Tofiq Hacıyevin anadan olmasının 89-cu ildönümü ilə əlaqədar II Fəxri xiyabanda görkəmli alimin məzarını ziyarət ediblər.***

Kafedra müdiri, professor Məhərrəm Məmmədov, filologiya elmləri doktoru Qızılgül Abdullayeva, İngilis dili (təbiət fakültələri üzrə) kafedrasının müdiri, professor Abbas Abbasov, elmi işçilər Ramil Bayramov və Pərvin Eyvazov mərhumun ailə üzvləri ilə birlikdə akademikin ruhuna dualar oxuyub, məzarı üzərinə gül dəstələri düzüblər.

Ziyarət zamanı Tofiq Hacıyevin Azərbaycan elmi və təhsili qarşısındakı misilsiz xidmətlərindən bəhs olunub, onunla bağlı xatirələr bölüşülüb.

# BDU kollektivi Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib

***Mayın 10-da Bakı Dövlət Universitetinin kollektivi müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə əlaqədar Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib.***

Ümummilli Liderin məzarı önünə gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla anılıb.



# Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə həsr olunmuş ədəbi-bədii təqdimat

***Mayın 23-da Filologiya fakültəsində Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə həsr olunmuş "Bir əsrlik söz karvanı" adlı ədəbi-bədii təqdimat keçirilib. Tədbirdə Özbəkistanın Nəvai adına Dövlət Universitetinin bir qrup əməkdaşı, fakültənin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.***



Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti Rəna Mahmudova "İfadəli oxu" fənninin tələbələr üçün əhəmiyyətindən, ifadəli oxu bacarıqlarını inkişaf etdirmək üçün davamlı olaraq belə tədbirlərin keçirilməsinin vacibliyindən, Bəxtiyar Vahabzadə poeziyasının bənzərsizliyindən və əsərlərinin ifadəli oxu baxımından önəmindən söz açıb.

Sonra Bəxtiyar Vahabzadənin ifasında "Vətən" şeirinin səsləndirildiyi videoçarx nümayiş olunub.

Tələbələr Bəxtiyar Vahabzadənin fəlsəfi, dini və vətənpərvərlik mövzularında yazılmış şeirlərindən parçalar səsləndiriblər. Görkəmli şairin "Allah", "Ana dilim", "Gülüstan" və "Şəhidlər" kimi tanınmış əsərləri təqdim olunub. "Fəryad" pyesindən videoçarxlar göstərilib və şairin dramaturgiya sahəsindəki fəaliyyətindən danışılıb.

Sonda Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müdiri, professor Mətanət Abdullayeva Bəxtiyar Vahabzadə yaradıcılığının bədii-fəlsəfi mükəmməlliyindən danışıb.

# Böyük Britaniyanın Tibbi Tədqiqatlar Şurasının Hesablama Struktur Biologiyası qrupunun rəhbəri Qərib Mürşüdov BDU-da mühazirə deyib

***Mayın 6-da Böyük Britaniyanın Tibbi Tədqiqatlar Şurasının (MRC) Molekulyar Biologiya İnstitutunun Hesablama Struktur Biologiyası qrupunun rəhbəri, Əməkdar elm xadimi Qərib Mürşüdov BDU-da "Zülalların üç ölçülü quruluşu" mövzusunda mühazirə deyib.***



Rektor Elçin Babayev BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin məzunu olan Qərib Mürşüdovun dünyada bioinformatika sahəsində tanınmış mütəxəssis olduğunu bildirib. O qeyd edib ki, professor Qərib Mürşüdov bioinformatika, zülalların üç ölçülü quruluşlarının öyrənilməsi sahəsindəki tədqiqatları ilə nəinki BDU-nun, Azərbaycanın və türk dünyasının fəxrinə çevrilib. Məhz bu xidmətlərinə görə tanınmış alim 2022-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülüb.

Sonra söz qonağa verilib. Professor Qərib Mürşüdov təqdimatında struktur biologiya haqqında məlumat verib, bu elm sahəsinin bioloji prosesləri, zülalların və molekulların quruluşunu öyrəndiyini deyib. O diqqətə çatdırıb ki, zülallar orqanizmdə olan proseslərin hər mərhələsində iştirak edir. Ona görə də zülalların üç ölçülü quruluşlarının öyrənilməsi fundamental bioloji proseslərin başa düşülməsinə kömək edir. Bu isə öz növbəsində xəstəliklərlə mübarizə aparmaq üçün dərmanların hazırlanmasında istifadə oluna bilər. Tanınmış alim vurğulayıb ki, dünyada zülal quruluşlarını öyrənən minlərlə laboratoriya var. Zülalların verilənlər bankında 235 min zülal quruluşu haqqında məlumat olduğunu bildirən alim onların öyrənmə üsulları (rentgen kristalloqrafiyası, elektron mikroskopiya və maşın öyrənmə-proqnozlaşdırma) barədə tələbələrə məlumat verib. Süni zəkadan istifadə edərək zülal quruluşlarının öyrənilməsinin mövcud durumu və perspektivləri barədə fikirlərini bölüşüb.

O, struktur biologiyanın geniş perspektivlərə malik olduğunu, gələcəkdə daha sürətlə inkişaf edəcəyini deyib. Hesablama struktur biologiyasında müasir üsulların inkişafına, Azərbaycandakı gənclərin bir hissəsini bu elmi istiqamətə yönəltməyə böyük ehtiyac olduğunu vurğulayıb.

# Milli Məclisin üzvü Pərvin Kərimzadə "Azərbaycan müstəqillik illərində: Qurtuluşdan zəfərə" mövzusunda mühazirə deyib

***Mayın 8-də Milli Məclisin üzvü Pərvin Kərimzadə BDU-nun tələbələrinə "Azərbaycan müstəqillik illərində: Qurtuluşdan zəfərə" mövzusunda mühazirə deyib.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Pərvin Kərimzadənin ictimai-siyasi fəaliyyəti haqqında tələbələrə məlumat verib, BDU-da iki ildən artıq müddətdə davam edən "Heydər Əliyev mühazirələri" layihəsinin Ulu Öndərin zəngin irsinin tələbələrə aşılanmasına əhəmiyyətini vurğulayıb.

Milli Məclisin üzvü Pərvin Kərimzadə qeyd edib ki, Ulu Öndər Heydər Əliyev güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimi idi. O, milli lider, qüdrətli dövlət xadimi, xilaskar kimi bugünkü müstəqil Azərbaycan dövlətinin bünövrəsini qoyub. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu daha da artır. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynayıb: "Bu gün Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatının elə bir sahəsi yoxdur ki, o sahənin inkişafı Ulu Öndərin adı ilə bağlı olmasın. Müstəqil ölkəmizin bugünkü uğurları Heydər Əliyev strategiyasının təntənəsidir. Ulu Öndərin müstəqillik konsepsiyasının, sosial-iqtisadi inkişaf strategiyasının uzaqgörənliyi Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qazandığı böyük uğurlarda bir daha tarixi təsdiqini tapır".

Millət vəkili diqqətə çatdırıb ki, 1993-cü ilin 15 iyunundan başlayaraq Azərbaycan milli qurtuluşdan Zəfərə qədər böyük bir yol keçib. Bu müddətdə xalqımızın milli həmrəyliyi daha da güclənərək, sonunda "Dəmir yumruğ"a çevrilib və düşmənin başını əzib.

Daha sonra millət vəkili tələbələrin mövzu ilə bağlı suallarını cavablandırıb.

# Milli Məclisin üzvü Nigar Məmmədova BDU-da "Gənclər Heydər Əliyev ideyalarının daşıyıcısıdır" mövzusunda mühazirə deyib

***Mayın 7-də BDU-nun Heydər Əliyev Muzeyində Milli Məclisin üzvü, BDU-nun məzunu Nigar Məmmədova "Gənclər Heydər Əliyev ideyalarının daşıyıcısıdır" mövzusunda tələbələrə mühazirə deyib.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Nigar Məmmədovanın ictimai-siyasi fəaliyyəti haqqında tələbələrə məlumat verib, Universitetdə iki ildən artıq müddətdə davam edən "Heydər Əliyev mühazirələri" layihəsinin Ulu Öndərin zəngin irsinin tələbələrə aşılanmasında əhəmiyyətini vurğulayıb.

Daha sonra məruzə ilə çıxış edən Milli Məclisin üzvü Nigar Məmmədova bildirib ki, Azərbaycanda gənclər siyasətinin formalaşmasında, milli dəyərlərin, vətənpərvərlik ruhunun inkişafında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri var. Ulu Öndərin zəngin dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tutub. Hələ keçən əsrin 70-80-ci illərində yüzlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə təhsil almağa göndərilib.

Millət vəkili qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda dövlət gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin dövlət qulluğunda məsul vəzifələrdə iştirakını təmin etmək, onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədi ilə ölkə rəhbərliyi bütün lazımi tədbirləri həyata keçirir.

Daha sonra millət vəkili tələbələrin mövzu ilə bağlı suallarını cavablandırıb.

# "Ulu Öndər Heydər Əliyevin milli mətbuat modeli"

***BDU-da fəaliyyət göstərən "YENİ Klub"un və Jurnalistika fakültəsi Tələbə Elmi Cəmiyyətinin birgə təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyevin milli mətbuat modeli" mövzusunda BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Qulu Məhərrəmli ilə görüş keçirilib.***

Ümummilli Lider Heydər Əliyevin yenidən respublika rəhbərliyinə qayıtdıqdan sonra milli mətbuat ənənələrini bərpa etdiyini deyən professor Qulu Məhərrəmli müasir mediamızın məhz həmin dövrdə yaradılan yeni konsepsiya ilə inkişaf etdiyini deyib. Bildirib ki, siyasi və sosial sistemin tərkib hissəsi olan medianın IV hakimiyyət kimi özünü təsdiq etməsi Ulu Öndərin hakimiyyəti dövründə təsbit edilib: "Ölkədə mətbuatla bağlı mükəmməl qanunvericilik bazasının yaradılması, maddi-texniki bazanın möhkəmləndirilməsi, senzuranın ləğvi, qəzet və jurnalların borclarının dondurulması, KİV-lərin fəaliyyətinin genişləndirilməsi və inkişafının təmin edilməsinə dair qəbul edilmiş çoxsaylı sərəncamlar Ulu Öndərin ölkə jurnalistikasına verdiyi yüksək dəyərin sübutudur. Heydər Əliyev qələm sahiblərinin əməyini qeyri-adi, zəhmətli, hünər və fədakarlıq tələb edən əmək kimi ifadə edirdi, jurnalistlərə hər zaman xüsusi münasibət bəsləyirdi. Bunun məntiqi nəticəsidir ki, Ulu Öndər dəfələrlə keçirilən sorğularda "Jurnalistlərin dostu" mükafatına layiq görülüb. Ümummilli Lider xarici ölkələrə olan səfərləri zamanı onu müşayiət edən jurnalistləri adlarına qədər tanıyırdı. Bu, onu həm mahir siyasət adamı, həm də insanları qayğısı ilə yaşayan millət adamı kimi səciyyələndirirdi". Görüş tələbələrin Azərbaycan jurnalistikasının bugünkü vəziyyətinə dair çoxsaylı suallarının cavablandırılması ilə diskussiya formatında davam edib.

# BDU-da "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş Beynəlxalq konfrans

***Mayın 1-də Hüquq fakültəsinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) birgə təşkilatçılığı ilə "Konstitusiya - dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasında mühüm hüquqi bazadır" mövzusunda Beynəlxalq konfrans keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Tədbirin moderatoru, BMTM-in baş məsləhətçisi, dosent Mətin Məmmədli bu ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü qeyd etdiyimizi, "Konstitusiya və Suverenlik İli"nin rəmzi deyil, tarixi səciyyə daşıdığını deyib. O, tədbirin təşkilində göstərilən dəstəyə görə BDU rəhbərliyinə təşəkkürünü bildirib.



BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev konstitusiyanın dövlətin daxili idarəçiliyini müəyyənləşdirən sənəd, beynəlxalq arenada davranışlarını formalaşdıran əsas hüquqi baza olduğunu bildirib: "Qloballaşan dünyada dövlətlərin suverenliklərinə və daxili işlərinə təzyiqlər artmaqdadır, bu baxımdan hüquqi bazanın möhkəmliyi dövlətin müdafiə mexanizmlərindən biri olaraq çıxış edir. Dünyada baş verən proseslərə uyğun Konstitusiyaya dəyişikliklər edilə bilər. Bu, xaricdən gələn çağırışlara cavab verməyə imkan verir. Bu çağırışlar hazırda da davam edir. Daxili siyasət və iqtisadiyyatın möhkəmləndirilməsində Konstitusiya və digər qanunvericilik aktları vacib rol oynayır. 2020-ci ildə ərazi bütövlüyümüzün, 2023-cü ildə suverenliyimizin bərpası yalnız hərbi-siyasi deyil, hüquqi baxımdan da əlamətdar hadisədir. Azərbaycan bu prosesi beynəlxalq hüquq çərçivəsində, Konstitusiyada əks olunmuş əsas prinsiplərə uyğun şəkildə həyata keçirir".

BDU-nun elm və innovasiyalar üzrə prorektoru, professor Hüseyn Məmmədov bildirib ki, 1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə qəbul olunan Konstitusiya dövlət quruculuğunda və vətəndaş cəmiyyətinin formalaşmasında əsaslı dönüş nöqtəsinə çevrilib. Konstitusiyamız əldə edilən tarixi nailiyyətlərin hüquqi əsasını təşkil edir: "BDU-nun dünya şöhrətli məzunu Heydər Əliyevin bilavasitə rəhbərliyi və həssas yanaşması ilə Azərbaycanın demokratik əsasları yenidən və sarsılmayacaq şəkildə quruldu. Bu gün Konstitusiyamızın qəbul edilməsinin 30-cu ildönümünü bütöv və tam suveren Azərbaycan olaraq qeyd edirik. Gənclərimiz isə bundan sonra üzərlərindəki şərəfli məsuliyyəti dərk edərək, öz elmi bilikləri, bacarıqları ilə ölkəmizi daim müdafiə etməyi bacarmalıdırlar".

Konstitusiya Məhkəməsinin sədri, hüquq elmləri doktoru Fərhad Abdullayev 1995-ci il noyabrın 12-də qəbul olunmuş Konstitusiyanın demokratik, hüquqi və dünyəvi dövlətin qurulması yolunda əhəmiyyətli mərhələ olduğunu və indiyədək bu sənədin ölkəmizdə hüquqi islahatların aparılması, insan hüquq və azadlıqlarının təmin olunması, dövlət idarəçiliyinin təkmilləşdirilməsi istiqamətində bünövrə rolunu oynadığını deyib.

Maliyyə nazirinin birinci müavini Anar Kərimov qeyd edib ki, Konstitusiya hər bir müstəqil dövlətin varlığının hüquqi əsasını təşkil edən sənəddir, o, yalnız siyasi və hüquqi sistemin deyil, iqtisadi idarəçiliyin də əsaslarını müəyyənləşdirir. Azərbaycan Konstitusiyası dövlətin iqtisadi fəaliyyətinin hüquqi çərçivəsini dəqiq şəkildə təsbit edir və maliyyə sisteminin formalaşdırılmasında mühüm rol oynayır. Son illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi islahatlar məhz Konstitusiyada müəyyən edilmiş məqsədlərə – əhalinin rifahının yüksəldilməsi, iqtisadi sabitliyin qorunması və sosial bərabərliyin təmin olunmasına xidmət edir.

Tədbirdə çıxış edən Türkiyənin Balıkesir Universitetinin rektoru Yücel Oğurlu, Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi Lətif Hüseynov Konstitusiyanın əsas qanunlar toplusu kimi funksiyalarından danışıblar.

BDU-nun Hüquq fakültəsinin dekanı, dosent Zaur Əliyev "Konstitusiya və insan hüquqları" mövzusunda geniş təqdimatla çıxış edib. O bildirib ki, Azərbaycan Konstitusiyası bütövlükdə insan hüquqları konsepsiyasına həsr edilib. Çoxsaylı hüquqlar, fundamental beynəlxalq hüquqi aktlarda əksini tapan məsələlər ölkə Konstitusiyasında əks olunub.

# Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş esse müsabiqəsinin nəticələri açıqlanıb

Mayın 12-də Filologiya fakültəsi üzrə Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşəbbüsü ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş esse müsabiqəsinin nəticələri açıqlanıb.

Müsabiqənin nəticələrinə əsasən, Filologiya fakültəsinin II kurs tələbəsi Nəzrin Əliyeva I, II kurs tələbəsi Hümbət Bədəlov II, Mexanika-riyaziyyat fakültəsinin II kurs tələbəsi Həmidə Nəbizadə III yeri qazanıblar.

Sonda qaliblər THİK tərəfindən sertifikat və pul mükafatı ilə təltif olunublar.



# "102 ilin işığı: Heydər Əliyev irsi və gələcəyə baxış" adlı tədbir keçirilib

***Mayın 13-də Geologiya fakültəsi və Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon "Z.Xəlilov küç. 33" (BDU) ünvanı üzrə ərazi partiya təşkilatının birgə təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə və "Konstitusiya və Suverenlik İli"nə həsr edilmiş "102 ilin işığı: Heydər Əliyev irsi və gələcəyə baxış" adlı tədbir keçirilib.***

Tədbirdə BDU-nun professor-müəllim heyəti, YAP Yasamal rayon təşkilatının nümayəndələri, fakültə tələbələri və partiyanın yeni üzvləri iştirak ediblər.

YAP Yasamal rayon "Z.Xəlilov küç. 33" (BDU) ünvanı üzrə ərazi partiya təşkilatının sədri, professor Zahid Cəfərov Ulu Öndər Heydər Əliyevin müasir, müstəqil Azərbaycanın qurulmasındakı misilsiz xidmətlərindən, dövlətçiliyin möhkəmləndirilməsi və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində apardığı siyasətdən danışıb. O qeyd edib ki, Ulu Öndərin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Geologiya fakültəsinin dekanı, dosent Mamoy Mansurov çıxışında Ulu Öndər Heydər Əliyevin dövlət siyasətində gənclər, təhsil və elm istiqamətinin daim önəmli yer tutduğunu vurğulayıb. O bildirib ki, Ümummilli Liderin diqqət və qayğısı nəticəsində elmin inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib, bu sahədə davamlı islahatlar həyata keçirilib.

Fakültənin Ümumi və tarixi geologiya kafedrasının müdiri, professor Nazim İmamverdiyev Ulu Öndərin hakimiyyətdə olduğu illərdə təbii ehtiyatların tədqiqi və onların qorunmasına yönəlik dövlət siyasəti barədə ətraflı məlumat verib. O, gənc geoloqların bu irsi dərindən mənimsəməsinin vacibliyini vurğulayıb. Professor Nazim İmamverdiyev öz tələbəlik illərini xatırlayaraq, o dövrdə də Ulu Öndərin gənclərə olan xüsusi diqqətinin, onların elmə və təhsilə yönləndirilməsində oynadığı rolun unudulmaz olduğunu vurğulayıb.

Sonra Ulu Öndərin zəngin dövlətçilik irsini əks etdirən videoçarx nümayiş etdirilib. Tədbirin sonunda YAP-a yeni qəbul olunmuş tələbələrə üzvlük vəsiqələri təqdim olunub.

# BDU Özbəkistanın Buxara Dövlət Universiteti ilə əlaqələri genişləndirir

***Mayın 5-də BDU-da Özbəkistanın Buxara Dövlət Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib.***

Görüşdə BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova, Buxara Dövlət Universitetinin Beynəlxalq əməkdaşlıq şöbəsinin rəhbəri Şahabbas Şərəfiddinov, İqtisadiyyat və turizm fakültəsinin dekanı Nutfillo İbrahimov iştirak ediblər.

Qonaqlara Universitetin tarixi, fəaliyyəti, strukturu, tədris və elmi fəaliyyəti barədə ətraflı məlumat verilib. Bildirilib ki, tədqiqat universitetinə çevrilməkdə olan BDU dünyanın nüfuzlu reytinq agentliklərinin cədvəllərində əhəmiyyətli irəliləyişlərə nail olub. Bunda beynəlxalq əlaqələrin və birgə əməkdaşlıqların da böyük rolu var. BDU son illər Özbəkistanın nüfuzlu ali təhsil müəssisələri ilə də əməkdaşlıq müqavilələri imzalayır, tələbə və müəllim mübadiləsi proqramları həyata keçirir. Birgə layihə və elmi tədqiqatlar regionun elmi potensialının gücləndirilməsi və təhsilin keyfiyyətinin artırılmasına xidmət edir.

Qonaqlar təmsil etdikləri universitetin əsas fəaliyyət istiqamətləri barədə danışıblar. Azərbaycanın ən köklü və qədim Universiteti olan BDU ilə əlaqələrin inkişaf edəcəyinə inamlarını ifadə ediblər.

Görüş zamanı birgə elmi konfransların təşkili, elmi-pedaqoji əlaqələrin qurulması, ikili diplom proqramlarının tətbiqi kimi məsələlər müzakirə olunub.

# BDU-da "Stres və stresin idarə olunması" mövzusunda növbəti təlim

***Mayın 2-də BDU-da Psixoloji yardım sektoru, Geologiya fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatının birgə təşəbbüsü ilə "Stres və stresin idarə olunması" mövzusunda maarifləndirici təlim keçirilib.***

Sektorun psixoloqu İlkanə İmranın keçirdiyi təlim zamanı tələbələrə stresin yaranma səbəbləri, orqanizmə təsirləri və onunla mübarizə yolları barədə ətraflı məlumat verilib. Psixoloq müxtəlif nəfəs texnikaları, praktik nümunələr və interaktiv fəaliyyətlər vasitəsilə stresi idarə etmək yollarını izah edib. Tələbələr diqqət toplama məşqləri və emosional tənzimləmə strategiyaları ilə tanış olublar.

Tədbirin sonunda iştirakçıların sualları cavablandırılıb.

# BDU-da Respublika elmi konfransı: “Yer təkinin öyrənilməsi və mineral xammal ehtiyatlarının proqnozlaşdırılması”

***Mayın 5-də Geologiya fakültəsində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş “Yer təkinin öyrənilməsi və mineral xammal ehtiyatlarının proqnozlaşdırılması” mövzusunda Respublika elmi konfransı keçirilir.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Geologiya fakültənin dekanı, dosent Mamoy Mansurov Ümummilli Lider Heydər Əliyevin Azərbaycan elminə, xüsusilə geologiya sahəsinə göstərdiyi böyük diqqət və qayğıdan danışıb. O bildirib ki, Azərbaycanda geologiya elminin, xüsusilə neftqaz yataqlarının işlənməsi, mineral xammal ehtiyatlarının öyrənilməsi, dağ-mədən sənayesinin, seysmologiyanın inkişafı Ulu Öndərin adı ilə bağlıdır. Ulu Öndərin hakimiyyəti illərində Azərbaycanda aparılmış məqsədyönlü siyasətin nəticəsində öz mineral resurslarımızdan istifadə təşəkkül tapıb. Çətin bir şəraitdə “Əsrin müqaviləsi”nin imzalanması da Azərbaycanın inkişafını səciyyələndirən əsas amillərdən biri kimi tarixə yazılıb.

Milli Məclisin üzvü Aydın Hüseynov çıxışında Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi və elminin inkişafındakı misilsiz rolundan bəhs edib. Bildirib ki, məhz Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində elmi kadr hazırlığı və ali təhsil sistemində əsaslı dönüş yaranıb, Bakı Dövlət Universiteti isə bu strategiyanın mərkəzi pilləsində qərar tutub. Universitet Azərbaycanın ilk və aparıcı ali təhsil müəssisəsi kimi ölkənin intellektual potensialının formalaşmasında mühüm rol oynayıb. Aydın Hüseynov əlavə edib ki, Ulu Öndər Azərbaycanın yeraltı və yerüstü sərvətlərinin elmi əsaslarla araşdırılması və qorunmasını milli təhlükəsizlik məsələsi kimi dəyərləndirib.

BDU-nun Faydalı qazıntılar kafedrasının müdiri, akademik Vasif Babazadə Ulu Öndərin təbii sərvətlərin qorunması və səmərəli istifadəsi istiqamətində həyata keçirdiyi siyasətdən, onun geologiya və faydalı qazıntılar sahəsindəki uzaqgörən strategiyasından söz açıb. O, bu siyasi və iqtisadi xəttin bu gün də aktual olduğunu və elmi inkişafın mühüm dayağına çevrildiyini vurğulayıb.

Daha sonra Seysmologiya və yer təkinin fizikası kafedrasının professoru Vaqif Qədirov və Ümumi və tarixi geologiya kafedrasının dosenti Əlləddin Məmmədəlizadənin Azərbaycanın və Rusiyanın neft yataqlarına bir quyuya düşən illik hasilatın lokal dəyişmələri və bu dəyişmələrin dinamikası, Yer kürəsinin geoxronoloji cədvəl üzrə formalaşması və geoloji inkişaf mərhələlərinə dair elmi məruzələri dinlənilib.

Konfrans öz işini sabah yekunlaşdıracaq.

# BDU-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş Respublika elmi konfransı

Azərbaycanın indiki uğurlarının təməlində məhz Ulu Öndər Heydər Əliyevin dövlətçilik və azərbaycançılıq ideologiyası dayanır. Bu ideologiya xalqın rifahına, milli kimlik şüurunun oyanmasına xidmət edir.

***Mayın 8-də Tarix fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş “Ümummilli Lider Heydər Əliyev: Azərbaycan Respublikasında demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu” mövzusunda Respublika elmi konfransı keçirilib.***

Əvvəlcə Azərbaycan respublikasının Dövlət himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov konfransın əhəmiyyətindən, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən danışıb. Bildirib ki, Ümummilli Lider Heydər Əliyev fenomeni nəinki Azərbaycanda, bütün dünyada özünə layiqli yer tutub. Azərbaycanın indiki uğurlarının təməlində məhz Ulu Öndər Heydər Əliyevin dövlətçilik və azərbaycançılıq ideologiyası dayanır. Bu ideologiya xalqın rifahına, milli kimlik şüurunun oyanmasına xidmət edir.

Tarix fakültəsinin dekanı, tarix elmləri doktoru, professor İbrahim Zeynalov Ümummilli Lider, BDU-nun Tarix fakültəsinin dünya şöhrətli məzunu olan Heydər Əliyevin Azərbaycan tarixində mühüm rol oynamış görkəmli şəxsiyyət, onun həyat və fəaliyyətinin gənclərimiz üçün bir örnək olduğunu bildirib. Qeyd edib ki, bu gün müstəqil Azərbaycan dövlətinin qurucusu olan Heydər Əliyevin ağır vəziyyətdən çıxardığı ölkəmiz Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyada söz sahibi olan dövlətə çevrilib. Tam suveren, güclü iqtisadiyyatı ilə dünya dövlətləri içində öz sözünü deməyə qadir, qalib Azərbaycanın yüksəlişinin əsası Ulu Öndərin uzaqgörən siyasəti ilə qoyulub.



Dekan daha sonra konfrans iştirakçılarına müxtəlif elmi-tədqiqat institutları və ali təhsil müəssisələrindən konfransa daxil olan tezislər barədə məlumat verib.

Sumqayıt Dövlət Universitetinin Tarix və coğrafiya fakültəsinin dekanı, professor Adil Baxşəliyev Ulu Öndərin siyasi və iqtisadi siyasəti, uğurlu neft strategiyası, Azərbaycan Dövlət İqtisad Universitetinin Humanitar fənlər kafedrasının müdiri, professor Vəkil Həsənov və BDU-nun Azərbaycan tarixi kafedrasının müdiri, dosent Azad Rzayev isə Ümummilli Liderin Azərbaycanın milli dövlətçiliyini qorumaq və möhkəmləndirmək sahəsindəki xidmətlərindən danışıblar. Çıxışlarda qeyd olunub ki, Ulu Öndərin hakimiyyəti dövründə ölkəmiz iqtisadi, siyasi, sosial, mədəni sahələrdə böyük irəliləyişlərə nail olub, əhalinin sosial rifah halı yaxşılaşıb.

Konfrans öz işini beş bölmə (“Heydər Əliyev və Azərbaycanda milli - hüquqi dövlət quruculuğu”, “Heydər Əliyev irsində elm, təhsil və milli-mənəvi dəyərlər məsələsi”, “Heydər Əliyev irsində sosial-iqtisadi inkişaf və mədəni quruculuq məsələləri”, “Heydər Əliyev irsində xarici siyasət strategiyası”, “Tarix elminin aktual məsələləri”) ilə davam etdirir.

# Ulu Öndər Heydər Əliyev irsinə həsr edilmiş elmi seminar

***Mayın 12-də İnformasiya və sənəd menecmenti fakültəsində “Ulu Öndər Heydər Əliyev irsinin biblioqrafik tədqiqi” mövzusunda elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Sənəd menecmenti kafedrasının müəllimi Vəzufə Xudiyeva mövzu ilə bağlı məruzə edib.***

Məruzə BDU Elmi Şurasının qərarı ilə nəşr edilmiş “Heydər Əliyev – 100: Biblioqrafik məlumat kitabı” əsasında təqdim olunub. Bildirilib ki, biblioqrafik göstərici ilk dəfə 2003-cü ildə Ulu Öndər Heydər Əliyevin 80 illik yubileyi münasibətilə Əməkdar elm xadimi, professor Abuzər Xələfov və dosent Solmaz Sadıqova tərəfindən hazırlanıb: “Həmin ənənənin davamı olaraq əsər dosent Solmaz Sadıqova tərəfindən yenidən işlənilib, eyni zamanda son iki onilliyin nəşrləri də əhatə olunmaqla yeni materiallarla zənginləşdirilib”. Vəzufə Xudiyeva vurğulayıb ki, “Heydər Əliyev-100: Biblioqrafik məlumat kitabı” zəngin informasiya bazası ilə seçilir. Yeni nəşrdə Ulu Öndər Heydər Əliyevin əsərlərindən ibarət “Müstəqilliyimiz əbədidir” çoxcildliyinin 46 kitabının bir mənbə altında biblioqrafik təsviri verilib, eyni zamanda külliyyatın hər bir kitabının tərkibi açılıb. Bu, oxucuya biblioqrafik göstəricinin köməyi ilə çoxcildliyin hər bir cildi haqqında informasiya əldə etmək imkanı verir.

Tədqiqatçı kitabın məzmunu, quruluşu barədə mühüm informasiyaları iştirakçıların diqqətinə çatdırıb. Qeyd edib ki, kitab 4 hissədən ibarətdir. Birinci hissə “Ümummilli Lider Heydər Əliyev şəxsiyyəti” adlanır. Burada Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin salnaməsi xronoloji ardıcıllıqla təqdim olunur. Bu hissənin ikinci yarımbölməsində birinci məlumat kitabından fərqli olaraq, Ulu Öndər Heydər Əliyevin təltifləri də verilib. Birinci hissənin üçüncü yarımbölməsində dünya liderlərinin, görkəmli şəxsiyyətlərin Ulu Öndər haqqında söylədikləri qiymətli fikirlər, “Ulu Öndər Heydər Əliyevin müdrik kəlamları” adlı dördüncü yarımbölmədə isə müdrik rəhbərin qiymətli kəlamları əksini tapır. Biblioqrafik məlumat kitabının “Ümummilli Lider Heydər Əliyevin kitab şəklində nəşr edilmiş əsərləri” adlı ikinci hissəsi üç yarımbölmədən ibarətdir. Kitabın “Ümummilli Lider Heydər Əliyev haqqında ədəbiyyat” adlı üçüncü hissəsində materiallar səkkiz yarımbölmədə təqdim olunur. Bu hissədə Ulu Öndər Heydər Əliyev haqqında müdafiə olunmuş dissertasiyaların verilməsi də yenidir. “Heydər Əliyev-100: biblioqrafik məlumat kitabı”nın sonuncu – dördüncü hissəsi “Yardımçı göstəricilər” adlanır. Burada Ulu Öndər Heydər Əliyevin əsərlərinin əlifba göstəricisi və Ümummilli Lider haqqında yazan müəlliflərin əlifba göstəricisi verilir. Biblioqrafik əsərə iki adda köməkçi aparatın verilməsi kitabdan istifadəni asanlaşdırır, məlumat axtarışını daha səmərəli edir: “Biblioqrafik əsər geniş oxucu kütləsi, müxtəlif elm sahələrində fəaliyyət göstərən alimlər, tədqiqatçılar, müəllimlər, tələbələr, ümumiyyətlə, bütün oxucu qrupları üçün əvəzsiz mənbədir”.

Elmi seminar çıxışlarla davam edib.

# BDU-da "Ənənəvi dəyərlərin və ailə institutunun qorunması təhsil prosesində vacib amil kimi" mövzusunda konfrans





***Mayın 15-də BDU və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) birgə təşkilatçılığı ilə 15 may – Beynəlxalq Ailə Gününə həsr olunmuş "Ənənəvi dəyərlərin və ailə institutunun qorunması təhsil prosesində vacib amil kimi" mövzusunda konfrans keçirilib.***

AQUPDK-nın sədri Bahar Muradova qeyd edib ki, ailə institutu təkcə Azərbaycanda deyil, bütün dünyada cəmiyyətin əsas sütunlarından biridir. Ənənəvi ailə dəyərlərinin tədris mühitinə inteqrasiyası, ailə və təhsil sistemlərinin qarşılıqlı fəaliyyəti cəmiyyətin uzunmüddətli inkişafında həlledici rol oynayır: "Dövlət Komitəsi ölkədə ailə dəyərlərinin qorunması istiqamətində ciddi addımlar atır. Hazırda ölkə başçısının tapşırığı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən yeni "Ailə konsepsiyası" hazırlanır. Bu, yalnız strateji yol xəritəsi deyil, ailə dəyərləri, milli-mənəvi bağlarla bağlı bütün məsələləri özündə əks etdirən sənəd olacaq. Ailə dəyərlərinin pozulması dövlətin təhlükəsizliyinə, milli maraqlarımıza birbaşa təhdiddir. Biz bu sahədə təhsil müəssisələrinin, ictimai təşkilatların, elmi ictimaiyyətin və dövlət strukturlarının birgə fəaliyyətini zəruri hesab edirik. Bu baxımdan ali təhsil müəssisələrinin flaqmanı olan Bakı Dövlət Universitetinin böyük potensialı var. Dövlət Komitəsi ilə sıx əməkdaşlıq edən BDU bu prosesə mühüm töhfə verə bilər".

Komitə sədri diqqətə çatdırıb ki, bu istiqamətdə ali təhsil müəssisələri ilə sistemi işlər həyata keçirilir, ailə dəyərləri ilə bağlı mexanizm təkmilləşdirilir: "Birgə müzakirələr, açıq fikir mübadiləsinə çevrilən belə platformalar məsələnin həlli üçün ən real vasitədir".

BDU-nun rektoru Elçin Babayev bildirib ki, hər bir xalqın ən qiymətli sərvəti onun keçmişi ilə bu gününü birləşdirən, kimliyini yaşadan milli-mənəvi dəyərləridir. Rektor bu sahədə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun mühüm rola malik olduğunu bildirib: "Heydər Əliyev Fondu xalqımızın qədim tarixinin və zəngin mədəniyyətinin beynəlxalq aləmdə tanıdılması ilə yanaşı, milli-mənəvi dəyərlərimizin, adət və ənələrimizin geniş təbliği istiqamətində əvəzsiz işlər görür. Nəcib və xeyirxah addımları ilə hər bir ölkə vətəndaşına, xaricdə yaşayan soydaşlarımıza tükənməz qürur hissi yaşadır".

Elçin Babayev milli dəyərlərin məktəblərdə təbliği və tədrisinin şagird və tələbələrin milli kimliklərinin formalaşmasında, cəmiyyətdə sağlam münasibətlər qurmasında təkzibolunmaz amil olduğunu qeyd edib: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə milli-mənəvi dəyərlərlə bağlı dövlət siyasətini açıq ifadə edib: "Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin". Bu fikirləri əsas tutan BDU-da hazırda milli-mənəvi dəyərlərin təbliği prosesinə xüsusi diqqət ayrılır. BDU-nun sosial fəaliyyət üzrə illik fəaliyyət planlarında təhsilalanlara milli-mənəvi dəyərlərin təbliği istiqamətində müntəzəm tədbirlərin keçirilməsi öz əksini tapır".

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri Zahid Oruc, Milli Məclisin üzvü Mehriban Vəliyeva, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Vüsal Göyüşov və BDU-nun Psixologiya kafedrasının müəllimi Emiliya İgidova çıxışlarında ailə institutunun nüfuzunun qorunması, inkişafı, cəmiyyətdə milli-mənəvi dəyərlərin möhkəmləndirilməsi, gənc nəsil arasında təbliğ olunmasının vacib olduğunu bildirib, bu məsələlərin təhsil prosesində əksinin günün tələbinə çevrildiyini qeyd ediblər.

Sonra mövzu ilə bağlı tədbir iştirakçılarının təklifləri dinlənilib, müzakirələr aparılıb.

# BDU-da XXIV "Çin dili körpüsü" Beynəlxalq müsabiqəsinin Azərbaycan üzrə finalı keçirilib

***Mayın 21-də Bakı Dövlət Universitetinin Konfutsi İnstitutu və Çin Xalq Respublikasının ölkəmizdəki səfirliyinin birgə təşkilatçılığı ilə XXIV "Çin dili körpüsü" Beynəlxalq müsabiqəsinin Azərbaycan üzrə final mərhələsi keçirilib.***



Tədbirdə BDU-nun rektoru Elçin Babayev və Çinin Azərbaycandakı səfiri Lu Mey açılış nitqi ilə çıxış ediblər.

Rektor Elçin Babayev iki ölkə arasında münasibətlərin son illər yüksələn xətlə inkişaf etdiyini bildirib. Xüsusilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çinə dövlət səfəri, iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulmasından sonra bu münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Rektor iki ölkə arasında dostluq münasibətlərinin möhkəmlənməsində mədəni-humanitar, təhsil sahəsində həyata keçirilən layihələrin xüsusi rolu olduğunu vurğulayıb.

Çinin Azərbaycandakı səfiri Lu Mey isə Çin-Azərbaycan dostluğunun dərin və qədim tarixi köklərə malik olduğunu deyib. O bildirib ki, "Çin dili körpüsü" layihəsi artıq 10 ildir Azərbaycanda uğurla həyata keçirilir. Bu müddət ərzində onun təsir dairəsi, auditoriyası daha da genişlənib. Bu layihə artıq Çinlə Azərbaycan arasında humanitar əməkdaşlığın tanınmış brendinə çevrilib. Səfir diqqətə çatdırıb ki, BDU-nun Konfutsi İnstitutu yüksək səviyyəli Çin dili mütəxəssisləri yetişdirib, Çin-Azərbaycan xalqları arasında dostluq münasibətlərinə mühüm töhfə verib.

Müsabiqədə ölkənin müxtəlif təhsil ocaqlarından Çin dilini öyrənən tələbələr iştirak ediblər. Onlardan 10 nəfəri müsabiqənin finalına vəsiqə qazanıb. İştirakçılar dil bilikləri ilə yanaşı, rəqs, rəsm, musiqi və aktyorluq kimi istedadlarını da sərgiləyiblər.

BDU-nun Şərqşünaslıq fakültəsinin tələbələri Ömər Məmmədov müsabiqədə I, Sevda Məcidli II, Darya Yefimova, Səma Xudiyeva, Azərbaycan Dillər Universitetinin tələbəsi Fatimə Əliyeva III yeri tutub. Müsabiqədə I yeri qazanan iştirakçı Azərbaycanı müsabiqənin Çində keçiriləcək final mərhələsində təmsil edəcək.

# Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş Respublika Olimpiadası keçirilib

***Mayın 22-də BDU-da ali məktəb tələbələri arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş Fizika, Riyaziyyat, Kimya, Biologiya və Coğrafiya fənləri üzrə III Respublika Olimpiadası keçirilib.***

Olimpiadanın məqsədi Azərbaycan Respublikasında adıçəkilən elmlər üzrə ixtisaslı mütəxəssislərin hazırlanmasının keyfiyyətini daha da yüksəltmək, istedadlı tələbələri aşkar etmək və dəstəkləmək, onları elmi-tədqiqat fəaliyyətinə cəlb etmək, tələbələr arasında elmi bilikləri təbliğ etməkdir.

Olimpiadada BDU ilə yanaşı, ADA Universiteti, Azərbaycan Tibb Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı Mühəndislik Universiteti, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Xəzər Universiteti, Qərbi Kaspi Universiteti, Sumqayıt Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Lənkəran Dövlət Universitetindən ümumilikdə Fizika fənni üzrə 75, Riyaziyyat fənni üzrə 54, Kimya fənni üzrə 72, Biologiya fənni üzrə 92, Coğrafiya fənni üzrə 50 tələbə iştirak edib.

İştirakçılara verilən suallar peşəkar müəllimlər tərəfindən hazırlanıb və çətinlik səviyyəsinə görə olimpiadaların tələblərinə uyğun olub.

Olimpiadanın qalibləri yaxın günlərdə açıqlanacaq.

# Görkəmli alim, akademik Rəfiqə Əliyevanın anım günüdür

***Mayın 6-da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü, kimya elmləri doktoru, professor, əməkdar elm xadimi Rəfiqə xanım Əliyevanın anım günüdür.***



Görkəmli alim, akademik Rəfiqə Əlirza qızı Əliyeva onu tanıyanların yaddaşında əsl Azərbaycan qadını, elm fədaisi və humanist qəlbli insan kimi yaşayır, işıqlı xatirəsi daim ehtiramla anılır.

Rəfiqə Əliyeva 1932-ci il sentyabrın 20-də Naxçıvan şəhərində anadan olub. Ali təhsilini 1951–1956-cı illərdə Bakı Dövlət Universitetinin Kimya fakültəsində alıb. Əmək fəaliyyətinə 1956-cı ildə Azərbaycan Politexnik İnstitutunda başlayan Rəfiqə Əliyeva 1957-ci ildən etibarən BDU-da, 1958-1960-cı illərdə isə Azərbaycan Elmlər Akademiyasının Kimya Problemləri İnstitutunda kiçik elmi işçi kimi çalışıb. 1960-1963-cü illərdə BDU-nun Kimya fakültəsinin aspiranturasında təhsil alan Rəfiqə Əliyeva 1964-cü ildən ömrünün sonuna qədər Universitetin Analitik kimya kafedrasında işləyib və burada assistent, baş müəllim, dosent, professor vəzifələrini tutub. O, 2001-ci ildən "Ekoloji kimya və ətraf mühitin mühafizəsi" elmi-tədqiqat laboratoriyasına rəhbərlik edib.

Rəfiqə Əliyeva 1970-ci ildə namizədlik, 1999-cu ildə doktorluq dissertasiyalarını müdafiə edib və həmin ildə professor adına layiq görülüb. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilib. O, Azərbaycanın elm tarixində analitik kimya ixtisası üzrə ilk və yeganə akademik kimi qalır. Görkəmli akademik 2017-ci il mayın 6-da əbədiyyətə qovuşub.

Ömrünü kimya elminə həsr etmiş Rəfiqə Əliyeva bu sahədə yüksəkixtisaslı kadrların hazırlanmasına bütün bilik və bacarığını sərf edib. Yarım əsrdən artıq pedaqoji fəaliyyətlə məşğul olan alimin araşdırmaları analitik reaksiyaları xarakterizə edən parametrlərlə kompleks birləşmələrin quruluşu arasındakı asılılığın müəyyən edilməsinə həsr olunub. Rəfiqə xanımın ətraf mühitin mühafizəsi ilə bilavasitə bağlı olan bir sıra tədqiqatları, eyni zamanda, üzvi reaktivlərin köməyi ilə metalların təyini və onların ayrılması metodikasının işlənib hazırlanmasına yönəlib. Ekologiyanın aktual problemləri ilə bağlı işləri isə ölkəmizin davamlı inkişafının təmin olunmasına öz töhfəsini verib.

450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifi olan Rəfiqə Əliyeva bir sıra elmi şuraların və cəmiyyətlərin üzvü olub. Alimin rəhbərliyi altında 20-dən çox fəlsəfə və elmlər doktoru yetişib.

Akademik Rəfiqə Əliyevanın elmi-pedaqoji fəaliyyəti Azərbaycan dövləti tərəfindən layiqincə qiymətləndirilib. Azərbaycan Prezidentinin sərəncamı ilə o, "Əməkdar elm xadimi" adına layiq görülüb, "Şöhrət" ordeni ilə təltif edilib.

Akademik Y.Məmmədəliyev adına mükafatın laureatı olan Rəfiqə Əliyeva Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, Amerika Biblioqrafiya İnstitutu tərəfindən "2001-ci ilin adamı" və "2001-ci ilin işgüzar qadını" seçilib. 2018-ci ildə "Azərbaycanım" Beynəlxalq Jurnalının redaksiya şurası "Akademik Rəfiqə Əliyeva adına Qızıl Orden" təsis edib.

Onun ekologiyaya və ümumi ekologiyaya aid dərs vəsaitləri isə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Həsən Əliyev adına mükafatı ilə qiymətləndirilib.

Görkəmli alim, həssas qəlbli insan, qayğıkeş ana Rəfiqə xanım Əliyevanın əziz xatirəsi qəlbimizdə həmişə yaşayacaq və gənc nəsil onun yaratdığı elmi istiqaməti davam etdirəcək.

# Xalq şairi Zəlimxan Yaqubun 75 illiyinə həsr olunmuş ədəbi-bədii tədbir

***Mayın 26-da Filologiya fakültəsinin Tələbə Gənclər Təşkilatı (TGT) və Tələbə Elmi Cəmiyyətinin (TEC) birgə təşkilatçılığı ilə Xalq şairi Zəlimxan Yaqubun anadan olmasının 75 illiyinə həsr olunmuş ədəbi-bədii tədbir keçirilib.***

Tədbirdə fakültənin TGT sədri Hümbət Bədəlov şairin poeziyasında təbiət, Vətən, saz və xalq ruhu kimi motivlərin özünəməxsus yer tutduğunu qeyd edib, onun bu mövzularda yazdığı şeirlərdən nümunələr səsləndirib.

Filologiya fakültəsinin TEC sədri Nəzrin Əliyeva şairin məhəbbət lirikası barəsində ətraflı məlumat verib, onun insan hisslərini dərin psixoloji çalarlarla ifadə edən təkrarsız poetik nümunələrin müəllifi olduğunu bildirib, şeirlərindən parçalar səsləndirib.

Tədbirdə Tarix fakültəsinin I kurs tələbəsi Şəhriyar Məmmədzadə "Zəlimxan Yaqub poeziyasında bəşəri və əbədi dəyərlərin ifadəsi" mövzusunda geniş məruzə ilə çıxış edib, eyni zamanda şairin seçmə şeirlərini səsləndirib.

Tədbirin bədii hissəsində şairin özünün səsləndirdiyi "Yaxşı ki, sən varsan, ay sədəfli saz" şeiri nümayiş olunub. Filologiya fakültəsinin tələbələri Validə Bayramlı və Sultan Əsədli şairin şeirlərini səsləndirib, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin III kurs tələbələri Nicat Qasımov və Kamil Eyvazlı sazda "Naxçıvani", "Ruhani" və "Yanıq Kərəmi" sədaları altında Zəlimxan Yaqubun həyatından maraqlı hadisələri danışıb, bir sıra şeirlərini ifa ediblər.

# Görkəmli ədəbiyyatşünas alim Pənah Xəlilovun 100 illik yubileyinə elmi sessiya həsr olunub

***Mayın 26-da Filologiya fakültəsində görkəmli ədəbiyyatşünas alim, tənqidçi və tərcüməçi Pənah Xəlilovun 100 illik yubileyinə həsr olunmuş elmi sessiya keçirilib.***

Türkologiya kafedrasının müdiri, professor Məhərrəm Məmmədov görkəmli alimin elmi-pedaqoji fəaliyyətindən və yaradıcılıq istiqamətlərindən söz açıb, əsərlərinin ədəbiyyatşünaslıq elminə mühüm töhfələr verdiyini diqqətə çatdırıb. Türkologiya kafedrasının dosenti Kəmalə Nəcəfova, professor Firuzə Ağayeva, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun professoru Yaşar Qasımbəyli Pənah Xəlilovun elmi irsi haqqında məruzə ediblər. Məruzələrdə bildirilib ki, həyatını BDU-ya bağlamış tanınmış pedaqoq fəal elmi-pedaqoji fəaliyyətinə görə dəfələrlə Universitet rəhbərliyi tərəfindən mükafatlandırılıb. Elm və təhsil sahəsindəki xidmətləri nəzərə alınaraq, 2001-ci ildə Pənah Xəlilova "Əməkdar müəllim" fəxri adı verilib. Çıxışlarda qeyd olunub ki, bir çox dərslik və dərs vəsaitlərinin müəllifi olmuş Pənah Xəlilovun iki cildlik "SSRİ xalqları ədəbiyyatı", professor Mir Cəlal Paşayevlə birlikdə yazdığı "Ədəbiyyatşünaslığın əsasları", 1994-cü ildə nəşr olunmuş "Türk xalqlarının və şərqi slavyanların ədəbiyyatı" kitabları bu gün də alim və tələbələrin müraciət etdiyi dəyərli elmi mənbələrdir. 20-dən çox kitabın, 300-dən artıq məqalənin müəllifi olan Pənah Xəlilov həm də bədii tərcümə sahəsində ciddi xidmətləri olan yaradıcı şəxsiyyətlərdəndir.

# Görkəmli ədəbiyyatşünas, şair, müəllim

***Mayın 8-də görkəmli ədəbiyyatşünas, şair, müəllim, tərcüməçi, BDU-nun 4 il rektoru olmuş Cəfər Xəndanın (Cəfər Zeynal oğlu Hacıyev) 115 illik yubileyidir.***



Cəfər Xəndan 1910-cu il mayın 8-də İrəvan şəhərində anadan olub. 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər nəticəsində Cəfər Xəndanın ailəsi doğma yurdu tərk edərək Gəncəyə köçüb. O, Gəncə Pedaqoji Texnikumunu, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Dil və ədəbiyyat fakültəsini bitirib, sonra aspiranturada təhsil alıb. İnstitutun Ədəbiyyat kafedrasının assistenti, dosenti kimi fəaliyyət göstərib. Gənc alim M.F.Axundov adına Müəllimlər İnstitutunun Dil və ədəbiyyat fakültəsinin dekanı, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun kafedra müdiri, Azərbaycan Elmlər Akademiyasının Dil və Ədəbiyyat İnstitutunda şöbə müdiri, Azərbaycan Yazıçılar İttifaqında təşkilat katibi işləyib. Bu illərdə Cəfər Xəndan elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, jurnalistlik fəaliyyətini də davam etdirib, "Ədəbiyyat" qəzeti redaksiyasının məsul katibi, "Gənc işçi" qəzeti redaksiyasında Ədəbiyyat şöbəsinin müdiri vəzifələrində çalışıb. Cəfər Xəndan 1939-cu ildə "Proletar inqilabçı şair Sabir" dissertasiyasını müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsi alıb.

İkinci dünya müharibəsi illərində gənc alim də səfərbərliyə alınıb, keçmiş sovet ordusunun tərkibində siyasi rəhbər və jurnalist kimi fəaliyyət göstərib. Müharibə qurtardıqdan sonra Cəfər Xəndan BDU-nun Azərbaycan ədəbiyyatı kafedrasının dosenti, "Kommunist" qəzetində Mədəniyyət və məişət şöbəsinin müdiri, 1947-1950-ci illərdə Universitetin Filologiya fakültəsinin dekanı vəzifələrində çalışıb. 1950-ci ildə Cəfər Xəndan BDU-nun rektoru seçilib və 4 il Universitetə rəhbərlik edib. 1954-1961-ci illərdə Universitetin Sovet ədəbiyyatı kafedrasının müdiri vəzifəsində çalışıb. O, 1948-ci ildə "1906–1946-cı illərdə Cənubi Azərbaycan xalqının milli azadlıq mübarizəsi və onun bədii ədəbiyyatda inikası" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib, filologiya elmləri doktoru alimlik dərəcəsi alıb.

Cəfər Xəndanın yaradıcılığı zəngin və çoxşaxəlidir. Poeziya onun yaradıcılığında əsas qollardan birini təşkil edir. 1936-cı ildə ölməz şairimiz Mikayıl Müşfiqin redaktəsi ilə onun "Bəyaz gecələr" adlı ilk kitabı nəşr olunub. Sonralar şairin "Cəbhə" şerləri", "Qafqaz", "İlk ayrılıq", "Mübarizə yollarında" şeirlər kitabları çapdan çıxıb. Cəfər Xəndan həm də dahi Nizami, Xaqani, Ömər Xəyyam, Heyran xanımın bir çox əsərlərini ilk dəfə olaraq Azərbaycan dilinə tərcümə edib. Cəfər Xəndan ilk "Müasir Azərbaycan ədəbiyyatı"nın, ana dilində ilk "Ədəbiyyat nəzəriyyəsi" dərsliklərinin müəllifidir. 1940-cı ildə nəşr etdirdiyi "Sabir" kitabı Sabirə həsr olunmuş ilk iri monoqrafik tədqiqat əsəri kimi xüsusi əhəmiyyətə malikdir. Cəfər Xəndanın akademik Məmməd Ariflə birgə orta məktəb şagirdləri üçün "Sovet ədəbiyyatı" kitabı təkmilləşərək dəfələrlə nəşr olunub.

Cəfər Xəndan həm də fəal ictimai xadim idi. O, Azərbaycan SSR Ali Sovetinin (3-cü çağırış) deputatı və Azərbaycan KP MK-nın üzvü olub. "Qırmızı ulduz", "Qırmızı əmək bayrağı", "Şərəf nişanı" ordenləri, eləcə də "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbə" medalları ilə təltif edilib.

Cəfər Xəndan 1961-ci il avqustun 10-da, 51 yaşında Bakıda vəfat edib.

# “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin sədri Rövşən Məmmədov BDU tələbələri ilə görüşüb

***Mayın 7-də “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov BDU tələbələri ilə görüşüb.***

BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev Universitetin Fəaliyyət Planına uyğun olaraq tanınmış məzunlarla daim görüşlərin keçirildiyini və bunun tələbələrin inkişafında, karyera qurucuuluğunda mühüm rol oynadığını bildirib: “BDU fəaliyyət göstərdiyi 106 il ərzində zəngin tarixi yol keçib və xalqımızın maariflənməsinə, milli düşüncənin inkişafına, yüksəkixtisaslı kadrların yetişməsinə əvəzsiz töhfələr verib. Bu günə qədər BDU-nun 200 mindən çox məzunu olub. BDU-nun dünya şöhrətli məzunu Ümummilli Lider Heydər Əliyevdir. Hər bir universitetin ən böyük dəyəri onun məzunları, alimləri və tələbələridir. BDU öz məzunları ilə fəxr edir”.



Əliş Ağamirzəyev qeyd edib ki, BDU-nun uğurlu məzunu olan Rövşən Məmmədov da aparıcılıqdan, müxbirlikdən Azərbaycanın dövlət televiziyasının rəhbəri vəzifəsinə qədər pillə-pillə yüksəlib, şərəfli yol keçib. Onun fəaliyyəti indiki tələbələr üçün nümunədir.

Sonra söz Rövşən Məmmədova verilib. O, tələbələrə peşəkar jurnalist olmaq, karyerada uğur qazanmaq üçün tələb olunan keyfiyyətlər barədə məlumat verib. Diqqətə çatdırıb ki, yaxşı jurnalist olmaq üçün daim öz üzərində işləmək, zəngin mütaliəyə sahib olmaq lazımdır: “İctimai fikri formalaşdıran jurnalistlərimiz dilimizi ən mükəmməl səviyyədə bilməlidir. Müasir dövr həm də əlavə xarici dil bilikəri tələb edir. Hazırda media məkanı qloballaşıb və yalnız millilik kifayət etmir. Beynəlmiləlləşmək və xarici aləmə inteqrasiya etmək lazımdır. Buna görə də gənc jurnalistlərimizin üzərinə böyük məsuliyyət düşür”.

Görüş tələbələrin çoxsaylı suallarının cavablandırılması ilə başa çatıb.

# XİN-in xüsusi tapşırıqlar üzrə səfiri Elşad İskəndərov BDU tələbələri ilə görüşüb

***Mayın 30-da BDU-nun "İƏT modeli klubu"nun təşkilatçılığı ilə "Azərbaycançılıq məfkurəsi: milli kimlik, dövlətçilik tarixi və qlobal çağırışlar prizmasından" adlı növbəti görüş keçirilib. Görüşün bu dəfəki qonağı Xarici İşlər Nazirliyinin (XİN) xüsusi tapşırıqlar üzrə səfiri Elşad İskəndərov olub.***

BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev Elşad İskəndərovun fəaliyyəti haqqında tələbələrə məlumat verib. Prorektor qeyd edib ki, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın azadlıq və müstəqillik uğrunda apardığı mübarizənin zirvəsi idi. Cəmi 23 ay mövcud olmasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti bir çox tarixi ilkə imza atıb. O, BDU tələbələrini tariximizi dərindən öyrənməyə, daim dövlətçilik ənənələrini qorumağa, ölkəmizin mənafelərini qorumağa çağırıb.

Daha sonra söz qonağa verilib. XİN-in xüsusi tapşırıqlar üzrə səfiri Elşad İskəndərov Azərbaycan xalqının tarixində milli kimlik, dövlətçilik və azərbaycançılıq məfkurəsi anlayışlarını elmi və fəlsəfi kontekstdə təhlil edib, bu məfhumların həm keçmişin tarixi yaddaşına əsaslandığını, həm də müasir sosial və mədəni dəyərlərə aid olduğunu vurğulayıb. O qeyd edib ki, milli məfkurə xalqın mədəni, etnik, sosial, əhatə etdiyi coğrafi şüurun tarixi inkişafı və transformasiyası nəticəsində cəmiyyəti müasir milli kimlik və dövlətçilik ideyası ətrafında birləşdirən ideoloji gücə çevrilir.

Görüş zamanı səfir Elşad İskəndərov tərəfindən Azərbaycanın tarixən sivilizasiyaların qovuşduğu bir məkanda yerləşməsi, xalqımızın həmin sivilizasiyaların dəyərlərindən bəhrələnməsi, eyni zamanda tam fərqli bir etno-sosial qrup kimi formalaşması vurğulanıb. Qonaq bildirib ki, 1918-ci ildə yaranan Azərbaycan Xalq Cümhuriyyəti situativ bir hadisə və ya kənar qüvvələrin siyasi layihəsi olmayıb, orta əsrlərdən etibarən bu torpaqlarda formalaşmış, öz kimliyinə malik etno-sosial cəmiyyətin tarixin gedişi zamanı yaratdığı və Ağqoyunlu, Qaraqoyunlu, xüsusilə Səfəvilər kimi imperiya dövlətlərinin davamı və dövlətçilik irsinin bərpası üzərində qurulub.

Görüş interaktiv formada davam edib, tələbələrin sualları cavablandırılıb.

# BDU-da Everesti fəth edən azərbaycanlı alpinist Vəfa Musayeva ilə görüş

***Mayın 29-da BDU-da “BDU könüllüləri” təşkilatının təşəbbüsü ilə bu il mayın 15-də dünyanın ən hündür zirvəsi olan Everesti (dəniz səviyyəsindən 8848 metr yüksəklikdə) fəth edən azərbaycanlı qadın alpinist, təlimçi və pedaqoq Vəfa Musayeva ilə tələbələrin görüşü keçirilib.***



BDU-nun rektoru Elçin Babayev qonağa dəvəti qəbul etdiyinə görə təşəkkür edib və bu uğuruna görə onu təbrik edib. Rektor bildirib ki, atdığı cəsarətli addımı ilə ölkəmizdə rəğbətlə qarşılanan və qətiyyəti ilə nümunəyə çevrilən Vəfa Musayevanın dünyanın ən hündür zirvəsini fəth hekayəsi tələbələr üçün maraqlı və bir o qədər təsirli olacaq. Hədəfə çatmaq uğrunda belə bir əzmin nümayişi təqdirəlayiq və qürurverici hissdir: “Kosmosdan dünyamıza daxil olan bir meteoritə toxunmaq, bilinməzlikdən gələn bir cismi araşdırmaq necə həyəcanverici və maraqlıdırsa, ən hündürə qalxaraq ilklərdən olmaq da o qədər əvəzsiz duyğudur. Sizin əzminiz orada olduğunuz müddətdə də Azərbaycanda hiss olunurdu. Bu gün tələbələrlə səmimi görüşdə danışdıqlarınız onların həyatına da təsirsiz ötüşməyəcək”.

Daha sonra Vəfa Musayeva Everest zirvəsinin fəthi yolunda keçdiyi mərhələlərdən söz açıb, tələbələrə ilklərdən birinə çevrilməyin tarixçəsini danışıb: “Everesti fəth etmək əslində 2016-cı ildən planımda idi. Amma bu günə qədərki dövr planı reallışdırmaq üçün bir növ hazırlıq mərhələsi idi. Son iki ildə artıq Everest özü mənə yaxınlaşmağa başladı. Hədəfim, niyyətim və fikirlərim oldu. Ora qalxana qədər mən müxtəlif idmanlar, məşqlər edir, Azərbaycandakı bir çox dağlara dəfələrlə qalxıb-enirdim və bunların hamısında bir hədəf var idi – Everest. Yanvar ayından etibarən isə azərbaycanlı alpinistlər ilə danışmağa başladım, həm təcrübə, həm də bu yolda mənimlə birgə gedə bilmələri üçün. Əsas məsələ özümə inanmağım idi. Zirvəyə gedən yolda ən böyük dəstək özümə verdiyim ürək-dirək idi: “Vəfa, sən bunu bacaracaqsan. Vəfa sən buna qadirsən” – deyərək qətiyyətlə hədəfimə doğru getdim. Hətta yolun bir hissəsində bələdçim məni ruhdan salmağa çalışsa da, mən fiziki mənada tək olduğum bu yolda inancımla tək olmadığımı hiss etdim. Ora gedəndə əsas məqsədlərimdən biri də bu idi: “Bayrağımı necə olur-olsun, o zirvədə dalğalandırmalıyam”. Zirvədə bayrağımızı açanda, onu buludların üstündə, ən yüksəkdə görəndə ilk dəfə görmüş kimi ağladım. Məqsədimə nail olmuşdum”.

Görüşün sonunda tanınmış alpinist tələbələrin suallarını cavablandırıb.

# Tanınmış şair Qəşəm Nəcəfzadə ilə görüş

***Mayın 14-də Filologiya fakültəsi Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinin üzvü, Əməkdar mədəniyyət işçisi, tanınmış şair Qəşəm Nəcəfzadə ilə görüş keçirilib.***

Filologiya fakültəsinin TGT sədri Hümbət Bədəlov Qəşəm Nəcəfzadənin həyat və yaradıcılıq yoluna nəzər salıb. Bildirib ki, tanınmış şairin indiyədək 40-a yaxın kitabı çap olunub. Bu kitablardan 18-i xarici ölkələrdə işıq üzü görüb, şeirləri 20-dən çox dilə tərcümə olunub.

Fakültənin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov çıxışında Qəşəm Nəcəfzadənin zəngin yaradıcılığından bəhs edib, onun poeziyasında xalqın ruhunu, torpağın nəfəsini duymağın mümkün olduğunu vurğulayıb.

Çağdaş ədəbi-bədii proseslərə dair fikirlərini bölüşən Qəşəm Nəcəfzadə tələbələrlə görüşməkdən məmnuniyyət duyduğunu bildirib, gənc ədiblərə yaradıcılıqla bağlı məsləhətlər verib. Sonra şair sevilən şeirlərini səsləndirib.

Görüş zamanı şairin həyat və yaradıcılığını əks etdirən videoçarx nümayiş etdirilib.

Şair Ətraf Sərraf da Qəşəm Nəcəfzadənin yaradıcılığına dair fikirlərini bölüşərək, onun poetik dilinin orijinallığından bəhs edib.

Görüşün sonunda Qəşəm Nəcəfzadə tələbələrə kitablarını hədiyyə edib.

# BDU Qazaxıstanın Abay adına Qazax Milli Pedaqoji Universiteti ilə anlaşma memorandumu imzalayıb

***Mayın 20-də BDU və Qazaxıstanın Abay adına Qazax Milli Pedaqoji Universiteti arasında anlaşma memorandumu imzalanıb. Memorandumu BDU-nun rektoru Elçin Babayev və Abay adına Qazax Milli Pedaqoji Universitetinin rektoru Tilep Bolat imzalayıb.***

Memorandum çərçivəsində bakalavr, magistr, tədqiqatçıların və akademik heyətin mübadiləsi nəzərdə tutulur.

Əsası 1928-ci ildə qoyulmuş Qazaxıstanın Abay adına Qazax Milli Pedaqoji Universiteti ölkədə ilk ali təhsil müəssisəsidir. Universitetdə müxtəlif ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir. Universitet “QS World University Ranking”də 671-680-ci pillədə yer alır.

# BDU-da Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr olunmuş Beynəlxalq konfransın əsas sessiyasının açılışı

***Mayın 15-də BDU və Türkiyənin Üsküdar Universitetinin birgə təşkilatçılığı, Medianın İnkişafı Agentliyi, Audiovizual Şura və Azərbaycan Mətbuat Şurasının tərəfdaşlığı ilə Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr olunmuş "Rəqəmsal dövrdə media və kommunikasiya fəaliyyəti" mövzusunda Beynəlxalq konfransın əsas sessiyasının açılışı keçirilib.***






Konfransdan əvvəl tədbir iştirakçıları Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib. Ulu Öndərin məzarı önünə gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla anılıb. Sonra Azərbaycan milli mətbuatının yaradıcısı Həsən bəy Zərdabinin məzarı ziyarət edilib.

Tədbirin açılışında Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr edilmiş videoçarx nümayiş olunub.

BDU rektoru Elçin Babayev milli mətbuatın 150 illik yubileyi münasibətilə tədbir iştirakçılarını təbrik edib, konfransın işinə uğurlar arzulayıb. Rektor bildirib ki, "Konstitusiya və Suverenlik İli"ndə və Zəfərimizin 5-ci ildönümündə Azərbaycan milli mətbuatının da 150 illik yubileyinin geniş şəkildə qeyd olunması xüsusi tarixi əhəmiyyət daşıyır. Çünki müstəqil dövlət qurmaq və ədalətli cəmiyyət formalaşdırmaq ideyası tarixən xalqımızın başlıca məqsədlərindən biri olub. Bu yüksək məqsədlərin həyata keçirilməsində milli mətbuatın xüsusi rolu var. Böyük şəxsiyyət Həsən bəy Zərdabinin 1875-ci il iyulun 22-də əsasını qoyduğu "Əkinçi" qəzeti ilə başlayan milli mətbuatımız maarifçilik ideyalarının yayılmasında və ictimai düşüncənin inkişafında müstəsna rol oynayıb. "Əkinçi" ilə başlanan yeniləşmə və maarifçilik hərəkatı sonrakı dövrlərdə yeni ideyalarla zənginləşib, milli mətbuat ölkənin ictimai fikir tarixinin ayrılmaz tərkib hissəsinə çevrilib.

Rektor qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin ölkədə söz və mətbuat azadlığının təmin olunmasında, fikir plüralizminin formalaşmasında və inkişafında müstəsna xidmətləri olub. Məhz Ulu Öndər Heydər Əliyevin 1998-ci il 6 avqust tarixində imzaladığı Fərmanla Azərbaycanda mətbuat üzərində senzura tamamilə ləğv edilib, bununla da milli mətbuatın inkişafında yeni mərhələnin əsası qoyulub. Hazırda öz tarixi inkişafının mühüm mərhələsini yaşayan, ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş, qalib Azərbaycanda söz, fikir və informasiya azadlığı demokratik prinsiplərin təməl daşları olaraq güclü bir şəkildə möhkəmləndirilib. Ulu Öndər Heydər Əliyevin müdrik siyasətini və dövlətçilik ənənələrini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev medianın inkişafına hərtərəfli şəraitin yaradılmasını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə medianın azad və sərbəst fəaliyyəti üçün əlverişli şərait yaradılıb. Bu sahənin maddi-təşkilati və hüquqi bazası möhkəmləndirilib, Medianın İnkişafı Agentliyi təsis edilib, "Media haqqında" qanun qəbul olunub. Jurnalistlərin sosial məsələlərinə olan diqqət artırılıb və onların rifah halının yaxşılaşdırılması üçün davamlı tədbirlər görülüb: "Xüsusilə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan mediası misilsiz qəhrəmanlıq nümayiş etdirdi. Düzgün və operativ informasiyanın dünya ictimaiyyətinə çatdırılmasında, düşmən təbliğatının qarşısının alınmasında jurnalistlərimizin rolu əvəzsiz oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən müasirləşmə siyasəti, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı və sürətli quruculuq işləri, cəmiyyətin bütün sahələrində həyata keçirilən əhatəli inkişaf və transformasiya prosesləri, ölkəmizin qlobal informasiya məkanına daxil olması dövlət və ölkədaxili sosial institutlar qarşısında yeni vəzifələr müəyyənləşdirib. "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ölkəmizdə media və jurnalistikanın keçdiyi tarixi inkişaf mərhələlərinin, müasir çağırışların və mövcud trendlərin dərin təhlilini aktuallaşdırmaqla yanaşı, bu sahədə qarşıya qoyulan yeni vəzifələrin müəyyənləşdirilməsi zərurətini də ortaya qoyur. Mövcud çağırışlar xüsusilə də jurnalistika təhsilinin məzmun və forma baxımından yenilənməsini, müasir



tədris texnologiyalarının tətbiqini və bu sahədə institusional potensialın gücləndirilməsini zəruri edir. Bu baxımdan ölkə mediası üçün peşəkar jurnalist kadrlar hazırlayan aparıcı ali təhsil müəssisəsi kimi Bakı Dövlət Universiteti qarşısında mühüm vəzifələr dayanır. Universitet jurnalistika təhsilinin məzmun və strukturunun yenilənməsi, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə tədris prosesinin müasirləşdirilməsi istiqamətində fəaliyyətini daha da gücləndirməlidir. Hazırda BDU-da jurnalistika sahəsində yüksək ixtisaslı professor-müəllim heyəti fəaliyyət göstərir. Tələbələrin praktik vərdişlərə yiyələnməsi məqsədilə Universitetdə müxtəlif dövlət və özəl media qurumları ilə sıx əməkdaşlıq edilir. Belə ki, MEDİA, Audiovizual Şura, Mətbuat Şurası, AZTV, AzərTac, "ARB 24", "REAL TV", "Xalq qəzeti" və digər nüfuzlu təşkilatlar və media qurumları ilə davamlı olaraq birgə layihələr həyata keçirilir. Bu əməkdaşlıqlar çərçivəsində tədris prosesinə müasir təlim metodları və texnologiyaları tətbiq edilərək, tələbələrin praktiki biliklərinin daha da inkişaf etdirilməsi təmin olunur. Jurnalistika sahəsində aparılan islahatların ali təhsil sistemi ilə effektiv şəkildə uzlaşdırılması, innovativ tədris metodlarının tətbiqi və müasir medianın çağırışlarına uyğun kadr hazırlığının təşkili BDU-nun qarşısında duran əsas vəzifələr sırasında mühüm yer alır. Universitetin bu istiqamətdə həyata keçirdiyi kompleks və məqsədyönlü tədbirlər milli mətbuatın keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına və beynəlxalq informasiya məkanında mövqeyinin möhkəmlənməsinə əhəmiyyətli töhfə verəcək".

Üsküdar Universitetinin rektoru Nazife Güngör qeyd edib ki, iki qardaş ölkə olan Azərbaycan və Türkiyənin bütün sahələrdə güclərini birləşdirməsi lazımdır: "Türkiyə və Azərbaycan arasındakı əlaqələr siyasi və iqtisadi sahə ilə yanaşı, elm, təhsil, mədəniyyət və digər sahələrdə də çox önəmlidir. Bunlar bizi çağdaş dünyaya inteqrasiya edən, gələcəyimizi formalaşdıran əsas amillərdəndir". Onun sözlərinə görə, Üsküdar Universiteti və Bakı Dövlət Universiteti birgə addımlar ataraq ortaq təhsil modelləri, akademik mübadilə proqramları və elmi layihələrlə gələcəyə birlikdə irəliləməyi qarşıya məqsəd qoyub: "Azərbaycanın və Türkiyənin müstəqillik hekayələri bir-birinə çox bənzəyir. Çünki bizim köklərimiz, tariximiz və mədəniyyətimiz ortaqdır. Bu ortaq kimlik bizi bir ailə kimi yaxınlaşdırır və təhsildə atdığımız hər bir addımı daha da mənalı edir. Konfransda Türkiyə və digər ölkələrdən 100-dək, onlayn olaraq 200-dən çox məruzəçi iştirak edir. Bu, elm, təhsil və araşdırma sahəsində dinamik əməkdaşlığın sürətlə genişlənməkdə olduğunu göstərir".

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid "Əkinçi" qəzetinin fəaliyyətə başlamasının həmin dövr üçün böyük fədakarlıq olduğunu deyib. O bildirib ki, XX əsrin əvvəllərində də, sovet dövründə də "Əkinçi" ənənələri davam edib: "1991-ci ildən sonra ölkəmizdə media orqanlarının sayı artmağa başladı. Azərbaycan mətbuatı tarixində ən əlamətdar hadisələrdən biri isə 1998-ci il avqustun 6-da baş verdi. Həmin gün Ümummilli Lider Heydər Əliyev "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman imzaladı. Bu, mətbuatın inkişafı istiqamətində mühüm addım oldu və sonrakı illərdə də ardıcıl fəaliyyət davam etdirildi. Bu gözəl ənənə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev hər zaman müstəqil dövlət üçün müstəqil medianın vacibliyini vurğulayır. Ölkəmizdə "Media haqqında" yeni qanunun qəbulu, Medianın İnkişafı Agentliyinin yaradılması da Prezidentin bu sahədə apardığı siyasətin nəticəsidir".

Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov, Milli Məclisin deputatı, Bakı Slavyan Universitetinin Jurnalistika kafedrasının müdiri Vüqar Rəhimzadə, "REAL Təhlil və İnformasiya Mərkəzi" MMC-nin baş direktoru Mirşahin Ağayev, BDU-nun Milli mətbuat tarixi kafedrasının müdiri Cahangir Məmmədli çıxışlarında milli mətbuatımızın 150 illik tarixinin yalnız keçmişi anmaq üçün deyil, həm də gələcəyi düşünmək üçün mühüm informasiya bazası yaratdığını bildiriblər. Qeyd olunub ki, konfransda səsləndirilən fikirlər, müzakirə edilən mövzular Azərbaycan jurnalistikasının gələcək inkişaf istiqamətlərinə töhfə verəcək.

Sonra BDU-nun "Media problemləri" elmi-nəzəri və analitik jurnalının ilk sayı təqdim olunub. Jurnalın redaktoru, BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının müdiri Qulu Məhərrəmli jurnalın müasir medianın çağırışlarını, problemlərini elmi müstəvidə təhlil edəcəyini, qarşıda dayanan əsas tendensiyaların müzakirə olunacağı platformaya çevriləcəyini qeyd edib.

Sonda BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin hazırladığı bədii hissə nümayiş olunub.

# BDU-da "Milli mətbuat tarixi" auditoriyası açılıb





***Mayın 15-də Azərbaycan milli mətbuatının 150 illik yubileyi çərçivəsində Jurnalistika fakültəsində "Milli mətbuat tarixi" auditoriyasının açılışı olub.***

Açılış mərasimində çıxış edən rektor Elçin Babayev son illərdə BDU-nun Jurnalistika fakültəsində medianın müasir çağırışlarına uyğun islahatların aparıldığını deyib. O bildirib ki, fakültədə yeni ixtisas və ixtisaslaşmalar açılıb, müxtəlif ixtisaslaşmış otaqlar istifadəyə verilib. Yeni açılan "Milli mətbuat tarixi" auditoriyası Azərbaycan mətbuatının keçdiyi şərəfli tarixi əks etdirməklə bərabər, medianın qarşısında duran vəzifələrin müzakirə olunacağı əsas platformaya çevriləcək.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid "Milli mətbuat tarixi" auditoriyasının açılmasını milli mətbuatın 150 illik yubileyinə böyük töhfə adlandırıb və onun səmərəli fəaliyyət göstərəcəyinə əminliyini bildirib. Auditoriyada "Bakı Universiteti" qəzetinin milli mətbuatın 150 illik yubileyinə həsr olunmuş xüsusi nömrəsinin təqdimatı keçirilib. Jurnalistika fakültəsinin Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli, türkiyəli professorlar Aysel Aziz, Nilufer Timisi mühazirə deyiblər.

# "Mətbuat tarixi tələbələrin gözü ilə" adlı açıq dərs

***Mayın 16-da Jurnalistika fakültəsində Azərbaycan milli mətbuatının 150 illik yubileyi çərçivəsində "Azərbaycan jurnalistikası tarixi" fənni üzrə II kurs tələbələri tərəfindən hazırlanmış "Mətbuat tarixi tələbələrin gözü ilə" adlı açıq dərs keçirilib.***

"Milli mətbuat tarixi" auditoriyasında təşkil edilən açıq dərs "Rəqəmsal dövrdə media və kommunikasiya fəaliyyəti" mövzusunda Beynəlxalq konfransın sonuncu günündə Türkiyənin Üsküdar və Ankara universitetlərinin professor-müəllim heyətinin iştirakı ilə keçirilib.

Jurnalistika fakültəsinin dekanı, dosent Vüqar Əliyev milli mətbuat ənənələrinin öyrənilməsinin gənc jurnalistlərin yetişməsində mühüm rola malik olduğunu bildirib. Beynəlxalq konfrans çərçivəsində keçirilən bu dərs həm də Türkiyədən olan alimlərə milli mətbuat tariximiz haqqında geniş informasiya vermək baxımından böyük əhəmiyyətə malikdir.

Milli mətbuat tarixi kafedrasının dosenti Aygün Əzimova Azərbaycan mətbuat tarixinin zəngin irsindən danışıb. 1875-1920-ci illər ərzində fəaliyyət göstərən 50-yə yaxın anadilli mətbu orqanın milli mətbuatın inkişaf yolunun göstəricisi olduğunu deyib.

Daha sonra tələbələr - Elmira Ağayeva, Türkanə Məşədiyeva, Günel Verdiyeva, Aytən Atakişiyeva, Nəzrin Alıyeva, Nərgiz Orucova, Nəzakət Sadıqova, Türkan Kərimli, Rahidə Nağıyeva, Ayhan Ağarzayev və Mahmud Əskərli mətbuatımızın keçdiyi inkişaf yolu və tanınmış publisistlərin fəaliyyəti ilə bağlı təqdimatlarla çıxış ediblər.

Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli milli mətbuatımızın incilərini özündə əks etdirən belə tələbə tədqiqatlarının təqdim edildiyi dərsin yubiley ilinə ən böyük töhfələrdən olduğunu vurğulayıb. Bildirib ki, bu gün BDU-nun Jurnalistika fakültəsi yüksəkixtisaslı kadr hazırlığını həyata keçirən peşəkar jurnalist məktəbi rolunu oynayan əsas ali təhsil ocağıdır: "Fakültəmiz üzərinə düşən bu müqəddəs missiyanı yarım əsrdən çoxdur yerinə yetirir. Bu ənənə bundan sonra da davam etdiriləcək".

Sonda qonaqlara fakültə tələbələrinin hazırladığı "Günəbaxan" jurnalı təqdim edilib.

# Audiovizual Şura BDU tələbələri üçün növbəti seminar təşkil edib

***Mayın 23-də Audiovizual Şura Jurnalistika fakültəsinin tələbələri üçün növbəti seminar təşkil edib. Tədbir BDU, Audiovizual Şura, Medianın İnkişafı Agentliyi arasında imzalanmış anlaşma memorandumu çərçivəsində keçirilib.***

Jurnalistika fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev belə görüşlərin silsilə xarakter daşımasının gənc jurnalistlərin nəzəri biliklərinin praktik cəhətdən möhkəmlənməsinə dəstək olduğunu deyib.

Audiovizual Şuranın Kommunikasiya sektorunun müdiri Taleh Quliyev Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən elan edilən ənənəvi "İnsan Hüquqları Aylığı" və "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən bugünkü təlimin audiovizual mediada aktual mövzulardan olan insan hüquqlarının qorunmasına həsr olunduğunu qeyd edib. O, tənzimləyici və nəzarətedici funksiyaya malik mərkəzi icra orqanı olan Audiovizual Şuranın bu sahədə həyata keçirdiyi işlərlə bağlı məlumat verib, insan hüquqlarının qorunmasında maarifləndirici verilişlərin xüsusi rola malik olduğunu vurğulayıb.

Audiovizual Şuranın Hüquq və beynəlxalq əməkdaşlıq şöbəsinin baş məsləhətçisi Ayxan Sadıqlı "Mediada insan hüquqlarının qorunma prinsipləri" mövzusunda təqdimatla çıxış edərək, "Media haqqında" qanunda bu məsələdən irəli gələn müddəalara toxunub.

Təlimdə son vaxtlar audiovizual yayımçıların yol verdikləri nöqsanlar, Şuranın bununla bağlı həyata keçirdiyi cavab tədbirləri barəsində fikir mübadiləsi aparılıb, tələbələrin suallarını cavablandırılıb.

# "Springer Nature" nəşriyyatının vitse-prezidenti BDU-nun professor-müəllim heyəti və gənc tədqiqatçıları ilə görüşüb

***Mayın 14-də BDU-da "Springer Nature" nəşriyyatının genişləndirilmiş Şərqi Avropa üzrə vitse-prezidenti Aliaksandr Birukou ilə professor-müəllim heyətinin və gənc tədqiqatçıların görüşü keçirilib.***

Aliaksandr Birukou məruzəsində "Springer Nature"nin beynəlxalq nəşriyyat imkanları, Azərbaycandakı tədqiqatçılar üçün təqdim edilən açıq giriş (Open Access) təşəbbüsləri haqqında ətraflı məlumat verib. "Springer Nature"nin hər il 1,5 milyondan çox məqalə qəbul etdiyi, 410000-dən çox elmi məqalə yayımladığı, 2,9 milyarddan çox məzmun yüklədiyi iştirakçıların diqqətinə çatdırılıb. Açıq girişin müəlliflər üçün daha faydalı olduğu və elmi kəşflərin cəmiyyətə sürətli çatmasını təmin etdiyi vurğulanıb. Konfrans materiallarının "Springer Nature" tərəfindən vacib nəşr forması kimi dəstəkləndiyi bildirilib.

Qeyd olunub ki, "Springer Nature" nəşriyyatında Azərbaycandan olan tədqiqatçılar üçün 50% APC (məqalə ödəniş haqqı) endirimi imkanı mövcuddur. Azərbaycanda "Springer Nature" nəşrlərində daha çox iştirak üçün xüsusi buraxılışlar və beynəlxalq konfranslardan çıxış materiallarının dərc olunması təşviq edilir. Təqdimatda "Springer Nature"nin dünyanın ən böyük elmi kitab nəşriyyatlarından biri olduğu vurğulanıb və kitab nəşri prosesi izah edilib.

Təqdimatın sonunda dil baryerinin aradan qaldırılması üçün avtomatik tərcümə xidmətləri və elmi nəşrdə AI/NLP texnologiyalarının rolu haqqında danışılıb və professor-müəllim heyətini maraqlandıran suallar cavablandırılıb.

# BDU-da "Rəqəmsal dövrdə media və kommunikasiya fəaliyyəti" mövzusunda Beynəlxalq konfrans öz işinə başlayıb

***Mayın 14-də BDU və Türkiyənin Üsküdar Universitetinin birgə təşkilatçılığı, Medianın İnkişafı Agentliyi, Audiovizual Şura və Azərbaycan Mətbuat Şurasının tərəfdaşlığı ilə Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr olunmuş "Rəqəmsal dövrdə media və kommunikasiya fəaliyyəti" mövzusunda Beynəlxalq konfrans öz işinə başlayıb.***

3 gün davam edən konfransın məqsədi media istehsalı və istehlakı proseslərinin rəqəmsallaşma ilə transformasiyasının insani, sosial, siyasi və mədəni təsirləri haqqında müzakirələr aparmaqdır. Bu transformasiyanın mahiyyətinin, media ekosisteminə təsirlərinin və qlobal səviyyədə gətirəcəyi nəticələrin ətraflı şəkildə müzakirə olunacağı konfransın kommunikasiya və media sahəsində araşdırmalara əhəmiyyətli töhfə verməsi hədəflənir.

Konfransın ilk günündə "Rəqəmsal dövrdə media və cəmiyyət", "Süni intellekt, media və cəmiyyət", "Rəqəmsal dövrdə media və kommunikasiya tədqiqatları", "Rəqəmsal dövrdə reklam və marketinq", "Jurnalistika tarixi", "Süni intellekt, media və vizual mədəniyyət", "Rəqəmsal transformasiya və media" mövzuları üzrə 7 bölmədə 48 məruzə dinlənilib.

Qeyd edək ki, konfransa ümumilikdə 300-ə yaxın məqalə və 100-ə yaxın tezis qəbul olunub. Tədbir zamanı medianın müxtəlif istiqamətləri üzrə 19 canlı, 24-dək onlayn panel müzakirəsi təşkil olunub.

# BDU-nun Faydalı qazıntılar muzeyinin bp və tərəfdaş şirkətlərin dəstəyi ilə əsaslı təmirdən sonra açılış mərasimi







***Mayın 16-da BDU-nun Faydalı qazıntılar muzeyinin bp və şirkətin Azəri-Çıraq-Günəşli, Bakı-Tbilisi-Ceyhan, Şahdəniz və Cənubi Qafqaz Boru Kəməri layihələrindəki tərəfdaşlarının ("SOCAR", "TPAO", "LUKOİL", "SGC", "NİCO", "MOL", "İNPEX", "ExxonMobil", "İTOCHU", "ONGC Videsh", "Eni", "MVM" və "TotalEnergies") dəstəyi ilə əsaslı təmirdən sonra açılışı olub.***

BDU-da tədris infrastrukturunun modernləşdirilməsi və genişləndirilməsinə yönəlmiş bu layihə Azərbaycanın zəngin geoloji irsi, təbii ehtiyatları və bu sahədəki elmi nailiyyətlərinə dair məlumatları əhatəli şəkildə təqdim etmək məqsədilə yaradılıb.

Muzeyin açılışında çıxış edən rektor Elçin Babayev bildirib ki, Faydalı qazıntılar muzeyi elm-tədris-sənaye əməkdaşlığının ən gözəl nümunəsi hesab edilə bilər. Məkan kitabxana-muzey-tədris laboratoriyası kimi fəaliyyət göstərməklə BDU-da tədris prosesinin keyfiyyətinə öz müsbət təsirini göstərəcək. Muzey yalnız BDU tələbələri deyil, digər universitetlərin tələbələri, orta məktəb şagirdlərinin üzünə də açıq olacaq. BDU ölkənin ən qədim universiteti kimi öz tarixi və dünya şöhrətli məzunları ilə fəxr edir. Tarixi ənənələri davam etdirən Universitetdə son illər rəqəmsallaşma istiqamətində ciddi addımlar atılıb. Rektor belə interaktiv təlim və tədris mərkəzi yaratdığına görə bp şirkəti və tərəfdaşlarına təşəkkür edib. O bildirib ki, bp şirkəti son illər BDU-da bir çox sosial layihələr həyata keçirib, bunlar Universitetin həyatına rəngarənglik qatıb. Rektor xatırladıb ki, muzeydə 1997-ci ildən akademik Musa Əliyev adına kabinet fəaliyyət göstərib: "Bizim üçün fəxrdir ki, görkəmli elm və dövlət xadimi, akademik Musa Əliyev öz kitabxanasını məhz BDU-ya bağışlayıb. Muzeyin əsaslı təmiri zamanı həmin kitabxana da rəqəmsallaşdırılaraq müəllim və tələbələrimizin ixtiyarına verilib. Bu kitabxananın Moskvadan Bakıya gətirilməsində ADA Universitetinin rektoru Hafiz Paşayevin xüsusi rolu olub. Mən bu işə göstərdiyi dəstəyə görə ADA Universitetinin rektoru, professor Hafiz Paşayevə təşəkkür edirəm".

ADA Universitetinin rektoru, professor Hafiz Paşayev mərasimdə çıxış edərək akademik Musa Əliyevin elmi irsi, keçmiş SSRİ məkanında və o cümlədən Azərbaycanda, Əlcəzairdə həyata keçirdiyi neft kəşfiyyatı işləri barədə məlumat verib. Bildirilib ki, BDU Azərbaycanın elm, təhsil və maarif mərkəzlərindən birinə çevrilib və burada minlərlə mütəxəssis yetişdirilib.

Professor Hafiz Paşayev akademik Musa Əliyev və professor Mir Cəlal Paşayev arasında olan dostluq və elmi dialoqlardan da danışıb. Qeyd edib ki, biri humanitar, digəri isə təbiət elmləri üzrə fəaliyyət göstərsə də, onların müzakirələri dərin məzmun kəsb edirdi. Eyni zamanda vurğulanıb ki, Xəzər dənizində Neft Daşlarının kəşfində də Musa Əliyevin mühüm xidmətləri olub.

Rektor Elçin Babayev professor Mir Cəlal Paşayevin akademik Musa Əliyevə yazdığı əlyazma məktubu Hafiz Paşayevə təqdim edib.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz qeyd edib ki, bu layihə şirkətin ölkədə təhsilə və digər mühüm sosial inkişaf sahələrinə davamlı dəstəyinin gözəl nümunəsidir: "Tərəfdaşlarımızla birlikdə çox məmnunuq ki, artıq bir əsrdən çox tarixi olan və aparıcı, nüfuzlu təhsil müəssisəsi kimi geniş miqyasda tanınan Bakı Dövlət Universiteti bu cür unikal bir mərkəzə sahib olacaq". bp-nin regional prezidenti 2019-cu ildən başlayaq BDU ilə əməkdaşlıq müqaviləsi çərçivəsində bir çox uğurlu layihələr həyata keçirildiyini bildirib. O, bu mərkəzin geoloji və geofiziki biliklərin zəngin məlumat bazasını innovativ şəkildə təqdim etməyə imkan yaradacağını, BDU-da interaktiv təhsilə fayda verəcəyini bildirib: "Ümid edirik ki, tələbələr və digər ziyarətçilər ölkənin təbii ehtiyatlarının əsrarəngiz müxtəlifliyini və onun diqqətəlayiq geoloji irsini dərindən anlayacaq və dəyərləndirəcəklər".

Rektor Elçin Babayev universitetin xatirə hədiyyəsini Qəri Counza təqdim edib.

Milli Məclisin sədr müavini, BDU-nun professoru, akademik Rafael Hüseynov, BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov, Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutunun baş direktoru, akademik Akif Əlizadə, Geologiya fakültəsinin Faydalı qazıntılar kafedrasının müdiri, akademik Vasif Babazadə çıxışlarında akademik Musa Əliyevin Azərbaycan xalqı və elmi qarşısında xidmətlərindən danışıb, Faydalı qazıntılar muzeyinin elm, təhsil, tədqiqat və texnologiya mərkəzi kimi faydalı olacağına əminliklərini bildiriblər.

Tədbir iştirakçıları Xatirə Kitabına ürək sözlərini yazıblar.

# BDU-da Karyera Festivalının açılış mərasimi

***Mayın 27-də BDU, Dövlət Məşğulluq Agentliyi və BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) birgə təşkilatçılığı ilə Karyera Festivalının açılış mərasimi keçirilib.***






Festivalda ölkəmizin 100-dən çox nüfuzlu işəgötürəni BDU-nun tələbə və məzunlarına 1200-dən artıq vakansiya, 500-dək təqaüd proqramı təqdim edib.

Tədbirdə açılış nitqi ilə çıxış edən BDU-nun rektoru Elçin Babayev öncə Festivalın keçirilməsində göstərilən dəstəyə görə Dövlət Məşğulluq Agentliyinə, işəgötürənlərə təşəkkürünü bildirib, tələbə və məzunlara uğurlar arzulayıb. O qeyd edib ki, BDU-da artıq neçə ildir keçirilən Karyera Festivalının məqsədi tələbə və məzunları ölkənin aparıcı təşkilat və şirkətləri ilə bir araya gətirmək, onların əmək bazarına uğurlu inteqrasiyasını təmin etmək, savadlı, bacarıqlı və təcrübəli gənclərin ixtisasyönümlü karyera perspektivlərini dəstəkləməkdir. "Açıq qapı" formatında təşkil edilən festivalda digər universitetlərin tələbə və məzunları, həmçinin işsiz və işaxtaran vətəndaşlar da iştirak edirlər. Festivalda iştirak edən 100-dən çox aparıcı dövlət qurumu, özəl şirkət və müəssisə öz fəaliyyət istiqamətləri, mövcud vakansiyaları, təqaüd və təcrübə proqramları haqqında ətraflı məlumat təqdim edirlər. Festival çərçivəsində iştirakçılar işəgötürənlərlə tanış olmaq, vakansiyalara müraciət etmək, CV təqdim etmək və müsahibə simulyasiyalarında iştirak etmək imkanına sahib olacaqlar. Festivalda tələbə və məzunların bilik və bacarıqlarının inkişaf etdirilməsi istiqamətində "workshop", təlim və seminarlar keçiriləcək, simulyasiya və startap guşələri təşkil ediləcək. Əminik ki, festival əmək bazarında yeni əməkdaşlıq körpüləri yaradacaq və gənclərin iş həyatı üçün uğurlu bir başlanğıc olacaq".

Dövlət Məşğulluq Agentliyinin sədr müavini Ülvi Abbasquliyev bildirib ki, Karyera Festivalı məzunların məşğulluğu, işlə təmin olunması baxımından ən önəmli alətlərdən biridir. Bu zaman işaxtaranlarla işəgötürənlər canlı ünsiyyət qurur. Tələbələr və universitetlərlə olan işbirliyi güclənir, işəgötürənlər yeni kadr potensialı əldə edir: "Son illərdə əmək bazarında bir sıra peşə və ixtisaslar öz əhəmiyyətini itirib, əvəzində müasir çağırışlara cavab verən yeni ixtisaslar yaranıb. Bu baxımdan universitetlər və tələbələr müasir çağırışlara hazır olmalı, texnologiyanın inkişafını nəzərə almalıdırlar. İnanıram ki, bu Karyera Festivalında əmək müqavilələri bağlayan yüzlərlə məzun olacaq".

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Nicat Əsədli Bakı Dövlət Universitetinin ölkənin ən qədim, qabaqcıl təhsil ocağı olduğunu deyib. O bildirib ki, ölkədə təhsilin, elmin, innovasiyanın inkişafında mühüm rolu olan BDU-nun tələbə və məzunu olmaq qürurvericidir. O, tələbə və məzunları aktiv olmağa, onlar üçün yaradılan şəraitdən yararlanmağa səsləyib.

"LU-MUN Holdinq"in İdarə Heyətinin sədri Emil Məmmədsadıxov, "AZERA Holdinq" MMC-nin direktoru Akif Əliyev çıxışlarında BDU ilə uğurlu əməkdaşlıq qurduqlarını bildirib, festivalda iştirak edən tələbə və məzunlara uğurlar arzulayıblar.

Daha sonra iştirakçı şirkətlərin stendlərinə baxış keçirilib. Sərgi iştirakçıları həmin şirkətlər haqqında ətraflı məlumatlandırılıblar. Qeyd edək ki, festival çərçivəsində 6 bölmədə tələbə və məzunların bilik və bacarıqlarının inkişaf etdirilməsi məqsədilə "workshop", təlim və seminarlar keçirilib.

# BDU-da AMEA-nın müxbir üzvü Namiq Cəlilovun 70 illik yubileyi qeyd olunub

***Mayın 26-da BDU-da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü, Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının (ŞAR) Baş direktoru, BDU-nun Astrofizika kafedrasının professoru Namiq Cəlilovun 70 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib.***

Əvvəlcə alimin həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Mərasimdə çıxış edən rektor Elçin Babayev BDU-nun tanınmış məzunlarının yubileylərinin keçirilməsinin ənənə xarakteri aldığını bildirib. O diqqətə çatdırıb ki, BDU ölkədə kadr hazırlığında özünəməxsus yeri olan elm və təhsil müəssisəsidir. BDU-da Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1975-ci ildə Astrofizika kafedrasının yaradılması və bu sahədə milli kadr hazırlığına başlanması heç də təsadüfi deyildi. Həmin dövrə qədər digər sahələrdə olduğu kimi, asrtofizika üzrə kadrlar da keçmiş SSRİ-nin tanınmış təhsil ocaqlarında hazırlanırdı. Kafedranın açılması ilə bu sahədə milli kadr hazırlığına başlanıldı. Bu gün həmin kadrlar ölkədə astronomiya, astrofizika elmini inkişaf etdirən əsas alimlərdir. Namiq Cəlilov məhz bu məktəbin tanınmış yetirmələrindəndir. Rektor Elçin Babayev bildirib ki, Namiq Cəlilov BDU-nun Fizika fakültəsini bitirdikdən sonra Rusiya və Almaniyanın məşhur elm ocaqlarında işləyib. Günəş fizikası, kosmik plazma fizikası sahəsində tanınmış mütəxəssis olan Namiq Cəlilovun aldığı mühüm elmi nəticələr dünya miqyasında öz təsdiqini tapıb.



Sonra elm və təhsil sahəsində uğurlu fəaliyyətinə görə AMEA-nın müxbir üzvü Namiq Cəlilova BDU-nun Fəxri Fərmanı təqdim olunub.

Bakı Mühəndislik Universitetinin rektoru Yaqub Piriyevin təbrik məktubu səsləndirilib.

Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının (ŞAR) elmi katibi, dosent Orxan Xəlilov, AMEA-nın həqiqi üzvü, Fizika İnstitutunun Bərk cisim elektronikası laboratoriyasının rəhbəri Cavad Abdinov, Radiasiya Problemləri İnstitutunun icraçı direktoru, dosent Rəvan Mehdiyeva, BDU-nun Doktorantura şöbəsinin müdiri, Nəzəri fizika kafedrasının dosenti Mirnamik Bəşirov çıxışlarında Namiq Cəlilovun məhsuldar elmi yaradıcılığından bəhs edib, onun Günəş-Yer əlaqələri, qlobal istiləşmə ilə bağlı tədqiqatlarının əhəmiyyətini vurğulayıblar.

Daha sonra yubilyarın ünvanına videotəbriklər səsləndirilib.

Tədbir elmi sessiya ilə davam edib. AMEA-nın müxbir üzvü, ŞAR-ın Baş elmi işçisi Əyyub Quliyev "Naməlum planet məsələsinə müasir baxışlar", BDU-nun Elmi fəaliyyətlərin təşkili və innovasiyalar Mərkəzinin direktoru, Fizika fakültəsinin Maddə quruluşu kafedrasının professoru Mais Süleymanov "Ekstremal sıxılmış nüvə maddəsi ifrat yüksək enerjili kosmik şüaların mümkün mənbəyi kimi", BDU-nun Astrofizika kafedrasının dosenti, ŞAR-ın aparıcı elmi işçisi Bayram Rüstəmov "Görünən və görünməyən Kainat: müasir astrofiziki baxışlar", ŞAR-ın elmi işçisi Cənnət Səmədov "Günəş küləyində yaranan dayanıqsızlıqlar haqqında" mövzularında məruzə ediblər.

Sonda söz yubilyara verilib. Namiq Cəlilov çıxışında yubiley tədbirinin təşkilinə görə BDU rəhbərliyinə təşəkkür edib, hər bir alimin elmi tədqiqatları, həyat tərzi ilə gələcək nəsillərə örnək olmalı olduğunu deyib, gəncləri əməksevər olmağa, daha çox mütaliə etməyə səsləyib.

# BDU-da görkəmli alim və pedaqoq Əhməd Abdinovun 80 illik yubileyi qeyd olunub





***BDU Fiziki elektronika kafedrasının müdiri, fizika-riyaziyyat elmləri doktoru, professor Əhməd Abdinovun 80 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.***

Əvvəlcə professor Əhməd Abdinovun həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Mərasimdə çıxış edən BDU rektoru Elçin Babayev Əhməd Abdinovun görkəmli alim, peşəkar pedaqoq və elm təşkilatçısı olduğunu bildirib. O qeyd edib ki, professor Əhməd Abdinov 80 illik həyatının 63 ilini BDU-ya bağlayıb. BDU-nun Fizika fakültəsinin məzunu olan görkəmli alim 1972-ci ildə namizədlik, 1978-ci ildə doktorluq dissertasiyası müdafiə edib. 1971-ci ildən BDU-nun Fizika fakültəsində assistent, baş müəllim, dosent, professor, dekan kimi fəaliyyət göstərib, 1992-ci ildən kafedra müdiri vəzifəsində çalışır. Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə 1993-cü ilin dekabrında Azərbaycan Respublikası təhsil nazirinin müavini təyin edilən Əhməd Abdinov 2000-ci ilə kimi bu məsul vəzifədə çalışıb, bir müddət isə təhsil nazirinin əvəzi olub.

Rektor diqqətə çatdırıb ki, professor Əhməd Abdinov hələ sovet dövründə "Lenin təqaüdü", "Respublika Lenin Komsomolu Mükafatı" kimi mükafatlara layiq görülüb, fizikanın müxtəlif aktual sahələrinə dair mühüm elmi yeniliklərə imza atıb. Görkəmli alim 650-dək elmi əsərin, ali məktəblər üçün yazılmış beş dərslik və 21 fənn proqramının müəllifidir. Onun elmi rəhbərliyi ilə 7 elmlər doktoru, 31 elmlər namizədi, 14 magistr dissertasiyası müdafiə edilib.

Rektor uzunmüddətli səmərəli elmi və pedaqoji fəaliyyətinə görə Əhməd Abdinova BDU-nun Fəxri Fərmanını təqdim edib.

BDU-nun Fizika fakültəsinin dekanı Bəxtiyar Paşayev "Professor Əhməd Abdinovun həyatı və elmi pedaqoji" fəaliyyəti mövzusunda məruzə edib.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov Əhməd Abdinovun Azərbaycan elminə və təhsilinə verdiyi mühüm töhfələri qeyd edib, onun ölkədə ali təhsilin formalaşmasındakı xidmətlərini sadalayıb. O qeyd edib ki, professor Əhməd Abdinov görkəmli alim, pedaqoq olmaqla yanaşı, güclü təşkilatçı, gözəl ailə başçısı və prinsipial bir insandır: "BDU-nun gücü də məhz Əhməd Abdinov kimi nəhəng alimlərdədir. Onun həyatı və fəaliyyəti minlərlə tələbəsi üçün nümunədir".

Bakı Mühəndislik Universitetinin rektoru Yaqub Piriyev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərovun adından təbrik mətnləri, Türkiyənin Bilkent Universitetinin professoru Əmrulla Məmmədovun videotəbriki səsləndirilib.

AMEA-nın akademik-katibi, Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun baş direktoru Arif Həşimov, Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının baş direktoru Namiq Cəlilov, Fizika İnstitutunun Bərk cisim elektronikası laboratoriyasının rəhbəri Cavad Abdinov, Radiasiya Problemləri İnstitutunun icraçı direktoru Rəvan Mehdiyeva, Fizika fakültəsinin kafedra müdiri Səcidə Abdulvahabova, Nanomaterialların kimyəvi fizikası kafedrasının müdiri Maarif Cəfərov, Fizika fakültəsinin professoru Tərlan Hüseynov, Ordubad Tusi Xeyriyyə Cəmiyyətinin İdarə Heyətinin sədri Yəhya Babanlı, görkəmli alimin oğlu, tibb elmləri doktoru Elçin Abdinov, nəvəsi Leyla Abdinova çıxışlarında Əhməd Abdinovun məhsuldar elmi yaradıcılığından bəhs edib, onun tədqiqatlarının əhəmiyyətini vurğulayıblar.

Sonda söz yubilyara verilib. Əhməd Abdinov çıxışında yubiley tədbirinin təşkilinə görə BDU rəhbərliyinə təşəkkür edib, hər bir yubileyin insanın özü, ailəsi, işlədiyi kollektivi, Vətəni qarşısında bir hesabat olduğunu bildirib, gəncləri əməksevər olmağa səsləyib.

# BDU-da türk xalqlarının toy rituallarının mifoloji strukturu ilə bağlı araşdırmalar aparılır

***Mayın 6-da Filologiya fakültəsinin Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasında "Türk mifopoetik ənənəsində evlənmə və toy mərasim-ritualları: strukturu və tipologiyası" mövzusunda elmi seminar keçirilib.***

Mövzu ilə bağlı məruzə edən kafedranın professoru, filologiya elmləri doktoru Ülkər Nəbiyeva evlənmə və toy ritual-mərasimlərinin mifoloji strukturu və qaynaqlarının araşdırılmasının aktuallığından bəhs edib. O bildirib ki, məişət mərasimlərindən biri kimi evlilik folklorşünaslıqda geniş tədqiq olunan aktual mövzulardandır. O, mənbələrə istinad edərək, evlənmə mərasiminin dünya xalqlarının, o cümlədən türk xalqlarının mifik təfəkküründə "doğumla ölüm arasında yer alan və yaşama yön verən bir anlaşma" kimi qəbul edildiyini vurğulayıb.

Məruzəçi İslam qaynaqlarında ilk evli cütlük kimi Adəm ilə Həvvanın göstərildiyini, insan nəslinin yaranmasının Adəmin və Həvvanın qız və oğlan uşaqlarının evlənməsi ilə başlandığını qeyd edib. O, evlilik və evlənmə ilə bağlı süjetlərin İslam mənbələrindəki əksini də təhlil edib.

Seminarda türk xalqlarının mifopoetik ənənəsində evlilik və toy mərasim-rituallarının strukturu və tipologiyasına dair geniş məlumat verilib. Xüsusilə yakutlar, xakaslar, saha və digər türk xalqlarında zəngin toy ritual və ayinləri haqqında məlumat təqdim olunub. "Odla ruhun təmizlənməsi" kimi ritüalların da müzakirə edildiyi seminarın sonunda türk xalqlarının ailə və evlilik məsələlərinə həssas yanaşdığı, ailə daxilində qadının və ananın önəmli rolunun olduğu vurğulanıb.

# Dayanıqlı İnkişaf Məqsədlərinin tədris və tədqiqata inteqrasiyasına dair silsilə təlimlər davam edir



***BDU ali təhsildə Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) tədris və tədqiqat proseslərinə səmərəli inteqrasiyasını təşviq etmək məqsədilə təşkil olunan silsilə təlimlər uğurla davam etdirilir.*** Növbəti təlim BDU-nun Keyfiyyət Təminatı Mərkəzinin təşəbbüsü və rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasovun rəhbərliyi ilə həyata keçirilib. Tədbirin əsas məqsədi iştirakçılara Birləşmiş Millətlər Təşkilatı tərəfindən müəyyənləşdirilmiş 17 Dayanıqlı İnkişaf Məqsədinin ali təhsildə əhəmiyyətini izah etmək və bu məqsədlərin elmi-tədqiqat fəaliyyətlərinə inteqrasiyası ilə bağlı praktiki bilik və bacarıqları aşılamaq olub.

Təlim zamanı beynəlxalq təcrübədə tətbiq edilən qabaqcıl metodologiyalar iştirakçıların diqqətinə çatdırılıb, interaktiv yanaşma ilə keçirilən müzakirələr isə iştirakçıların aktiv iştirakını və fikir mübadiləsini təşviq edib.

Sözügedən təşəbbüs BDU-nun ali təhsildə dayanıqlılıq və qlobal çağırışlara cavab verən yanaşmaların tətbiqinə xüsusi önəm verdiyini və bu istiqamətdə sistemli fəaliyyət göstərdiyini nümayiş etdirir. Həmçinin, bu təlimlər BDU-nun uzunmüddətli strateji inkişaf planları çərçivəsində DİM-lərin tədris və tədqiqat fəaliyyətlərinə effektiv şəkildə inteqrasiya edilməsinə xidmət edən əsas fəaliyyət istiqamətlərindən biri kimi qiymətləndirilir.

# Bolqarıstanlı alimlər Filologiya fakültəsinin qonağı olublar

***Mayın 30-da Bolqarıstan Respublikasının Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetinin alimləri BDU-da olub.***

Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetinin Klassik və müasir filologiya fakültəsinin dekan müavini, Türk dilləri və altayşünaslıq kafedrasının professoru Milena Yordanova, kafedranın müdiri, professor İrina Saraivanova və professor Lyudmila İlieva BDU-nun Filologiya fakültəsində professor-müəllim heyəti ilə görüşüb. Görüşdə fakültə dekanı, dosent Elçin Məmmədov, dekan müavinləri Ülviyyə Hüseynova və Anar Fərəcov, kafedra müdirləri – professorlar Məhərrəm Məmmədov, Cəlil Nağıyev, Mətanət Abdullayeva və Tofiq Hacıyev iştirak ediblər.

Fakültə dekanı Elçin Məmmədov qonaqlara fakültənin tarixi, görkəmli alimləri, tədris və tədqiqat istiqamətləri, o cümlədən son illər həyata keçirilən uğurlu işlərdən söz açıb, Azərbaycanın türk dünyasının mühüm türkoloji mərkəzlərindən biri olduğunu diqqətə çatdırıb. Qonaqlar Sofiya Universitetinin Klassik və müasir filologiya fakültəsi haqqında və türkologiya sahəsindəki tədris və tədqiqatlardan danışıb, öz elmi-pedaqoji fəaliyyətləri barəsində geniş məlumat veriblər. Görüşdə iştirak edən BDU-nun kafedra müdirləri Azərbaycanda və Bolqarıstanda aparılan türkoloji araşdırmalardan, türkologiya dair fənlərin tədrisinin mövcud vəziyyətindən, o cümlədən dil və ədəbiyyatın tədrisi metodikası sahəsində tətbiq olunan yeni təlim üsullarından bəhs ediblər.

Görüşdə qarşılıqlı əməkdaşlığın perspektivləri müzakirə olunub, birgə tədbirlərin keçirilməsi barədə ilkin razılıq əldə edilib.

# BDU Özbəkistanın daha 16 universiteti ilə anlaşma memorandumu və əməkdaşlıq müqaviləsi imzalayıb



***BDU 28-29 may tarixlərində Özbəkistanın Əndican Dövlət Universitetində keçirilən "Azərbaycan–Özbəkistan: ali təhsildə əməkdaşlığın inkişafında prioritet istiqamətlər" mövzusunda Birinci Rektorlar Forumunda təmsil olunub.*** BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahovun iştirak etdiyi forumda Özbəkistanın bir sıra ali təhsil müəssisələri ilə ikitərəfli əlaqələrin qurulması məqsədilə anlaşma memorandumları və əməkdaşlıq müqavilələri imzalanıb.

Forum çərçivəsində BDU ümumilikdə 16 ali təhsil müəssisəsi ilə əməkdaşlıq əlaqələri qurub. BDU ilə Əbu Əli İbn Sina adına Buxara Dövlət Tibb İnstitutu və Mirzə Uluqbəy adına Özbəkistan Milli Universiteti arasında əməkdaşlıq müqaviləsi, Daşkənd Dövlət Aqrar Universiteti, Əndican Dövlət Universiteti, Əndican Dövlət Texniki Universiteti, Navai Dövlət Dağ Mədənçiliyi və Texnologiya Universiteti, Səmərqənd İqtisadiyyat və Servis İnstitutu, Fərqanə Dövlət Universiteti, Kokand Universitetinin Əndican Filialı, Kokand Dövlət Universiteti, Özbəkistan Jurnalistika və Kütləvi Kommunikasiya Universiteti, İnformasiya Texnologiyaları və İdarəetmə Universiteti, Özbək-Fin Pedoqoji İnstitutu, Karşi Dövlət Universiteti, Anıq va İjtımoiy Fanlar Universiteti, Səmərqənd Dövlət Memarlıq və İnşaat Universiteti ilə anlaşma memorandumları imzalanıb.

Sözügedən memorandum və müqavilələr universitetlər arasında geniş spektrli əməkdaşlığı nəzərdə tutur. Memorandum və müqavilələrdə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandum və müqavilələrdə öz əksini tapıb.

# BDU-da Respublika elmi konfransı: "Coğrafiya: qlobal trendlərin kəsişməsində"

***Mayın 21-də Coğrafiya fakültəsində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Coğrafiya: qlobal trendlərin kəsişməsində" mövzusunda tələbə, magistr və gənc tədqiqatçıların Respublika elmi konfransı keçirilib.***

Fakültə Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə keçirilən konfransın açılışında fakültə dekanı, professor Məqsəd Qocamanov müasir dövrdə qlobal dəyişikliklərin coğrafi tədqiqatların aktuallığını artırdığını, bu sahədə ixtisaslı kadrların hazırlanmasının xüsusi əhəmiyyət daşıdığını bildirib. Ümummilli Lider Heydər Əliyevin gənclərə və elmə verdiyi dəyəri vurğulayan dekan konfransın gənc tədqiqatçıların elmi potensialının inkişafına dəstək məqsədi daşıdığını qeyd edib.

Tədbirdə fakültənin müxtəlif kafedralarının nümayəndələri Aydın İbrahimov, Çingiz İsmayılov, Saleh Nağıyev, Şəkər Məmmədova, TEC sədri Fidan Rəcəbova, magistr İmran Bayramov çıxışlarında elmi-texniki tərəqqinin bəşəriyyət qarşısında həlli çətin olan problemlər yaratdığını, bunların içərisində insan və ətraf mühit arasında münasibətlərin əsas yer tutduğunu vurğulayıblar.

Konfransın plenar iclasında fakültə tələbələri Fidan Əhmədova "Sinqapurda azad iqtisadi zonaların yaradılması və fəaliyyətindəki problemlər", Elvina Məmmədova "Zəyəmçayın maksimal axınının tədqiqi", Hökümə Orucova isə "Coğrafiya fənni üzrə olimpiadaların təşkili və onun psixoloji aspektləri" mövzularında çıxış ediblər.

Konfrans öz işini üç bölmə ilə davam etdirib. Sessiyalar zamanı 20-dən çox tələbənin təqdimatı dinlənilib, elmi müzakirələr aparılıb.

# BDU-da süni intellekt dövründə karyera planlanmasına dair təlim

***Mayın 23-də BDU-nun Karyera və Məzunlarla İş Mərkəzi və Tələbə Gənclər Təşkilatının (TGT) Geologiya fakültəsi üzrə üzvlərinin birgə təşkilatçılığı ilə "Süni intellekt dövründə karyera planlanması" mövzusunda interaktiv təlim keçirilib.***

BDU-nun Karyera və Məzunlarla İş Mərkəzinin mütəxəssisi Pərvanə Babayeva süni intellektin qlobal miqyasda əmək bazarına təsiri, rəqəmsal texnologiyaların tətbiqi ilə bəzi peşələrin aradan qalxması və yeni peşə sahələrinin meydana çıxması, insan potensialının süni intellektlə sinxron şəkildə inkişaf etdirilməsinin vacibliyi kimi məsələlərə toxunub. O, belə təlimlərin fərdi bacarıqların inkişaf etdirilməsi, çevik öyrənmə və rəqəmsal savadlılığının artırılmasında önəm kəsb etdiyini deyib.

Daha sonra təlimin debat sessiyası keçirilib. Bu hissədə tələbələr "Süni intellektin karyera yolunda yaratdığı müsbət imkanlar" və "Süni intellektin peşə inkişafına gətirdiyi mənfi təsirlər" mövzularında müzakirə aparıblar. Komandalar arqumentlərini əsaslandıraraq, süni intellektin müxtəlif peşə sahələrinə təsiri, etik və sosial tərəfləri, insan resurslarına ehtiyacın dəyişməsi və yeni bacarıqlara yönəlmə haqqında maraqlı çıxışlar ediblər.

Təlim müddətində tələbələr yalnız nəzəri biliklərlə deyil, real əmək bazarına dair praktiki nümunələrlə də tanış olublar. Onlara CV tərtibatı, müsahibələrə hazırlıq, şəxsi brendin formalaşdırılması yolları da izah edilib.

# BDU-da Materialşünaslıq elmi-tədqiqat laboratoriyasının açılışı olub

***Mayın 29-da BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin nəzdində Materialşünaslıq elmi-tədqiqat laboratoriyasının açılışı olub.***

Açılış mərasimində çıxış edən rektor Elçin Babayev BDU-da son illər elmi-tədqiqat infrastrukturunun möhkəmləndirilməsi, gənclərin elmi tədqiqatlara cəlb edilməsinin genişləndirilməsi ilə bağlı sistemli işlərin görüldüyünü bildirib. O qeyd edib ki, yeni açılan Materialşünaslıq elmi-tədqiqat laboratoriyası da BDU-da kimya sahəsi üzrə aparılan elmi tədqiqatlara öz töhfəsini verəcək, universitet-sənaye əlaqələrini genişləndirəcək.

Materialların hazırlanması və tədqiqi üçün zəruri olan müasir avadanlıqlarla – Almaniya istehsalı "Bruker D8 ENDEAVOR" toz kristallar üçün rentgen difraktometri və bərk maddələr üçün "S6 Jaguar" masaüstü dalğa-dispersiyalı rentgen flüoressent spektrometri (WD XRF) ilə



təchiz edilmiş laboratoriya müxtəlif texnologiyalarla alınmış elmi-tədqiqat materialları, habelə mədən süxurları, tikinti materialları, sənaye tullantıları, neft tullantılarında qum fraksiyalarının və s. element analizi, quruluşunun öyrənilməsi və tədqiqinə imkan verir.

Laboratoriyada istifadə edilən rentgen diffraktometri toz halında olan kristallik quruluşlu maddələrin keyfiyyət (faza analizi) və kəmiyyət tərkibini hesablamağa, maddədəki kristallitlərin ölçülərini, gərginlik və deformasiya dərəcələrini müəyyənləşdirməyə imkan yaradır. "S6 Jaguar" tipli spektrometr bərk maddələrin tərkibində flüordan (F) urana (U) qədər hər hansı elementi ppm-dən 100%-ə qədər konsentrasiya diapazonunda təyin edir. Laboratoriya tədqiqat nümunəsinin hazırlanması üçün zəruri avadanlıqlarla – müxtəlif növ üyüdücülər, nümunə quruducu sobaları, vakuumlu filtrasiya sistemləri, sentrafuqa, nümunə presləyici avadanlıqlar, vibrasiyalı ələklər ilə təchiz edilib. Regionda bir ilk olan bu cür hərtərəfli təchiz edilmiş laboratoriya materialşünaslıq və metallurgiya, geologiya və minerologiya, kimya və nanotexnologiya, inşaat materialları və sement sənayesində müxtəlif işlərin görülməsi, habelə müxtəlif elmi və sifariş əsaslı layihələrin yerinə yetirilməsinə imkan verəcək.

Laboratoriyanın fəaliyyəti üçün Fövqəladə Hallar Nazirliyi tərəfindən xüsusi icazə və müvafiq sertifikatlar alınıb. İşçi personalın təhlükəsizliyinin təmin edilməsi üçün Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən laboratoriya işçilərinə təhkim edilən termolüminessensiya dozimetrlərinin mütəmadi nəzarəti aparılacaq.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Elm və Təhsil Nazirliyinin akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun baş direktoru, akademik Dilqəm Tağıyev, bp-nin vitse-prezidenti Bəxtiyar Aslanbəyli çıxışlarında yeni açılan laboratoriyanın ölkədə elm və təhsillə yanaşı, sənayenin inkişafında böyük əhəmiyyətə malik olduğunu bildiriblər. Çıxışlarda qeyd olunub ki, bu, BDU-da elmi tədqiqatların keyfiyyətinin daha da artırılmasına, elmi işlərin kommersiyalaşdırılmasına da mühüm təsir göstərəcək.

# BDU-da Respublika elmi konfransı: "Müstəqilliyimiz əbədidir, dönməzdir"

***Mayın 27-də BDU və Milli Məclisin Elm və təhsil komitəsinin birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində 28 May – Müstəqillik Günü və Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Müstəqilliyimiz əbədidir, dönməzdir" mövzusunda Respublika elmi konfransı keçirilib.***

*Ümummilli Lider Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə mühüm yeri olan Azərbaycan Xalq Cümhuriyyətinin xidmətlərini hər zaman yüksək qiymətləndirib. Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə İstiqlal bəyannaməsi abidəsi ucadılıb, onun görkəmli siyasi və dövlət xadimlərinin xatirəsi əbədiləşdirilib. 2018-ci ildə Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncam imzalanıb və bu tarixi hadisə münasibətilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunub.*

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun rektoru Elçin Babayev bildirib ki, 107 il bundan əvvəl, 1918-ci ilin may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla müstəqilliyimizi dünyaya bəyan etdi. Fəaliyyət göstərdiyi cəmi iyirmi üç ay ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradıldı, dövlət atributları təsis olundu, sərhədləri müəyyən edildi, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirildi: "Xalq Cümhuriyyəti parlamentinin 1919-cu il 1 sentyabr tarixli qərarı ilə həm də müsəlman Şərqində ilk Avropa tipli universitet – Bakı Dövlət Universiteti yaradılıb. Bakı Dövlət Universitetinin təsis olunması Cümhuriyyət xadimlərinin doğma xalq qarşısındakı çox mühüm tarixi xidmətidir. Azərbaycan Xalq Cümhuriyyəti türk və islam dünyasında ilk parlamentli respublika və ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsidir".

Rektor vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə mühüm yeri olan Azərbaycan Xalq Cümhuriyyətinin xidmətlərini hər zaman



yüksək qiymətləndirib. Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə İstiqlal bəyannaməsi abidəsi ucadılıb, onun görkəmli siyasi və dövlət xadimlərinin xatirəsi əbədiləşdirilib. 2018-ci ildə Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncam imzalanıb və bu tarixi hadisə münasibətilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunub. Bu gün ölkə prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesi müvəffəqiyyətlə davam etdirilir: "2020-ci ildə Vətən müharibəsində şanlı qələbəmizin ən başlıca səbəbi müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası, milli birlik, döyüşçülərimizin qəhrəmanlığı, vətənpərvərliyi, ruh yüksəkliyi idi. Xalqımız uzun illərdən sonra artıq beşinci ildir ki, 28 May – Müstəqillik Gününü torpaqlarımızın işğaldan azad edilməsinin sevinci, Vətən müharibəsi zəfərinin qüruru ilə yaşayır və qeyd edir".

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, BDU-nun kafedra müdiri Anar İsgəndərov "Müsəlman Şərqində ilk Cümhuriyyət" mövzusunda məruzə edib. O, BDU-nun Xalq Cümhuriyyətinin ən böyük yadigarlarından biri olduğunu vurğulayıb. Qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyəti dövründə 350 ilkə imza atıb. Bu ilklər sonralar 70 illik sovet əsarəti dövründə də azərbaycanlıların milli dəyərlərinin və milli kimliklərinin qorunmasına xidmət edib: "Məhz həmin dövrdə "Azərbaycan" adı coğrafi statusla yanaşı, müsəlman Şərqində ilk dəfə yaranan demokratik respublikanın rəsmi adına çevrildi, Azərbaycan dili dövlət dili olaraq təsbit edildi və bütün rəsmi-işgüzar işlər də daxil olmaqla hər şey bu dildə aparıldı. İstiqlal bəyannaməsinin



qəbul edilməsindən sonra orada təsbit edilən ilk parlament fəaliyyətə başladı, Azərbaycanın ərazi bütövlüyünü qorumaq üçün ilk nizami milli ordu yaradıldı, müsəlman Şərqində ilk dəfə qadınlara seçmək və seçilmək hüququ verildi. Bunun kimi digər ilklər müstəqilliyimizin de-fakto tanınmasına səbəb oldu".

Daha sonra Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri Mehriban Vəliyeva, Elnarə Akimova, Elçin Mirzəbəyli, BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti Aydın Məmmədov, İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi Ələvsət Allahverdiyev Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan bugünkü müstəqil, suveren, bütöv və qalib Azərbaycanın dövlətçilik əsasları, milli prioritetləri barədə danışıblar. Çıxışlarda müstəqil Azərbaycanın Xalq Cümhuriyyətinin demokratik ənənələrini uğurla davam etdirdiyi və yeni çalarlarla daha da zənginləşdirdiyi qeyd edilib.

Konfrans bədii hissə ilə davam edib.

# BDU tələbələri “bp Azərbaycan”ın fəaliyyət istiqamətləri barədə məlumatlandırılıb

*Mayın 27-də BDU-da Karyera Festivalı çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyi, bp şirkəti, BDU Tələbə Həmkarlar İttifaqı Komitəsi, Karyera və məzunlarla iş Mərkəzi və "BDU könüllüləri" təşkilatının birgə təşkilatçılığı ilə infosessiya keçirilib.*



İnfosessiyada şirkətin əməkdaşları bp-nin fəaliyyət istiqamətləri, layihələri və gənclər üçün təklif olunan inkişaf imkanları barədə ətraflı təqdimat ediblər. Daha sonra şirkətin insan resursları və karyera imkanları haqda məlumat verilib.

Şirkətin geoloqu Aytən Vəliyeva geologiya elminin insan həyatındakı roluna və xüsusilə təbii sərvətlərin araşdırılması, qorunması sahəsindəki əhəmiyyətinə toxunub. O, çıxışında geoloq peşəsinin perspektivləri, bu sahədə qarşılaşılan əsas çağırışlar və müasir texnologiyaların geologiyada tətbiqi barədə tələbələri məlumatlandırıb.

Şirkətin geoloqu Vüqar İsmayılov geologiyanın inkişaf dinamikası, elmi tədqiqatların geologiyada oynadığı mühüm rol və gənc mütəxəssislərin bu prosesdəki əhəmiyyəti haqqında danışıb. O, innovativ yanaşmaların və müasir elmi metodların tətbiqinin geoloji araşdırmalara gətirdiyi töhfələrdən bəhs edərək, tələbələri bu sahədə daha fəal olmağa çağırıb.

# Qazaxıstanın Almatı Dövlət Universitetinin magistrantları BDU-da elmi təcrübə keçiblər

*Mayın 1-də Qazaxıstanın Almatı Dövlət Universitetinin “İnformatika” ixtisası üzrə magistrantları Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin İnformatika kafedrasında elmi təcrübəyə başlayıblar.*

14 gün çəkən təcrübə müddətində Almatı Dövlət Universitetinin magistrantları Danıyar Aben, Laura Taskul, Asem Suleymanxan, Abdulazizxan Vafayev, Akbota Şaqirova kafedranın dosentləri Sevinc Rəsulova və Nazlı Həsənovanın dərslərində, kafedranın elmi seminarlarında və II kurs magistrantların dissertasiya işlərinin ilkin müzakirələrində iştirak ediblər. Onlar Universitetin tədris-elmi infrastrukturu, Elmi Kitabxanası, muzeyləri, “Eko Məkan”ı ilə də tanış olublar. Sonda Universitet rəhbərliyi tərəfindən qonaqlara sertifikatlar verilib.

# Özbəkistanlı alimlər Filologiya fakültəsində olublar

*Mayın 14-də Özbəkistanın Nəvai Dövlət Universitetinin bir qrup əməkdaşı Filologiya fakültəsinin qonağı olub.*

Nəvai Dövlət Universitetinin Praktik ingilis dili kafedrasının müdiri Dilfuza Qafurova, kafedranın dosenti Dilnoza İstamova, baş müəllimi Məmurə Burhanova Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının fəaliyyəti ilə tanış olub, fikir mübadiləsi aparıblar.

Kafedra müdiri, professor Mətanət Abdullayeva müəllim hazırlığında təhsil alan tələbələrə elmi biliklərin verilməsi ilə yanaşı, mənəviyyat məsələlərinin də öyrədilməsinin zərurətindən danışıb.

Görüşdə Humanitar elmlər üzrə ingilis dili kafedrasının müdiri, dosent Bəylər Hacıyev və kafedranın professoru Əfqan Abdullayev, Rus dilçiliyi kafedrasının müdiri, dosent Elvira Heydərova, Filologiya fakültəsinin dekan müavini Anar Fərəcov iştirak ediblər. Görüş zamanı qarşılıqlı elmi əməkdaşlıq, birgə dərsliklərin hazırlanması və məqalələrin yazılması ilə bağlı müzakirələr aparılıb.

# BDU-da infosessiya: “Karyera xəritəsi necə hazırlanmalıdır?”

*Mayın 27-də BDU-da Karyera Festivalı çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin, BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin, Karyera və məzunlarla iş Mərkəzinin və "BDU könüllüləri" təşkilatının birgə təşkilatçılığı ilə "Karyera xəritəsi necə hazırlanmalıdır?" mövzusunda infosessiya keçirilib.*



Dövlət Məşğulluq Agentliyinin mütəxəssisi Aytən Rəşidli tələbələrə karyera planlamasının mərhələləri, fərdi bacarıq və maraqlara əsaslanaraq məqsədə çatma yolları, hədəflərin reallığa uyğun qurulması və inkişaf strategiyalarının müəyyənləşdirilməsi ilə bağlı ətraflı məlumat verilib.

Sessiyada karyera xəritəsinin təkcə peşə seçimi deyil, həm də uzunmüddətli şəxsi və peşəkar inkişaf üçün yol xəritəsi olduğunu vurğulanıb. Qısa, orta və uzunmüddətli planların hazırlanması, rəqəmsal alət və resurslardan – karyera planlaşdırma platformaları, CV generatorları, interaktiv testlər və peşə yönümlü kurslardan faydalanma yolları barədə praktiki nümunələr təqdim olunub.

Sessiyanın sonunda tələbələrin sualları cavablandırılıb, real nümunələr əsasında interaktiv müzakirələr aparılıb və iştirakçılara faydalı tövsiyələr verilib.

# BDU tələbələri "FICS 2025" startap müsabiqəsinin qalibi olub



***Bakı Dövlət Universitetinin (BDU) "BDU TETYM" komandası "FICS 2025" startap müsabiqəsində III yerə layiq görülərək, bu ilin avqust ayında Pakistan İslam Respublikasında keçiriləcək böyük finala vəsiqə qazanıb.***

Qeyd edək ki, mayın 27-də Azərbaycan Texniki Universiteti və Pakistanın Milli Elm və Texnologiya Universitetinin birgə təşkilatçılığı ilə “İnnovativ və yaradıcı həllərin tapılması” adlı beynəlxalq startap müsabiqəsinin ilkin mərhələsi keçirilib. Beynəxalq müsabiqədə ölkəmizin 21 ali təhsil müəssisəsindən 60 komanda, Qazaxıstanın 1 universitetindən isə 2 komanda iştirak edib.

FICS (Finding Innovative & Creative Solutions) Pakistan İslam Respublikasında 2013-cü ildən etibarən hər il keçirilən ən böyük startap müsabiqəsidir.

# BDU-da elmi seminar: “Kitabxana-biblioqrafiya resursları: müasir meyllər və çağırışlar”

***Mayın 27-də İnformasiya və sənəd menecmenti fakültəsində “Kitabxana-biblioqrafiya resursları: müasir meyillər və çağırışlar” mövzusunda elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Sənəd menecmenti kafedrasının müdiri, dosent Nadir İsmayılov məruzə edib.***

Nadir İsmayılov informasiya cəmiyyətində kitabxana-biblioqrafiya resurslarının strateji rol oynadığını və bu resursların elmi tədqiqat, təhsil, innovasiya sahələrində əvəzolunmaz informasiya bazası olduğunu diqqətə çatdırıb. Məruzədə qloballaşma və rəqəmsallaşma dövründə kitabxana-biblioqrafiya resurslarının inkişaf dinamikası, yeni texnologiyaların informasiya infrastrukturuna təsiri, informasiya təhlükəsizliyi, ənənəvi resursların elektron platformalara inteqrasiyası, istifadəçi yönümlü xidmətlərin inkişaf etdirilməsi kimi problemlər tədqiqata cəlb olunub.

Məruzəçi Azərbaycan Respublikasında kitabxana-biblioqrafiya resurslarının yerləşməsi, paylanması və menecmenti ilə bağlı statistik məlumatları ölkə kitabxanalarının iş təcrübəsi əsasında təqdim edib, bir sıra müqayisəli təhlillər aparıb. Məruzədə ölkəmizdə bu istiqamətdə həyata keçirilən dövlət siyasəti, kitabxana-informasiya fəaliyyəti sahəsində aparılan islahatların məzmunu barədə də dolğun məlumatlar verilib.

Sonda iştirakçıların sualları cavablandırılıb.

# BDU-da əmək bazarında yeni çağırışlara dair “workshop”

*Mayın 27-də BDU Karyera Festivalı çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyi, BDU Tələbə Həmkarlar İttifaqı Komitəsi, Karyera və məzunlarla iş Mərkəzi və "BDU könüllüləri" təşkilatının birgə təşkilatçılığı ilə “Əmək bazarında yeni çağırışlar” adlı “workshop” keçirilib.* Dövlət Məşğulluq Agentliyinin Mərkəzi karyera filialının aparıcı mütəxəssisi Sura Əzizli əmək bazarındakı müasir tendensiyalar, yeni çağırışlar, gənclərin məşğulluq imkanları və bu istiqamətdə dövlətin həyata keçirdiyi proqramlar haqqında məlumat verib. İnfosessiyada gənclərin əmək bazarına uğurla daxil ola bilmələri üçün zəruri olan bacarıqlar, təcrübə proqramları, könüllülük fəaliyyəti və karyera planlamasının vacibliyi vurğulanıb.

Sessiyanın sonunda tələbələr tərəfindən ünvanlanan suallar cavablandırılıb.

# BDU-da Vətən müharibəsi şəhidi, polkovnik-leytenant Nail Orucovun xatirəsi anılıb

***Mayın 23-də Sosial elmlər və psixologiya fakültəsinin təşkilatçılığı ilə Vətən müharibəsi şəhidi, polkovnik-leytenant Nail Orucovun xatirəsinə həsr olunmuş “Biz səni yaşadacağıq!” adlı anım tədbiri keçirilib.***



Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sosial elmlər və psixologiya kafedrasının dekanı Rövşən Cavadov Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edən Nail Orucovun keçdiyi şanlı döyüş yolu haqqında məlumat verib. Bildirib ki, 2020-ci il oktyabrın 31-də Qubadlı döyüşləri zamanı şəhid olan polkovnik-leytenant Nail Orucov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, “Azərbaycan Bayrağı” ordeni, “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə” medalları ilə təltif edilib. BDU şəhid məzunlarının xatirəsini həmişə uca tutur, onların qəhrəmanlıqlarının tələbələrə aşılanması istiqamətində tədbirlər həyata keçirir. Həmçinin, onların ailələrini daim diqqətdə saxlayır, dəstək göstərir.

Sosiologiya kafedrasının məsləhətçi professoru, Azərbaycanın Milli Qəhrəmanı Məzahir Rüstəmovun atası İzzət Rüstəmov ərazi bütövlüyümüz uğrunda canından keçən qəhrəman övladlarımızın həyat yolunun örnəyə çevrildiyini deyib, gəncləri Vətəni onlar kimi sevməyə, qorumağa səsləyib.

Şəhidin döyüş yoldaşı Zamiq Qasımov polkovnik-leytenant ilə bağlı xatirələrini bölüşüb, onun tabeliyində olan əsgərlərinə öz övladları kimi qayğı göstərdiyini, qəhrəmancasına həlak olduğunu qeyd edib.

BDU-nun Sosiologiya kafedrasının müdiri Rəfail Həsənov, kafedranın professoru Kazım Əzimov çıxışlarında gənc nəslin vətənpərvərlik ruhunda böyüməsi üçün bu cür tədbirlərin böyük əhəmiyyət kəsb etdiyini qeyd ediblər.

Şəhidin övladları Nail Orucovun adını daim uca tutacaqlarına, atalarının yolunu şərəflə davam etdirərək, onun arzularını həyata keçirəcəklərinə söz veriblər.

Nail Orucovun həyat yoldaşı Nigar Ağamalıyeva həyat yoldaşının xatirəsinə həsr olunmuş tədbirin keçirilməsinə görə BDU-nun və fakültənin rəhbərliyinə təşəkkür edib.

Sonda Vətən müharibəsi şəhidi, polkovnik-leytenant Nail Orucovun həyatından bəhs edən videoçarx izlənilib.

Qeyd edək ki, Vətən müharibəsi şəhidi, polkovnik-leytenant Nail Orucovun həyat yoldaşı Nigar Ağamalıyeva BDU-nun Filologiya fakültəsində qiyabi təhsil alır, hazırda II kurs tələbəsidir. BDU rektorunun əmri ilə o, BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin Sosiologiya kafedrasında laborant vəzifəsinə təyin olunub.

# BDU-da Vətən müharibəsinə həsr olunmuş bədii əsərlərin nəşri ilə bağlı təhlillər aparılır

***Mayın 23-də İnformasiya və sənəd menecmenti fakültəsində “Vətən müharibəsinə həsr olunmuş bədii əsərlərin nəşri” mövzusunda elmi seminar keçirilib. Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş soydaşlarımızın unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb.***

Sonra BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının doktorantı Afaq Məmmədova mövzu üzrə məruzə edib. Gənc tədqiqatçı bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərlə başa çatan Vətən müharibəsi, eləcə də Qarabağda aparılmış birgünlük antiterror əməliyyatları nəticəsində ölkəmizin suverenliyinin bərpasından sonra müharibə və postmüharibə dövründə baş verən proseslər, dövlətimizin bu sahədəki siyasəti, Qarabağın tarixi, mədəniyyəti, elm, təhsil mühiti yeni elmi araşdırmaların, tədqiqat işlərinin mövzusu kimi xüsusi aktuallıq kəsb edir: “Vətən müharibəsinə həsr olunmuş bədii əsərlər, onların mövzu dairəsi, ədəbi-bədii, ictimai əhəmiyyəti ciddi şəkildə tədqiq olunmalıdır. Çünki Vətən müharibəsindəki parlaq qələbəmiz ədəbiyyatımıza yeni çalarlar gətirib, yeni mövzuların, obrazlar sisteminin formalaşmasına zəmin yaradıb. Xüsusilə, Şuşa şəhərində Vaqif Poeziya Günlərinin keçirilməsi ənənəsinin bərpası bu istiqamətdə olduqca mühüm addımdır”.

Araşdırmada tarixi Zəfərdən keçən beş il ərzində ölkəmizin aparıcı nəşriyyatları tərəfindən mövzuya dair nəşr olunmuş kitablar təhlil olunub. Torpaqlarımızın azadlığı, dövlətimizin suverenliyi uğrunda şəhid olmuş soydaşlarımıza, qazilərimizə, eyni zamanda müharibələrin sosial-fəlsəfi mahiyyətinə həsr olunmuş bədii ədəbiyyat nümunələrinin yer aldığı kitab və toplular analiz edilib. Ötən dövr ərzində ölkə nəşriyyatlarının Vətən müharibəsi mövzusunda çap etdirdiyi kitablar ad və tiraj göstəriciləri üzrə təqdim olunub. Bu əsərlərin Vətən müharibəsində xalqımızın şücaətinin, yenilməzliyinin əbədiləşdirilməsi, gənclərdə vətənpərvərlik ruhunun formalaşdırılması, həmçinin müharibələrin sosial-fəlsəfi mahiyyətinin izahı, davamlı sülhə və rifaha çağırış missiyası baxımından əhəmiyyəti vurğulanıb.

Elmi seminar müzakirələrlə davam etdirilib.

# BDU ilə Qırğızıstan universitetləri arasında əməkdaşlıq imkanları müzakirə olunub

***BDU-nun rektorunun rəqəmsallaşma və informasiya texnologiyaları üzrə müşaviri Şəbnəm Səfərova 2025-ci ilin may ayında Qırğız Respublikasının Bişkek şəhərində ezamiyyətdə olub. Səfər çərçivəsində Qırğızıstanın bir sıra nüfuzlu ali təhsil müəssisələrinin rəhbərliyi ilə görüşlər keçirilib, universitetlərarası əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.***

Ezamiyyətin məqsədi ali təhsil müəssisələrinin fəaliyyəti ilə tanışlıq, rəqəmsallaşma və avtomatlaşdırma sahəsində təcrübə mübadiləsi, beynəlxalq reytinqlərdə iştirakla bağlı fikir mübadiləsi, ikili diplom proqramları və tələbə-müəllim mübadiləsi imkanlarının araşdırılmasıdır.

Görüşlərdə Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin nümayəndəsi Yuliya Sivaldayeva da iştirak edib.

Səfər zamanı Qırğızıstanın Beynəlxalq İnnovasiya Texnologiyaları Universiteti, İ.Arabaev adına Qırğız Dövlət Universiteti, K.Skryabin adına Qırğız Milli Aqrar Universiteti, İ.K.Axunbaev adına Qırğız Dövlət Tibb Akademiyası, Qırğız-Türk “Manas” Universiteti, J.Balasagin adına Qırğız Milli Universiteti, I.Razzakov adına Qırğız Dövlət Texniki Universiteti və K.Karasaev adına Bişkek Dövlət Universitetində rəsmi görüşlər keçirilib.

Görüşlərdə rəqəmsal transformasiya təcrübələri, ortaq elmi-tədqiqat layihələrinin təşkili, birgə tədris proqramları, yay məktəbləri, ikili diplom proqramları, elmin müxtəlif sahələri üzrə birgə tədqiqat və nəşr imkanları, eləcə də beynəlxalq və milli reytinq meyarları sahəsində təcrübə mübadiləsi məsələləri müzakirə olunub.

Ezamiyyət nəticəsində əldə olunan ilkin razılaşmalar BDU ilə Qırğızıstan universitetləri arasında gələcək əməkdaşlığın möhkəmləndirilməsi və qarşılıqlı elmi-akademik mühitin inkişafı üçün möhkəm zəmin yaradır

# Mən şəhidəm!

Vətənimin ayağına dəyən daşı,
Mən üyüdüb, külün göyə sovurmuşam!
Alov olub atəşimlə mən birbaşa,
Düşmənlərin sinəsinə sancılmışam.

Çıxıb Şuşa dağlarına mən əliboş,
Dişlərimlə düşmənləri parçaladım,
Dırnağımla namərdləri cırmaqladım,
Qisas aldım! Mən boş əllə qalib gəldim!

Mən Şəhidəm!
Mən alovam, mən atəşəm!
Düşmənlərin sinəsinin qılıncıyam.
Mən Şəhidəm!
Vətənimə qürur ilə xidmət etdim!
Mən can verdim, Şəhid oldum!

Mən Şəhidəm!
El-obamın ürəyində qalıb izim!
Mən Şəhidəm!
Dastanlara, nağıllara dönüb izim!
Mən Şəhidəm!
Vətənimin torpağında yatır izim!
Mən Şəhidəm!
Mən igidəm, kainatda qalıb izim!

***İradə Dadaşova***
*Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dosenti*

# BDU tələbələri Heydər Əliyev Muzeyini ziyarət ediblər



***Mayın 21-də İnformasiya və sənəd menecmenti fakültəsinin III kurs tələbələri Universitetin Heydər Əliyev Muzeyini ziyarət ediblər.***

Muzeyin mütəxəssisi Afət Seyidzadə 1997-ci ildən Ulu Öndər Heydər Əliyevin şəxsi razılığı ilə Universitetdə fəaliyyətə başlayan Muzey haqqında tələbələrə ətraflı məlumat verib. Bildirib ki, Heydər Əliyev Muzeyi Ümummilli Liderin zəngin irsinin təbliği və öyrənilməsində mühüm əhəmiyyətə malikdir.

Muzeydə BDU-nun dünya şöhrətli məzunu və fəxri doktoru, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Ümummilli Lider Heydər Əliyevin həyatının müxtəlif dövrlərini əks etdirən sənədlər nümayiş olunur.

Ulu Öndər Heydər Əliyevin mənalı ömrünün, xalqımızın və dövlətimizin rifahına həsr olunmuş həyatının ayrı-ayrı məqamlarından bəhs edən sənədlər və fotoşəkillər tələbələrdə böyük təəssürat yaradıb.

# Miçiqan Dövlət və İstanbul Boğaziçi universitetlərinin alimləri BDU-da ustad dərsi keçiblər

***Mayın 1-də Sosial elmlər və psixologiya fakültəsinin Fəlsəfə kafedrasının təşəbbüsü ilə Miçiqan Dövlət Universitetinin professoru Douglas K.Hartman, İstanbul Boğaziçi Universitetinin Təhsil fakültəsinin dekanı, doktor Dilək Altun "Universitet müəllimlərinə səlahiyyət verən süni intellektlə təkmilləşdirilmiş peşəkar inkişafın layihələndirilməsi" mövzusunda "Fəlsəfə" ixtisasında təhsil alan tələbələr üçün ustad dərsi keçiblər.***




Professor Douglas K.Hartman çıxışında süni intellekt texnologiyalarının təhsil sahəsində tətbiqinin müasir dövrdə əsaslı dəyişikliklərə səbəb olduğunu vurğulayıb. O bildirib ki, bu texnologiyalar təhsilin keyfiyyətini artırmaq və təlim prosesini inkişaf etdirmək üçün geniş imkanlar yaradır. Miçiqan Dövlət Universitetində tələbələrin dərs prosesində ChatGPT və digər süni intellekt proqramlarından istifadə etdiklərini qeyd edən professor tələbələrin bu vasitələrlə qarşılıqlı əlaqədə olarkən əldə etdikləri nəticələri qiymətləndirdiklərini bildirib. Süni intellektin, xüsusilə də ChatGPT və digər modellərin tələbələrin müzakirələrini faktların dəqiqliyi, mövzunun dərindən mənimsənilməsi, terminologiyanın düzgün istifadəsi, dinləmə bacarıqları və konstruktiv mübahisə kimi əsas parametrlər üzrə qiymətləndirməyə imkan verdiyini əlavə edib.

Dilək Altun isə çıxışında süni intellektin məktəbəqədər və məktəb yaşlı uşaqlarda yaratdığı müsbət və mənfi təsirlərdən danışıb. O, bəzi oyun proqramlarının uşaqlarda müsbət cəhətlər formalaşdırdığını qeyd edərək, oyunların seçimində yaş həddinin nəzərə alınmasının vacib olduğunu vurğulayıb. Dilək Altun həmçinin kiçik yaşlı uşaqlarda elektron və səsli kitablara marağın artdığını, bu səbəbdən valideynlərin kitab janrlarını düzgün seçməsinin əhəmiyyətli olduğunu diqqətə çatdırıb.

Mühazirəçilər süni intellektin təhsil sisteminə tətbiqinin tədris prosesini əsaslı şəkildə dəyişdirdiyini vurğulayıblar. Bu dəyişikliklərə uyğunlaşmaq və təhsil sistemini inkişaf etdirmək üçün təhsil siyasətlərinin yenidən nəzərdən keçirilməsi və müəllimlərin peşəkar inkişafının önəmi qeyd olunub. Süni intellektin düzgün tətbiqi təhsildə daha effektiv, əhatəli və maraqlı imkanların yaranmasına səbəb ola bilər.

Sonda mühazirəçilər tələbələrin suallarını cavablandırıblar.

# Əqli Mülkiyyət Agentliyinin kitabxanasının direktoru BDU-da ustad dərsi keçib

***Mayın 7-də İnformasiya və sənəd menecmenti fakültəsində professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə "Elmi-texniki kitabxanalarda informasiya fəaliyyətinin menecmenti" mövzusunda ustad dərsi keçirilib. Ustad dərsində Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının direktoru Mübariz Məmmədli məruzə edib.***

Mübariz Məmmədli kitabxana-informasiya fəaliyyətinin menecmenti sahəsində baş verən dəyişikliklər, meydana çıxan yeni paradiqmalar barədə məlumatları diqqətə çatdırıb. Bildirib ki, müasir çağırışlara uyğun olaraq bu istiqamətdə müəyyənləşdirilmiş prioritetlər kitabxana resurslarının idarə edilməsi, sənəd menecmenti, informasiya logistikası, müəlliflik hüquqları və əlaqəli hüquqlar kimi sahələrə bir sıra yeniliklər gətirib.

Məruzədə xüsusi oxucu kontingentinə malik elmi-texniki kitabxanaların fəaliyyətinin spesifikasından, tətbiq olunan iş metodlarından bəhs edilib: "Bu kitabxanalar nazirliklərə, şirkətlərə, idarə və müəssisələrə, elmi tədqiqat və layihə institutlarına, elm və texnika sahəsində tədqiqat aparan ayrı-ayrı şəxslərə, ali məktəb tələbələrinə kitabxana-informasiya xidməti göstərir".

Mübariz Məmmədli həmçinin rəhbərlik etdiyi kitabxananın strukturu, sənəd dövriyyəsi, kitab fondu, komplektləşdirmə mənbələri və prioritetləri barədə məlumatları diqqətə çatdırıb.

İnteraktiv müzakirə şəraitində keçən dərs zamanı bir sıra təqdimatlar nümayiş etdirilib, informasiya menecmentinin müasir tendensiyaları barədə fikir mübadiləsi aparılıb.

# BDU-da təlim: "İmtahan stresinin idarə olunması"

***Mayın 26-da BDU-da Psixoloji yardım sektorunun (PYS) təşkilatçılığı ilə "İmtahan stresinin idarə olunması" mövzusunda təlim təşkil olunub.***

Təlimdə universitetin bütün fakültələrindən tələbələr iştirak ediblər. PYS-nin psixoloqu Vasif Bəşirov tələbələrə "İmtahan stresinin səviyyəsinin ölçülməsi" testini təqdim edərək, onların stres səviyyəsini müəyyən edib. Daha sonra stresin həyatımızdakı rolu, stres reaksiyaları və imtahan stresinin əlamətləri barədə geniş məlumat verilib.

Qeyd olunub ki, stres – insanın daxili və xarici mühitdən gələn müxtəlif tələblərə verdiyi adaptasiya reaksiyasıdır. Həyatın ayrılmaz hissəsi olan stres müəyyən səviyyədə insanın diqqətini artırır, iş qabiliyyətini yüksəldir və motivasiyanı gücləndirir. Lakin uzun müddət davam edən və ya həddindən artıq stres orqanizmin fiziki və psixoloji sağlamlığına mənfi təsir göstərə bilər.

İmtahandan qabaq stres xüsusilə tələbələr arasında geniş yayılmış problemdir. Bu stresin əsas əlamətləri arasında yuxu pozuntuları, diqqət azlığı, yaddaş zəifliyi, əsəbilik, ürək döyüntüsünün sürətlənməsi və hətta mədə-bağırsaq narahatlıqları qeyd olunub. Psixoloq Vasif Bəşirov streslə mübarizədə fərdi strategiyaların, o cümlədən düzgün nəfəs alma texnikalarının, vaxtın səmərəli idarə olunmasının və müsbət düşüncə tərzinin vacib olduğunu vurğulayıb.

# BDU-nun kafedra müdiri Naxçıvan Dövlət Universitetinin tələbələrinə ustad dərsi keçib

***Mayın 2-də İnformasiya və sənəd menecmenti fakültəsinin Sənəd menecmenti kafedrasının müdiri Nadir İsmayılov Naxçıvan Dövlət Universitetinin (NDU) Tarix-filologiya fakültəsinin "Kitabxanaçılıq və informasiya fəaliyyəti" ixtisası üzrə təhsil alan tələbələrinə "Biblioqrafiyaşünaslıq: quruluşu və tərkib hissələri" mövzusunda ustad dərsi keçib.***

NDU-nun Tarix-filologiya fakültəsinin dekanı, dosent Arif Ağalarov BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsi ilə müxtəlif platformalarda həyata keçirilən əməkdaşlıqdan bəhs edib. Təşkil olunan ustad dərsinin tələbələrin sahə üzrə nəzəri biliklərini genişləndirmək, informasiya və sənəd menecmentinə dair paradiqmaları öyrənmək baxımından əhəmiyyətini vurğulayıb.

Sonra BDU-nun Sənəd menecmenti kafedrasının müdiri Nadir İsmayılov mövzu üzrə məruzə edib. Natiq biblioqrafiyaşünaslığın elmi tərifini diqqətə çatdırıb, onun strukturu, formalaşma mərhələləri və tərkib hissələri kimi mühüm istiqamətləri şərh edib. Bildirib ki, biblioqrafiyaşünaslıq yalnız nəşrlərin siyahıya alınması funksiyasını yerinə yetirmir, eyni zamanda elmi informasiya axınlarının idarə olunmasında mühüm əhəmiyyət daşıyan nəzəri və metodoloji baza rolunu oynayır. Mühazirədə biblioqrafiyanın növləri, təsnifat sistemləri, sahəvi biblioqrafik göstəricilər, referativ və annotasiyalı biblioqrafiyalar, biblioqrafik vəsaitlərin hazırlanması qaydaları, rəqəmsal mühitdə biblioqrafik fəaliyyətin təşkili kimi məsələlər geniş şəkildə şərh olunub. Müasir texnologiyaların biblioqrafik fəaliyyətə təsiri, eyni zamanda bu sahədə olan beynəlxalq təcrübə barədə məlumatlar diqqətə çatdırılıb.

Məruzədə həmçinin mövcud sahə üzrə kadr hazırlığının tarixi, müasir vəziyyəti və gələcəyinə dair innovativ elmi paradiqmalar təhlil edilib. Qlobal informasiya mühitinin formalaşması şəraitində sahə üzrə kadr hazırlığına verilən tələblər, əmək bazarının rəqabətədavamlı mütəxəssislərlə təminatı sahəsində qarşıda duran vəzifələr konseptual şəkildə izah olunub.

Ustad dərsi interaktiv diskussiya şəklində davam edib, tələbələrin rəyləri, sualları əsasında fikir mübadiləsi aparılıb.

# Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktor müavini BDU-da ustad dərsi keçib

***Mayın 2-də Ekologiya və torpaqşünaslıq fakültəsində Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktor müavini Fəqan Abdurəhmanov "Bərpa olunan enerji mənbələri və Azərbaycanda yaşıl enerjinin inkişafı: mövcud vəziyyət və gələcək perspektivlər" mövzusunda ustad dərsi keçib.***



Fakültə dekanı, dosent Akif Ağbabalı bu cür maarifləndirici tədbirlərin tələbələrin bilik və bacarıqlarının artırılmasında, gələcək karyera seçimlərində əhəmiyyətli rol oynadığını vurğulayıb. O, məruzəçiyə və nümayəndə heyətinə təşəkkürünü bildirərək, tələbələrin gələcəkdə Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin müvafiq strukturlarında istehsalat təcrübəsi keçmələrinin və təcrübə mübadilə proqramlarında iştirak etmələrinin əhəmiyyətini qeyd edib.

Məruzəçi Fəqan Abdurəhmanov yaşıl enerjinin ətraf mühitin mühafizəsində oynadığı roldan bəhs edərək, ölkəmizdə xüsusilə perspektivli hesab olunan külək və günəş enerjisi sahələrində həyata keçirilən layihələr, onların istehsal mexanizmləri və iqtisadi səmərəliliyi barədə ətraflı məlumat verib. O, həmçinin Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə üzrə cari vəziyyəti, quraşdırılmış külək və günəş elektrik stansiyalarının gücü və gələcək layihələr haqqında iştirakçılara geniş informasiya təqdim edib.

Sonda tələbələrin sualları cavablandırılıb.

# BDU-da idman turnirinin bağlanış mərasimi



***Mayın 3-də BDU-da Tələbə Həmkarlar İttifaqı Komitəsi və İdman-sağlamlıq Mərkəzinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü və "Konstitusiya və Suverenlik İli" nə həsr olunmuş idman turnirinin bağlanış mərasimi keçirilib.***

Rəsmi hissədən əvvəl idman yarışları çərçivəsində fakültələrarası futbol turnirində III yerin sahibi müəyyənləşib və final oyunu keçirilib. Oyunların nəticələrinə görə, Ekologiya və torpaqşünaslıq fakültəsi Fizika fakültəsinə qalib gələrək, turnirdə III yeri tutub. Finalda isə Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi Tarix fakültəsinə qalib gəlib.

Daha sonra bağlanış mərasimi keçirilib. Əvvəlcə Dövlət himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev qeyd edib ki, Azərbaycan xalqı Ümummilli Lider, müstəqil dövlətimizin memarı və qurucusu, BDU-nun dünya şöhrətli məzunu Heydər Əliyevin anadan olmasının 102-cü ildönümünü böyük sevinc və ehtiramla qarşılayır. Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra gənclər, idman, elm və təhsil siyasəti dövlətin əsas prioritetləri sırasına daxil edilib. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan gəncləri həm təhsil, həm idman sahəsində bütün dünyada öz uğurları ilə seçilirlər. Prorektor çıxışında BDU komandalarının ölkədaxili yarışlarda müxtəlif idman sahələrində əldə etdiyi nailiyyətlərdən bəhs edib.

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi sədrinin birinci müavini Tehranağa Abdullayev və BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Zöhrab Cavadzadə müxtəlif idman növləri üzrə keçirilən yarışlarda uğur qazanan komandaları təbrik ediblər.

Sonda idman yarışlarının qalibləri elan edilib. Qaliblər kubok və medallarla təltif olunublar.

Qeyd edək ki, idman turnirində 5 idman növü üzrə 300-dək tələbə iştirak edib.

# BDU-da ali təhsildə keyfiyyət təminatı üzrə təlim proqramı uğurla tamamlanıb

***Mayın 8-də BDU-da "Ali təhsildə keyfiyyət təminatı sistemi" mövzusunda təşkil olunmuş dörd günlük təlim proqramı uğurla başa çatıb. Təlim proqramı BDU ilə Türkiyənin Kırşehir Ahi Evran Universiteti arasında imzalanmış əməkdaşlıq haqqında anlaşma memorandumu çərçivəsində, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) dəstəyi və BDU-nun Keyfiyyət Təminatı Mərkəzinin təşkilatçılığı ilə həyata keçirilib.***

Təlimlərə BDU ilə yanaşı, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti, Xəzər Universiteti və Gəncə Dövlət Universitetinin nümayəndələri də qatılıb. Təlim zamanı ali təhsildə keyfiyyət təminatı sistemlərinin qurulması və inkişaf etdirilməsi mövzularında təqdimatlar edilib və müzakirələr aparılıb.

BDU rektorunun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov təlimdə çıxış edərək, ali təhsil müəssisələrində keyfiyyət təminatı sistemlərinə dair müqayisəli təhlil təqdim edib və effektiv, dayanıqlı sistemlərin qurulmasının vacibliyini vurğulayıb.

Kırşehir Ahi Evran Universitetinin prorektoru Hüseyn Şimşek isə Azərbaycan və Türkiyə arasında ali təhsil sahəsində təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edərək, bu təşəbbüsün strateji tərəfdaşlıq baxımından mühüm rol oynadığını bildirib. Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin Bakı Proqram Ofisinin koordinator müavini Kürşat Özdemir də bu cür təşəbbüslərin ikitərəfli münasibətlərin inkişafına töhfə verdiyini diqqətə çatdırıb.

Təlim proqramının sonunda iştirakçılara sertifikatlar təqdim olunub. Bu təşəbbüs Azərbaycan və Türkiyə arasında ali təhsil sahəsində strateji tərəfdaşlığın gücləndirilməsi, keyfiyyət təminatı sahəsində davamlı inkişafın dəstəklənməsi və təcrübə mübadiləsinin genişləndirilməsi baxımından əhəmiyyətlidir.

# Rumıniyanın Yassı Universitetinin Azərbaycan Multikulturalizm Mərkəzinin rəhbəri ilə onlayn görüş

***Mayın 13-də Biologiya fakültəsində Rumıniyanın Yassi Universitetində fəaliyyət göstərən Azərbaycan Multikulturalizm Mərkəzinin sədri Lyudmila Bejenaru ilə onlayn görüş keçirilib.***

Fakültə dekanı Afət Məmmədova Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) yaradılmasının əhəmiyyəti və multikultural dəyərlərin təşviqindəki rolu haqqında ətraflı məlumat verib. O qeyd edib ki, Prezident İlham Əliyevin "Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq" təşəbbüsü istiqamətində BBMM-in apardığı ardıcıl və məqsədyönlü iş öz yüksək nəticəsini verməkdədir. Artıq xarici universitetlərdə "Azərbaycan multikulturalizmi" fənninin tədrisi daha geniş coğrafiyanı əhatə etməklə bərabər, öz təsir dairəsi və gücünü də artırmaqdadır.

Ardınca çıxış edən Lyudmila Bejenaru rəhbərlik etdiyi Mərkəzin fəaliyyəti barədə geniş məruzə edib. O diqqətə çatdırıb ki, qloballaşan dünyada Rumıniya və Azərbaycan respublikaları dost ölkələr və yaxın iqtisadi tərəfdaşlar hesab olunurlar. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin Prezident seçilməsi ilə Azərbaycan ilə Rumıniya arasında ikitərəfli münasibətlər yeni mərhələyə yüksəlib. Lyudmila Bejenaru Yassı Universitetində Azərbaycan Multikulturalizm Mərkəzinin fəaliyyətindən, universitetdə "Azərbaycan multikulturalizmi" fənninin tədrisindən bəhs edib. O qeyd edib ki, fənnin tədrisi zamanı Azərbaycanın UNESCO-nun siyahısına salınmış tarixi yerləri, maddi-mədəniyyət nümunələri haqqında tələbələrə mühazirələr oxunur. Mərkəzin fəaliyyətində Qarabağ şəhidlərinə həsr olunmuş tədbirlər, eləcə də Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində işlər yer alır.

# BDU-da "Məzunla görüş"



***Mayın 1-də BDU-nun Karyera və Məzunlarla İş Mərkəzinin təşkilatçılığı ilə "Məzunla görüş" layihəsinin "Gələcəyə doğru Yüksəliş" mövzusunda növbəti görüşü keçirilib. Tədbirdə BDU məzunları və "Yüksəliş" müsabiqəsinin qalibləri Səbuhi Göyüşov, Leyla Xəlilova Rzazadə və Nicat Qocayev iştirak ediblər.***

Karyera və Məzunlarla İş Mərkəzinin Karyera planlaşdırılması şöbəsinin müdiri Günel Qurbanova layihənin Universitet məzunları ilə tələbələr arasında əlaqə yaratmaq, uğurlu karyera yolu keçmiş məzunların bilik və təcrübəsini tələbələrlə bölüşmək və onların gələcək inkişaflarına dəstək məqsədini daşıdığını vurğulayıb.

Tədbir zamanı I "Yüksəliş" müsabiqəsinin qalibi, Elm və Təhsil Nazirliyinin Strateji planlaşdırma və təhlil şöbəsinin müdiri Leyla Xəlilova Rzazadə "Dövlət idarəetməsində yeni baxış: Gənclərin yüksəlişi" mövzusunda təqdimat edib. IV "Yüksəliş" müsabiqəsinin qalibi və "Paşa Həyat Sığorta" ASC-nin Hüquq departamentinin direktoru Səbuhi Göyüşov "Uğurlu komanda strategiyaları", İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi öhdəliklərinin icrasına nəzarət şöbəsinin rəisi Nicat Qocayev isə "Dəyişikliklər içində yüksəlmək" mövzusunda çıxış ediblər. Spikerlər şəxsi təcrübələrini, karyera qərarlarını və "Yüksəliş" müsabiqəsində qazandıqları uğurları tədbir iştirakçıları ilə bölüşüblər.

Tədbirin sonunda tələbələrin sualları ilə bağlı panel müzakirə keçirilib.

# Geologiya fakültəsinin tələbələri "Azerbaijan International Mining Company"də istehsalat təcrübəsində



***Mayın 8-də Geologiya fakültəsinin IV kurs tələbələri "Azerbaijan International Mining Company" şirkətinin mədənlərində istehsalat təcrübəsi keçirlər.***

Təcrübə müddətində tələbələr geoloji sahə işləri həyata keçirir, qaya və torpaq nümunələri toplayır, geoloji xəritələr və kəsilişlər hazırlayır, litoloji, mineralogiya və paleontologiya üzrə analizlər aparır, müasir cihaz və proqram təminatları ilə (GPS, GIS, AutoCAD, Surfer və s.) işləyir və əldə olunan məlumatları təhlil edərək, hesabat şəklində təqdim edirlər.

İstehsalat təcrübəsi tələbələrə real peşə mühitində öz bilik və bacarıqlarını tətbiq etməyə, həmçinin gələcək karyeraları üçün lazım olan təcrübəni qazanmağa imkan verir. Bu mərhələ tələbələrin yalnız nəzəri biliklərini gücləndirmir, həm də onlarda geoloq kimi müstəqil qərarvermə və tədqiqat aparmaq bacarığı formalaşdırır.

# BDU-da İTV-nin “Sabaha saxlamayaq” verilişinin model simulyasiyası

*Mayın 7-də Jurnalistika fakültəsində “Yeni media və kommunikasiya nəzəriyyəsi” fənni çərçivəsində İctimai Televiziyada (İTV) yayımlanan “Sabaha saxlamayaq” verilişinin BDU modeli simulyasiyası keçirilib. Simulyasiyada verilişin aparıcıları Vüsalə Məmmədova və Ürfan Məmmədli iştirak ediblər.*



BDU-nun Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri Xatirə Hüseynova və kafedranın müəllimi, verilişin böyük redaktoru Nüşabə Hüseynova gənc jurnalistlərin praktik biliklərə yiyələnmələrinin xüsusi önəm kəsb etdiyini deyiblər. Qeyd ediblər ki, hazırda fəaliyyət göstərən və ictimai rəy formalaşdıra bilən peşəkarlarla görüşlərin keçirilməsi, belə simulyasiyanın təşkili tələbələrin nəzəri biliklərinin praktikada icrasına dəstək olacaq.

Vüsalə Məmmədova və Ürfan Məmmədlinin aparıcılığı ilə keçirilən simulyasiyada jurnalistlərin etik kodeksləri, gənc jurnalistlərin karyera məsələləri, tədris prosesində praktiklik və jurnalistlərin nitq bacarıqları kimi mövzular müzakirə edilib, real proqram mühiti yaradılıb. Bildirilib ki, hər gün nəsə öyrənən jurnalist yeniliklərə və hətta tənqidə də açıq olmalı, istənilən situasiyada peşəkarlığı qorumalı və qərəzsiz qalmalıdır: “Hər proqramın öz auditoriyası var. Verilişin mövzuları cəmiyyətin müxtəlif təbəqələrinin maraqlarına cavab verməlidir”.

Görüşdə tələbələrin müxtəlif media subyektləri ilə bağlı fikirləri dinlənilib. Müasir mətbuatımızda ən çox yol verilən nöqsanlar təhlil edilib.

# "Media hüququ və insan hüquqları” mövzusunda təlim

*Mayın 13-də Bakı Dövlət Universitetinin “BDU könüllüləri” təşkilatının Hüquq fakültəsi üzrə üzvlərinin, Mülki proses və kommersiya hüququ, İnsan hüquqları və informasiya hüququ UNESCO kafedralarının birgə təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli” və Azərbaycan milli mətbuatının 150 illik yubileyi çərçivəsində "Media hüququ və insan hüquqları” mövzusunda maarifləndirici təlim keçirilib.*

Təlimçi qismində İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi, Bakı 1 saylı Mediasiya Təşkilatının direktoru, hüquq üzrə fəlsəfə doktoru Şahin Məmmədrzalı çıxış edib. Hüquq, Mexanika-riyaziyyat, Tətbiqi riyaziyyat və kibernetika, Biologiya, Tarix, Beynəlxalq münasibətlər və iqtisadiyyat, Sosial elmlər və psixologiya fakültələrinin tələbələrinin qatıldığı tədbirdə təlimçi informasiya elmləri, informasiya dövriyyəsi, media terminləri, media hüququ, media subyektlərinin əhatə dairəsi və insan hüquqları haqqında ətraflı məlumat verib. O, informasiya əldə etmək, məlumat almaq hüququnun insan hüquqlarının ayrılmaz tərkib hissəsi olduğunu vurğulayıb, bununla bağlı ölkə qanunvericiliyində olan maddələri şərh edib. Bununla yanaşı, ölkədə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülən işlərin mütəmadi olaraq mətbuatda işıqlandırılmasında media nümayəndələrinin böyük rolunun olduğunu diqqətə çatdırıb.

Sonra tələbələrin mövzu ilə bağlı suallarıcavablandırılıb.

# BDU-da Respublika elmi konfransı: “Tətbiqi riyaziyyatın müasir problemləri”

*Mayın 14-də Tətbiqi riyaziyyat və kibernetika fakültəsində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş “Tətbiqi riyaziyyatın müasir problemləri” mövzusunda Respublika elmi konfransı keçirilib.*

Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dekanı, professor Ələkbər Əliyev bildirib ki, kompüter elmlərinin sürətli inkişafı riyaziyyatın yeni tətbiq sahələrini əhəmiyyətli dərəcədə artırıb. 1972-ci ildə Ümummilli Lider Heydər Əliyevin göstərişi və himayəsi ilə yaradılan Tətbiqi riyaziyyyat və kibernetika fakültəsi fəaliyyət göstərdiyi müddətdə yüksəkixtisaslı kadrlar yetişdirərək, respublikada kompüter elmlərinin inkişafına və elmi-pedaqoji kadrların hazırlanmasına önəmli töhvələr verib. Belə konfranslar tətbiqi riyaziyyat və informasiya texnologiyalarının bir çox aktual problemləri üzrə fikir və bilik mübadiləsi üçün geniş platforma yaradır. Konfransa təqdim olunan elmi işlər əsasən dərin öyrənmə və maşın öyrənməsi alqoritmlərinin effektivliyinin artırılması-na, süni intellekt metodlarının tətbiq sahələrinə, informasiya təhlükəsizliyinin qorunması üsullarına, mobil tətbiqlərin yaradılmasına, kompüter şəbəkələrinin texniki və proqram təminatına və informasiya texnologiyalarının digər aktual sahələrinə həsr edilir.

Riyazi fizika tənlikləri kafedrasının müdiri, akademik Yusif Məmmədov Ulu Öndər Heydər Əliyevin Azərbaycanda təhsilin və elmin inkişafına verdiyi dəstəkdən bəhs edib. O, fakültənin tədris keyfiyyətini yüksək qiymətləndirərək, onun məzunlarının respublikanın və dünyanın müxtəlif elm və təhsil ocaqlarında fəaliyyət göstərdiyini bildirib.

Konfransda Ehtimal nəzəriyyəsi və riyazi statistika kafedrasının müdiri, professor Rövşən Əliyev hər il keçirilən “Tətbiqi riyaziyyatın müasir problemləri” mövzusundakı elmi konfransların gənc tədqiqatçılar və magistrantlar üçün mükəmməl bir platforma yaratdığını vurğulayıb. O, konfransın məqsədinin elm, təhsil və istehsalatda informasiya texnologiyalarının tətbiqi və bilik mübadiləsini gücləndirmək olduğunu qeyd edib.

# BDU-da elmi seminar: “Azərbaycan-Türkiyə əməkdaşlığına dair sənəd-informasiya resursları”

*Mayın 1-də İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə “Azərbaycan-Türkiyə əməkdaşlığına dair sənəd-informasiya resursları” mövzusunda elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının magistrantı Cahan Əhmədli məruzə edib.*

Məruzəçi Azərbaycanla Türkiyə arasında münasibətlərin formalaşması və inkişafında Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tarixi xidmətlərindən bəhs edib. Vurğulayıb ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin “Biz bir millət, iki dövlətik” kəlamı ölkələrimiz arasındakı sarsılmaz münasibətlərin məhək daşıdır: “İki dövlət arasındakı qardaşlıq münasibətləri Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın səyləri ilə hazırda ən yüksək zirvəyə çatıb”.

Məruzədə dost və qardaş ölkələrin münasibətlərinə dair informasiya resursları xronoloji əsasda təqdim edilib, bu istiqamətdə formalaşan sənəd-informasiya axını tarixi kontekstdə izlənilib. İki ölkə arasındakı münasibətlərə dair sənəd-informasiya resurslarının təsnifatı aparılıb, mövzuya dair sənəd fondları və biblioqrafik resurslar tədqiq olunub, onların informasiya mənbəyi kimi əhəmiyyəti diqqətə çatdırılıb.

Araşdırmada Qars müqaviləsi və Azərbaycan - Türkiyə münasibətlərinin inkişafında mühüm mərhələ hesab olunan Şuşa Bəyannaməsi xüsusi öyrənilib. Qars müqaviləsinin Naxçıvan bölgəsinin təhlükəsizliyinin təmin edilməsi baxımından müstəsna rol oynadığı bildirilib. Ümummilli Lider Heydər Əliyevin Qars müqaviləsinə yüksək dəyər verdiyini bildirən gənc tədqiqatçı Ulu Öndərin bu barədə fikirlərini diqqətə çatdırıb: “Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir”. Tədqiqatda Qars müqaviləsi ilə Şuşa Bəyannaməsi arasında paralellər aparılıb, Şuşa Bəyannaməsinin 44 günlük Vətən müharibəsində parlaq qələbə qazanmış ölkəmizin diplomatik cəbhədə mövqelərini daha da gücləndirdiyi vurğulanıb. Şuşa Bəyannaməsi haqqında ölkəmizdə və xaricdə sənəd-informasiya axınının təşəkkülü, dinamikası kompleks təhlil olunub. Mövzu üzrə çap olunan kitablar, məqalələr haqqında məlumatlar diqqətə çatdırılıb.

Elmi seminar müzakirələrlə davam edib.

# "Gənclərin vətənpərvərlik ruhunda formalaşmasında qəhrəmanlarımızın rolu" mövzusunda tədbir

*Mayın 5-də Geologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli” çərçivəsində "Gənclərin vətənpərvərlik ruhunda formalaşmasında qəhrəmanlarımızın rolu" mövzusunda tədbir keçirilib.*

Geologiya fakültəsinin dekan müavini Ələkbər Mirzəyev gəncliyin milli-vətənpərvərlik ruhunda formalaşmasının zəruriliyindən bəhs edib. O bildirib ki, informasiya müharibəsinin geniş vüsət aldığı indiki dövrdə gənclərin milli-mənəvi dəyərlərə sahib çıxması və ölkəmizin maraqlarını müdafiə edə biləcək vətəndaş kimi yetişməsi xüsusi əhəmiyyət daşıyır. O, bu istiqamətdə Universitetdə, xüsusilə Geologiya fakültəsində həyata keçirilən tədbirlər barədə məlumat verib.

Geologiya fakültəsinin Kompleks geoloji və geofiziki tədqiqat elmi-tədqiqat laboratoriyasının böyük elmi işçisi, Alban-Udi xristian dini icmasının sədri Robert Mobili çıxışında Azərbaycan xalqının tarix boyu üzləşdiyi ədalətsizliklər və Ermənistan tərəfindən törədilən vəhşiliklər haqqında danışıb. O, Azərbaycanın müxtəlif dövrlərdə məruz qaldığı işğallar, soyqırımı aktları və tarixi torpaqlarımızda aparılmış erməni saxtakarlıqları barədə faktlara diqqət çəkib. O, multikultural və tolerant cəmiyyət modeli kimi Azərbaycanın uğurlu təcrübəsindən bəhs edib, müxtəlif dini və etnik qrupların ölkədə sülh və qarşılıqlı hörmət şəraitində yaşamasının mühüm göstərici olduğunu vurğulayıb. Robert Mobili bu cür tədbirlərin gənclərin ictimai və vətəndaş məsuliyyətinin formalaşmasında mühüm rol oynadığını diqqətə çatdırıb.

Antiterror əməliyyatının iştirakçısı, Geologiya fakültəsinin tələbəsi Səfər Əhmədov döyüş xatirələrini bölüşüb, Vətən sevgisindən danışıb.

# BDU "Caspian Agro" - XVIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisində təmsil olunur



***Bakı Dövlət Universiteti "Caspian Agro" - XVIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisində təmsil olunur.***

Sərgidə kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən müxtəlif yerli və beynəlxalq şirkətlər, dövlət qurumları iştirak edir.

Sərgidə Aqrar İnnovasiyalar Mərkəzinin təşkilatçılığı ilə "Smart Agro" istiqaməti üzrə kənd təsərrüfatı sahəsində süni intellektin tətbiqinə dair layihələr də yer alıb. BDU sərgidə "Irrigo - dayanıqlı kənd təsərrüfatı ekosistemi" layihəsi ilə iştirak edir.

Sərgi zamanı BDU stendini ziyarət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə layihə haqqında məlumat verilib.

Tullantı sularının təmizlənməsini təmin edən bu sistem əkilən bitkiyə uyğun gübrələrin növünü və miqdarını süni intellektin tətbiqi ilə avtomatik olaraq tənzimləyir. Bunun sayəsində əkilən bitki növləri üçün sistem tərəfindən müxtəlif mineral tərkibli suvarma suyu hazırlanır. Bu da öz növbəsində bitkilərin yetişmə sürətinə və morfologiyasına müsbət təsir edir.

Tullantı sularının təmizlənməsini, tərkibində olan mineralların növünün və miqdarının analizini və bitkiyə uyğun zənginləşdirmə proseslərini əhatə edən bu layihə "Ağıllı kənd" konsepsiyasına, "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"ya əsaslanır və işğaldan azad olunan Qarabağda dayanıqlı, innovativ və əhalinin rifahına yönəlmiş müasir yaşayış mühiti yaratmağa töhfə verməyi hədəfləyir.

BDU-nun son illərdə startap və texnologiya yarışmalarında qazandığı uğurlar haqqında da Prezident İlham Əliyevə məlumat verilib.

Qeyd olunan stendlə yanaşı, BDU ali təhsil müəssisələri üçün ayrılan açıq məkanda da Universitetin tanıtım stendi ilə təmsil olunur.

# Çin Xalq Respublikasının Qlobal Enerji üzrə Qarşılıqlı Əlaqələrin İnkişafı və Əməkdaşlıq Təşkilatının nümayəndələri BDU-da

***Mayın 16-da BDU-da Çin Xalq Respublikasının (ÇXR) Qlobal Enerji üzrə Qarşılıqlı Əlaqələrin İnkişafı və Əməkdaşlıq Təşkilatının (GEIDCO) nümayəndə heyəti ilə görüş keçirilib.***

Görüşdə BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov, rektorun keyfiyyətin təminatı üzrə müşaviri Asiman İlyasov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, GEIDCO-nun direktor müavini Xu Ming, Əməkdaşlıq şöbəsinin baş meneceri Yu Kaifeng, Üzvlük şöbəsinin baş meneceri Gao Ming, İqtisadiyyat və Texnologiya Elmi-Tədqiqat İnstitutunun böyük elmi işçisi Gao Chao, Şərqi Avropa və Mərkəzi Asiya üzrə ofisin direktoru Xupeng Chen və ofisin əməkdaşı Zhou Pengchao iştirak ediblər.

Qonaqlara Universitetin tarixi, fəaliyyəti, strukturu, tədris və elmi fəaliyyəti barədə ətraflı məlumat verilib. Daha sonra qonaqlar təmsil etdikləri təşkilatın əsas fəaliyyət istiqamətləri barədə danışıblar. Bildirilib ki, sözügedən təşkilatın məqsədi dünya miqyasında enerji sahəsində davamlı inkişafı təşviq etmək, qlobal enerji tələbatını təmiz və yaşıl alternativlərlə qarşılamaq, BMT-nin "Hamı üçün dayanıqlı enerji təşəbbüsü" və "İqlim dəyişikliyinə qarşı mübarizə" məqsədlərini həyata keçirməkdir.

Görüşdə ali təhsildə potensialın artırılması ilə bağlı müxtəlif layihələr, Dayanıqlı İnkişaf Məqsədləri (DİM) istiqamətində əməkdaşlıq məsələləri də müzakirə olunub.

Qeyd edək ki, təşkilatın 142 ölkədən 1346 üzvü, 7 regional ofisi, o cümlədən 72 milli nümayəndəlik ofisi və 6 regional komitəsi var.

# "Azərbaycan filoloji fikri çağdaş tədqiqatlarda" mövzusunda Respublika elmi konfransı keçirilib

***Mayın 16-da Filologiya fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Azərbaycan filoloji fikri çağdaş tədqiqatlarda" mövzusunda Respublika elmi konfransı keçirilib.***

Filologiya fakültəsinin dekanı, dosent Elçin Məmmədov Ulu Öndər Heydər Əliyevin millət və dövlət quruculuğu sahəsində həyata keçirdiyi misilsiz addımlardan, banisi olduğu azərbaycançılıq ideologiyasından, Azərbaycan dili və ədəbiyyatının inkişafına verdiyi əvəzolunmaz töhfələrdən danışıb. Bildirib ki, Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrdə görkəmli ədəbi şəxsiyyətlərin yubileyləri qeyd edilib, ədəbiyyat və mədəniyyət xadimləri yüksək qayğı ilə əhatə olunub, dövlət dilinin qorunması və təbliği istiqamətində tarixi əhəmiyyət daşıyan fərman və sərəncamlar imzalanıb. Ulu Öndərin irsinin layiqli davamçısı Prezident İlham Əliyev bu şərəfli missiyanı uğurla davam etdirir, xüsusilə Qarabağda ədəbi-mədəni mühitin yenidən dirçəldilməsi yönündə mühüm addımlar atır.

Filologiya fakültəsinin elmi işlər üzrə dekan müavini Mehriban Əlizadə bildirib ki, konfransa ölkənin müxtəlif elm və ali təhsil müəssisələrindən çox sayda iştirakçı müraciət edib, onlardan 150-dək müəllifin məqaləsi qəbul edilib.

Konfransın plenar iclasında BDU-nun Şərqşünaslıq fakültəsinin dosenti Əsmətxanım Məmmədova "Ulu Öndər - xoş gələcəyə hesablanmış addımlar", professor Nübar Muxtarova "Azərbaycanın vətənpərvərlik rəmzi olan Ümummilli Lider Heydər Əliyev mənim həyatımda şərəfli yer tutur", Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, Əməkdar müəllim Bilal Həsənli "Ulu Öndər Heydər Əliyevin məqsədyönlü milli ədəbiyyatın inkişafı siyasəti", BDU-nun Filologiya fakültəsinin tələbəsi Vüsalə Rizvanova "Dil və liderlik: Heydər Əliyevin ifadə estetikası" adlı məruzələrlə çıxış ediblər.

Konfrans öz işini 3 istiqamət üzrə 8 bölmədə davam etdirib.

# Özbək yazıçısı Adil Yaqubovun "Uluğbəy xəzinəsi" romanının təqdimatı keçirilib



***Mayın 12-də Filologiya fakültəsində Özbəkistanın Xalq yazıçısı Adil Yaqubovun Azərbaycan dilində nəşr edilmiş "Uluğbəy xəzinəsi" romanının təqdimatı keçirilib. Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğlunun tərcüməsində işıq üzü görmüş kitabın təqdimatında fakültənin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.***

BDU-nun Türkologiya kafedrasının müdiri, professor Məhərrəm Məmmədov Özbəkistanla Azərbaycan arasında dostluğun və qardaşlığın dərin genetik köklərdən gəldiyini vurğulayıb. Qeyd edib ki, Azərbaycanla Özbəkistanın tarixi birliyi hazırda yüksək səviyyədə davam etdirilir: "Azərbaycan Qarabağda öz ərazi bütövlüyünü bərpa edəndən sonra Özbəkistan dövlətinin qardaşlıq jestlərindən biri Azərbaycana hədiyyə olaraq Füzuli rayonunda tam orta məktəb inşa etdirməsi olub. Dünyanın ən müasir təhsil standartlarına uyğun təchiz edilmiş bu təhsil ocağı özbək xalqının böyük dövlət xadimi, dünya elmində xüsusi yeri olan Mirzə Uluğbəyin adını daşıyır. Müzakirəsini keçirdiyimiz tarixi roman bu böyük şəxsiyyətin həyatından bəhs edir və onun kimliyi haqqında Azərbaycan oxucusunda, xüsusilə gənclərimizdə aydın təsəvvür yaradır".

Türkologiya kafedrasının əməkdaşları - dosent Kəmalə Nəcəfova, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev, magistrant Aysel Həsənova, AMEA-nın professoru Yaşar Qasımbəyli çıxışlarında romanın bədii keyfiyyətləri, türk xalqları ədəbiyyatındakı yeri, həmçinin tərcümənin səviyyəsi barədə fikirlərini bölüşüb, tərcüməçinin əməyini yüksək qiymətləndiriblər.

Romanı özbəkcədən dilimizə çevirən, Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğlu əsərin müəllifi ilə tanışlığının tarixini xatırladıb, 1990-cı ildə Bakıda törədilmiş 20 Yanvar faciəsindən sonra ən çətin anlarda Adil Yaqubovun rəhbəri olduğu Özbəkistan Yazıçılar Birliyinin Azərbaycanla həmrəyliyini qeyd edib və bu romanın Azərbaycanda BDU tərəfindən nəşr edilərək ölkənin aparıcı kitabxanalarına yayılmasının vəfa borcunun qarşılığı olduğunu vurğulayıb.

Məti Osmanoğlu romanın nəşrinə görə BDU rəhbərliyinə öz minnətdarlığını bildirib.

# BDU-da Azərbaycanda ensiklopediyaların nəşr tarixi araşdırılıb

***Mayın 14-də İnformasiya və sənəd menecmenti fakültəsində "Azərbaycanda ensiklopediyaların nəşr tarixi" mövzusunda elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müəllimi, filologiya elmləri üzrə fəlsəfə doktoru Sevda Quliyeva məruzə edib.***

Məruzədə Azərbaycanda ensiklopediyaların nəşr tarixi, formalaşma və inkişaf dövrləri xronoloji inkişafda izlənilib. Bu sahədə aparılan tədqiqat işlərinə nəzər salınıb. Ölkənin müxtəlif nəşriyyatları tərəfindən çap edilən ensiklopediyalar elmi-nəzəri baxımdan təhlilə cəlb edilib, ensiklopediyaların tərtibatına, dil-üslub xüsusiyyətlərinə və eləcə də redaktəsinə verilən tələblər öyrənilib. "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" Prezident İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli Sərəncamının sahənin inkişafına mühüm töhfə olduğu vurğulanıb. Bir sıra ensiklopediyalar, o cümlədən Kitabi-Dədə Qorqud Ensiklopediyası, Qarabağ Ensiklopediyası, Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, Muğam Ensiklopediyası kimi mühüm nəşrlər təhlil edilib.

# "Elektron kataloq – yüksək informasiya texnologiyaların nəticəsi kimi" mövzusunda tələbələrin V Respublika konfransı

*Mayın 19-da İnformasiya və sənəd menecmenti fakültəsinin və Tələbə Elmi Cəmiyyətinin (TEC) birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Elektron kataloq – yüksək informasiya texnologiyaların nəticəsi kimi" mövzusunda tələbələrin V Respublika konfransı keçirilib.*



Konfransı giriş sözü ilə açan BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru, professor Mais Süleymanov Ulu Öndər Heydər Əliyevin ölkəmizdə elmin və təhsilin inkişafındakı müstəsna xidmətlərindən bəhs edib. Natiq BDU-da elmi-tədqiqat işlərinin məzmununun yenilənməsi, o cümlədən tələbələrin bu prosesə cəlb edilməsi istiqamətində atılmış mühüm addımlar barədə məlumat verib: "Bu mənada İnformasiya və sənəd menecmenti fakültəsinin təşkilatçılığı ilə davamlı olaraq keçirilən, artıq ənənə halını alan "Elektron kataloq – yüksək informasiya texnologiyaların nəticəsi kimi" mövzusunda Respublika konfransı xüsusi əhəmiyyətə malikdir. Əminəm ki, artıq beşincisi keçirilən konfrans tələbələrdə elmi fəaliyyətə böyük maraq yaradacaq, onların bu istiqamətdə gələcək fəaliyyətlərini təşviq edəcək".

Açılış mərasimində Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Mərkəzi Elmi Kitabxanasının (MEK) direktoru, texnika elmləri doktoru Hüseyn Hüseynov, BDU-nun Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının professoru Xəlil İsmayılov, Sumqayıt Dövlət Universitetinin Kitabxana İnformasiya Mərkəzinin direktoru Leyla Allahverdiyeva və başqaları çıxış edərək tədbirin əhəmiyyətindən bəhs ediblər.

İnformasiya və sənəd menecmenti fakültəsinin TEC-nin elmi rəhbəri, dosent Rəşad Qardaşov konfrans barədə məlumat verib. Bildirib ki, tədbirin keçirilməsində məqsəd kitabxana-informasiya fəaliyyətində elektron kataloqların və avtomatlaşdırma proseslərinin müasir vəziyyətini və perspektivlərini araşdırmaq, tələbələrdə elmi tədqiqata maraq artırmaq, bu istiqamətdə olan elmi nəticələri müzakirə etməkdir: "Builki konfransda tədqiqat obyekti kimi regionlarda yerləşən ali təhsil və elmi-tədqiqat müəssisələrinin kitabxanalarının iş təcrübəsi seçilib". Respublika konfransında BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin tələbələri Sumqayıt Dövlət Universitetinin Kitabxana İnformasiya Mərkəzi, Azərbaycan Dövlət Aqrar Universitetinin Əsaslı kitabxanası, Lənkəran Dövlət Universitetinin Elmi Kitabxanası, AMEA Şəki Regional Elmi Mərkəzinin kitabxanası və Qarabağ Universitetinin Nəşriyyat və Kitabxana Mərkəzinin iş təcrübəsinin tədqiqi əsasında hazırladıqları təqdimatları nümayiş etdiriblər.

Təqdimatlarda regionlarda yerləşən ali təhsil və elmi-tədqiqat müəssisələrinin kitabxanalarında rəqəmsallaşdırma prosesləri, istifadə səmərəliliyi, elektron kataloqun axtarış imkanları barədə geniş məlumatlar verilib, müqayisəli təhlillər aparılıb, təkliflər irəli sürülüb.

# Magistrant və gənc tədqiqatçıların "Fizika və astronomiyanın problemləri" adlı XXV Respublika elmi konfransı

*Mayın 16-da Fizika fakültəsi və Fizika Problemləri Elmi-Tədqiqat İnstitutunun (ETİ) təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Magistrantların və gənc tədqiqatçıların "Fizika və astronomiyanın problemləri" adlı XXV Respublika elmi konfransı keçirilib.*



Elmi fəaliyyətin təşkili və innovasiya Mərkəzinin direktoru Mais Süleymanov iştirakçıları fizika və astronomiyanın inkişaf meylləri, aktual problemləri, BDU-da bu istiqamətdə həyata keçirilən layihələrlə tanış edib, konfransın işinə uğurlar arzulayıb.

Fizika fakültəsinin dekanı Bəxtiyar Paşayev qeyd edib ki, XXI əsrin ilk onillikləri fundamental elmlərin, xüsusilə də fizika və astronomiyanın inkişafında dönüş nöqtəsi olub. O, müasir fizikanın inkişaf tendensiyaları, elmi fəaliyyətdəki cari çağırışlar, süni intellekt sahəsində fizika elminin mümkün töhfələri barədə danışıb və gənc tədqiqatçıların bu istiqamətlərə cəlb olunmasının zəruriliyini vurğulayıb.

BDU-nun Fizika Problemləri ETİ-nin direktoru Sədiyar Rəhimov konfransa Elm və Təhsil Nazirliyinin Fizika İnstitutu, Radiasiya Problemləri İnstitutu, Biofizika İnstitutu, Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanası, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Sumqayıt Dövlət Universiteti, Xəzər Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Neft və Sənaye Universitetinin gənc tədqiqatçılarının da qatıldığını, ümumilikdə 108 materialın qəbul edildiyini bildirib.

Elm və Təhsil Nazirliyinin Biofizika İnstitutunun baş direktoru Oktay Qasımov rəhbəlik etdiyi qurumda görülən elmi işlərdən danışıb, gənc tədqiqatçılar üçün belə imkanın yaradılmasına görə təşəkkür edib.

# BDU-da torpaq islahatının yeni mərhələsi və ekoloji problemlərin həllinə dair Respublika elmi konfransı

*Mayın 19-da Ekologiya və torpaqşünaslıq fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Torpaq islahatının yeni mərhələsi və ekoloji problemlərin həlli" mövzusunda Respublika elmi konfransı keçirilib.*

Əvvəlcə Azərbaycan respublikasının Dövlət himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov bildirib ki, Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə ölkədə kənd təsərrüfatının və aqrar sahənin inkişafında mühüm nailiyyətlərə imza atılıb. Məhz həmin dövrdə Ulu Öndərin diqqət və qayğısı nəticəsində ölkədə meliorasiya və su təsərrüfatı, pambıqçılıq, üzümçülük və kənd təsərrüfatının digər sahələrində uğurlu islahatlar aparılıb, bir sıra qərar, fərman və sərəncamlar imzalanıb, dövlət proqramları və qanunlar qüvvəyə minib. Azərbaycan müstəqillik əldə etdikdən sonra böyük uğurla həyata keçirilmiş torpaq islahatları da Ulu Öndərin adı ilə bağlıdır.

Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı Akif Ağbabalı müstəqil dövlətimizin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycan tarixindəki rolu, demokratik, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi islahatlar barədə ətraflı məlumat verib. Bildirib ki, Ümummilli Lider Heydər Əliyev bütün ictimai-siyasi fəaliyyəti dövründə Azərbaycanın inkişafı üçün çalışıb, millətimiz, xalqımız üçün əlindən gələni əsirgəməyib.

Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva Ümummilli Liderin respublikamızın ətraf mühitinin qorunması sahəsindəki xidmətləri və ekoloji siyasətindən bəhs edib. O



bildirib ki, Ümummilli Liderin hakimiyyəti dövründə ölkəmizdə bir çox ekoloji layihələr həyata keçirilib. Onun rəhbərliyi ilə ekoloji məsələlər dövlət siyasətinin mühüm bir hissəsinə çevrilib. Bu siyasətin əsas məqsədi təbiətə qarşı insan fəaliyyətinin zərərlərini minimuma endirmək, təbii sərvətləri səmərəli şəkildə istifadə edərək, ətraf mühitin qorunmasına yönəlmiş qanunvericiliyi gücləndirmək və ekosistemi bərpa etmək idi. Torpaqşünaslıq və daşınmaz əmlakın kadastrı kafedrasının müdiri, akademik Qərib Məmmədov Ümummilli Lider Heydər Əliyevin Torpaq İslahatı Modelinin mahiyyətindən, Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun İdarə Heyətinin sədri Elmar Allahverdiyev Ulu Öndər Heydər Əliyevin kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsindəki xidmətlərindən, Coğrafi ekologiya kafedrasının professoru Şövqi Göyçaylı Ulu Öndər Heydər Əliyevin irsi və Azərbaycan təbiətinin mühafizəsi barədə ətraflı məlumat veriblər. Çıxışlarda Ulu Öndərin Azərbaycanda siyasi hakimiyyətə yenidən qayıdışı ilə ölkənin davamlı inkişaf yoluna qədəm qoyduğu, sabitliyin bərqərar olduğu, xarici siyasətdə böyük uğurlar qazanıldığı vurğulanıb.

Plenar məruzədə BDU-nun Coğrafi ekologiya kafedrasının müəllimi Türkan Məmişova "Ağdam rayonunun peyk təsvirlərinə əsaslanan ekoloji dəyişikliklərinin fazial analizi" və Bioekologiya kafedrasının doktorantı Ramil Həsənov "Qızılağac Milli Parkının su-bataqlıq ekosistemınə təsirlərin səciyyəsi" mövzularında çıxış ediblər.

Konfrans işini beş bölmə üzrə davam etdirib.

# BDU-nun təşkilatçılığı ilə Respublika Hüquq Olimpiadası keçirilib

***Mayın 7-də BDU-nun təşkilatçılığı, Azərbaycan Respublikası Baş Prokurorluğunun dəstəyi ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş Respublika Hüquq Olimpiadası keçirilib.***



Olimpiadanın keçirilməsində məqsəd "Hüquq" ixtisası üzrə təhsil alan tələbələrin nəzəri bilik və praktiki bacarıqlarını üzə çıxarmaq, onların hüquqi düşünmə və təhlil qabiliyyətlərini inkişaf etdirmək, hüquqşünas gənclər arasında sağlam rəqabət mühitinin formalaşmasına töhfə verməkdir.

Tədbirdə 8 ali təhsil müəssisəsinin (BDU, ADA Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Daxili İşlər Nazirliyinin Polis Akademiyası, Dövlət Gömrük Komitəsinin Akademiyası, Milli Aviasiya Akademiyası, Qarabağ Universiteti, Naxçıvan Dövlət Universiteti) tələbələri iştirak ediblər. İştirakçılar hüququn müxtəlif sahələrinə dair nəzəri və praktik xarakterli sualları cavablandırıblar.

Tədbirin açılış mərasimində BDU-nun Hüquq fakültəsinin dekanı Zaur Əliyev Respublika Hüquq Olimpiadasının ilk dəfə 2024-cü ildə Hüquq fakültəsi tərəfindən təşkil olunduğunu, həmin olimpiadanın Heydər Əliyev Fondunun 20 illik yubileyi və Ulu Öndərin anadan olmasının 101-ci ildönümünə həsr olunduğunu xatırladıb. O, 2025-ci ilin xüsusi önəm daşıdığını vurğulayaraq, olimpiadanın məhz Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Konstitusiyanın qəbul edilməsinin 30 illiyi və Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış Qələbənin 5 illiyi ərəfəsində keçirilməsinin əhəmiyyətini qeyd edib. Dekan Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurucusu, Müzəffər Ali Baş Komandan İlham Əliyevin isə qalib Azərbaycan dövlətinin qurucusu olduğunu diqqətə çatdırıb.

Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin sektor müdiri Həmid Nəsibov qalib, suveren ölkənin hüquqşünas gənclərinin üzərinə xüsusi məsuliyyət düşdüyünü xatırladıb: "Tələbələrə hər zaman müstəqilliyimizə, suverenliyimizə töhfə verməyi arzu edirəm. Çünki hüququn müxtəlif sahələrində, o cümlədən beynəlxalq hüquq sahəsində bu qələbimizi möhkəmləndirmək üçün mütəxəssislər lazımdır".

Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Talıb Cəfərov çıxışında prokurorluq orqanları ilə ali təhsil müəssisələri arasında uğurlu əməkdaşlığın tələbələr üçün yaratdığı imkanlardan bəhs edib, gənclərin prokurorluq sisteminə marağının artdığını bildirib. Azərbaycan Gənclər Fondunun icraçı direktoru Qədir Xəlilov isə tələbələrin təşəbbüsü ilə gerçəkləşən layihələrin əhəmiyyətini vurğulayıb, Fondun gənclərin inkişafı və ictimai fəallığının təşviqi istiqamətində həyata keçirdiyi layihələr haqqında məlumat verib.

Xəzər Rayon Məhkəməsinin sədri Abbas Rzayev çıxışında hüquq təhsili alan tələbələr arasında intellektual müsabiqələrin keçirilməsinin onların biliklərinin möhkəmləndirilməsi baxımından əhəmiyyətini önə çəkib.

Fakültənin Tələbə Gənclər Təşkilatının sədri Veysəl Mirzəzadə olimpiadanın formatı, mərhələləri və texniki xüsusiyyətləri barədə ətraflı məlumat verib.

Olimpiada iki mərhələdən ibarət olub. Münsiflər heyətinin qərarına əsasən, I yerə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, II yerə Dövlət Gömrük Komitəsinin Akademiyası, III yerə isə Daxili İşlər Nazirliyinin Polis Akademiyasının tələbələri layiq görülüblər. Olimpiadanın keçirilməsinə göstərdikləri dəstəyə görə Azərbaycan Respublikasının Baş Prokurorluğuna, eləcə də tərəfdaş qurumlar – "BM Morrison Partners" hüquq şirkəti, "De Fendo" vəkil bürosu, "Mirzəyev və partnyorları" vəkil bürosu və "Ekvita" hüquq şirkətinə təşəkkür elan olunub.

# BDU-da simulyasiya konfransı: "Qlobal informasiya təhlükəsizliyi və medianın beynəlxalq münaqişələrdə rolu"

***Mayın 8-də Bakı Dövlət Universitetinin "BDU könüllüləri" təşkilatının Jurnalistika fakültəsi üzrə üzvləri və "Xarıbülbül" Diplomatiya Klubunun birgə təşkilatçılığı ilə Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr olunmuş "Qlobal informasiya təhlükəsizliyi və medianın beynəlxalq münaqişələrdə rolu" mövzusunda simulyasiya konfransı keçirilib.***



Simulyasiya konfransı çərçivəsində fərqli ölkə nümayəndələrini təmsil edən tələbələr mövzu üzrə çıxışlar ediblər. İştirakçılar beynəlxalq müstəvidə qlobal informasiya təhlükəsizliyi və beynəlxalq münaqişələrdə medianın təsir gücü ilə bağlı daha ətraflı məlumat əldə etmək, beynəlxalq münasibətlərin təhlili və praktiki istifadəsi ilə yaxından tanış olmaq imkanı qazanıblar.

Simulyasiya konfransının iştirakçıları təmsil etdikləri ölkələrin mövqeyinə uyğun olaraq real situasiyalar əsasında qərar qəbuletmə prosesində iştirak ediblər.

Qeyd edək ki, simulyasiya informasiya təhlükəsizliyinin çağdaş dövrdə beynəlxalq təhlükəsizlik modelindəki yerini vurğulamaq, medianın münaqişələrin gedişinə və həllinə təsir imkanlarını təhlil etmək, eləcə də tələbələrə praktik bilik və bacarıqlar qazandırmaq məqsədilə təşkil edilib.

# BDU tələbələri Qobustan palçıq vulkanlarına baxış keçiriblər

***Mayın 2-də Coğrafiya fakültəsinin Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının bir qrup müəllim və tələbəsi Qobustan Palçıq Vulkanları Turizm Kompleksinə səfər edib. Səyahətin məqsədi həmin rayonda geoloji proseslərin öyrənilməsi və həmin ərazinin təbii resurs potensialının araşdırılması olub.***

Tələbələrə bildirilib ki, Qobustan palçıq vulkanlarının elmi tədqiqi böyük əhəmiyyət daşıyır, çünki bu cür elmi tədqiqat nəticələri ətraf mühitin qorunması və gələcəkdə baş verə biləcək təbii fəlakətlərin proqnozlaşdırılmasında mühüm rol oynayır. Palçıq vulkanlarının geoloji xüsusiyyətlərini, təbii və müalicəvi xüsusiyyətlərini dərindən araşdırmaq bir çox başqa elmi-təcrübi sahələrdə tədqiqatlara zəmin yaradır.

Tələbələr Qobustan palçıq vulkanlarının xüsusiyyətləri, burada yerləşən stratiqrafik süxurlarla tanış olublar.

# Psixoloji yardım sektorunun "Kinoklub" layihəsi çərçivəsində "Böyük Getsbi" filmi təhlil edilib

***Mayın 5-də BDU-nun Psixoloji yardım sektorunun (PYS) "Kinoklub" layihəsi çərçivəsində Sosial elmlər və psixologiya fakültəsinin tələbələri ilə görüş keçirilib. Görüşdə Frensis Skott Fisceraldın 1925-ci ildə yazdığı eyniadlı roman əsasında çəkilən "Böyük Getsbi" filminin psixoloji təhlili aparılıb.***

Sektorun psixoloqu Natəvan Həsənzadə psixoloji film təhlilinin şəxsi inkişaf və emosional baxımdan əhəmiyyətini vurğulayıb. O bildirib ki, layihənin məqsədi filmlər üzərindən insanların psixoloji aspektlərini, xarakterlərini və psixoloji vəziyyətlərini dərindən araşdırmaqdır. Film təhlili personajların davranışlarını, motivasiyalarını, duyğusal reaksiyalarını və psixoloji inkişaflarını daha yaxşı anlamağa kömək edir. Bu növ təhlil tələbələrdə dərin təhlil və analiz bacarıqlarını inkişaf etdirir.

Tələbələr filmin qəhrəmanlarının davranışlarını, emosional reaksiyaları, yaşadıqları daxili təlatümləri, konfliktləri təhlil edib, əsərin kino həlli ilə bağlı fikirlərini bölüşüblər.

# Geologiya fakültəsinin tələbələri Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinə ekskursiya ediblər

***Mayın 7-də Geologiya fakültəsi Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə tələbələr Universitetin nəzdində fəaliyyət göstərən Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinə ekskursiya ediblər.***

Tələbələrə Mərkəzdə həyata keçirilən praktiki elmi araşdırmalar, yeni texnoloji qurğular, mühəndislik yönümlü layihələr və startap ideyaları haqqında ətraflı məlumat verilib. Onlar robot texnikası, 3D çap texnologiyası, avtomatlaşdırma sistemləri və süni intellekt tətbiqləri sahəsində görülən işlərlə tanış olublar.

Mərkəzin əməkdaşları tələbələrlə interaktiv müzakirələr aparıb, onları elmi fəaliyyətə fəal qoşulmağa çağırıblar.

Ekskursiya çərçivəsində Universitetin beynəlxalq miqyasda qazandığı nailiyyətlər də tələbələrin diqqətinə çatdırılıb. BDU komandalarının "TEKNOFEST" yarışlarında əldə etdiyi uğurlar xüsusi vurğulanıb.

# BDU-da “Tələbə məkanı”nın açılışı

***Mayın 26-da BDU və Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının (AHİK) birgə əməkdaşlığı ilə Universitetin həyatında “Tələbə məkanı” açılıb.***






Açılış mərasimində çıxış edən BDU rektoru Elçin Babayev qeyd edib ki, yeni açılan “Tələbə məkanı” BDU-da “Konstitusiya və Suverenlik İli” çərçivəsində görülən işlərə ən gözəl nümunələrdən biridir. Azərbaycan Konstitusiyasında hər bir şəxsin təhsil hüququ ilə yanaşı, istirahət hüququ, sosial xidmət hüququ var. “Tələbə məkanı” BDU tələbələrinin sosial həyatına rəngarənglik qatacaq, onların şəbəkələşməsinə imkan yaradacaq.

Rektor bildirib ki, “Tələbə məkanı” tələbələrin asudə vaxtlarını keçirəcəyi, birgə debatlar, müzakirələr aparacağı, ünsiyyət quracağı bir yer olacaq: “Burada yalnız Bakı Dövlət Universitetinin deyil, digər ali təhsil müəssisələrinin tələbələri də layihələrini həyata keçirə biləcəklər. Bu məkan planlaşdırılarkən müasir dövrün çağırışları, xüsusilə də dövlətimizin yaşıl texnologiyalar və ekoloji problemlərin həlli ilə bağlı siyasəti əsas götürülüb. Ərazidəki bütün işıqlandırma Günəş panelləri vasitəsilə təmin olunur. Layihənin mühüm cəhətlərindən biri də 24 saat fəaliyyət göstərəcək mini kitabxanadır. İstənilən tələbə istənilən vaxt oradakı kitabları oxuya, onlardan bəhrələnə və daha sonra geri qaytara bilər. Hətta öz kitablarını da kitabxanaya əlavə edə bilər”.



AHİK sədri Sahib Məmmədov Azərbaycanda gənclər siyasətinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu bildirib. O, Ulu Öndərin məzunu olduğu BDU-nun Azərbaycanın elm-təhsil məkanında böyük rolunun olduğunu qeyd edib. Bildirib ki, son illərdə Universitetdə müasir dövrün çağırışlarına uyğun olaraq islahatlar həyata keçirilir. O, AHİK-in BDU ilə uğurlu əməkdaşlıq etdiyini diqqətə çatdırıb, “Tələbə məkanı”nın Universitet tələbələrinin sosial inkişafına xidmət etdiyini vurğulayıb.

Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov, elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli, BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Zöhrab Cavadzadə çıxışlarında “Tələbə məkanı”nın tələbələrin sosiallaşmasına, liderlik bacarıqlarının artmasına, Universitetin inkişafına təkan verəcəyini bildiriblər.

# BDU-nun 14 tələbəsinə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin adlı təqaüdü verilib

***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) üzv təşkilatı Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi (ATİAHİ RK) tərəfindən təhsildə və tələbə həmkarlar ittifaqı hərəkatında fəal iştirak edən 308 tələbəyə adlı təqaüd təqdim edilib.***



Onların arasında BDU-nun 14 tələbəsi – Aişə Teymurlu, İnci Bayramlı, Aydan Paşazadə, Nəzrin Məmmədzadə, Aycan Eyvazlı, Tərlalə Abbaslı, Ləman Lazımzadə, Salman Vahabov, Hüseyn Hüseynli, Aysu Mehdiyeva, Əli Ələkbərli, Fidan Qəniyeva, Rəvan Məmmədov, Cavidan Xankişiyev də var.

ATİAHİ RK-nın “Adlı təqaüd” layihəsi 1995-ci ildən həyata keçirilir. Əvvəlki illərdə hər semestr üzrə 65 tələbəyə, 2024-2025-ci tədris ilinin birinci semestrinin yekunlarına görə 100, ikinci semestrinin nəticələrinə əsasən isə 308 tələbəyə “Adlı təqaüd” verilib. İndiyədək 3179 tələbə bu təqaüdə layiq görülüb.

# BDU tələbələri “Pillə-3” Tələbə Tamaşaları Festivalında çıxış ediblər

***BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin tələbələrin iştirakı ilə səhnələşdirdiyi “Ezop” tamaşası “Pillə-3” Tələbə Tamaşaları Festivalında nümayiş olunub.***

Səhnə əsərinin quruluşçu rejissoru Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrının istedadlı aktyoru Vahid Orucoğludur.

“Ezop” tamaşasında rolları Universitetin tələbələri Hüseyn Cabbarlı, Fidan Sultanova, Ramazan Ramazanzadə, Nuran Atakişiyev, Rəna Əsədova və Murad Qəmbərov ifa ediblər. Tamaşa dünya ədəbiyyatının klassik simalarından olan Ezopun həyatına və onun məşhur fəlsəfi hekayələrinə əsaslanaraq hazırlanıb. Qədim yunan təmsil ustası Ezopun (e.ə. VI əsr) qısa, lakin dərin mənalı hekayələri əsrlər boyu insanlara həyat dərsi verib. Əsərlərində heyvan obrazlarından istifadə etməklə insan xarakterini, zəif və güclü cəhətləri, cəmiyyətin problemlərini ustalıqla tənqid edən Ezopun “Tülkü və Üzüm”, “Qurd və Quzu”, “Qarğa və Küp” kimi məşhur hekayələri bu gün də aktualdır.

# Biologiya fakültəsinin tələbələri Hirkan Milli Parkında çöl-tədris təcrübəsində

Tədbir BDU və Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti arasında anlaşma memorandumu əsasında birgə təşkil olunub.

Mayın 26-da Biologiya fakültəsinin tələbələri üçün nəzərdə tutulmuş çöl-tədris təcrübəsi çərçivəsində Hirkan Milli Parkına təlim səfəri ediblər. Səfər çərçivəsində tələbələr Hirkan Milli Parkında müxtəlif bitki və heyvan növlərinin yaşayış mühitini öyrənməklə yanaşı, 22 may- Beynəlxalq Biomüxtəliflik Gününə həsr olunmuş “BioGün 2025” adlı maarifləndirici tədbirdə də iştirak ediblər.

Tədbir BDU və Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti arasında anlaşma memorandumu əsasında birgə təşkil olunub. Maarifləndirici tədbirdə 144 tələbə iştirak edib. Onlar UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilən Hirkan Milli Parkının nadir və endemik növlərlə zəngin ekosistemi ilə tanış olub, biomüxtəlifliyin mühafizəsi, ekoloji tarazlığın qorunması və davamlı inkişaf prinsipləri barədə biliklərini artırıblar. Bu, tələbələrin elmi-tədqiqat bacarıqlarının inkişafına, biomüxtəlifliyin praktiki öyrənilməsinə və ekoloji düşüncənin formalaşmasına mühüm töhfə verir.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

BDU Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 30.05.2025

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08